Türk ellərindən-8

ƏLİ ŞAMİL

SİBİR TÜRKLƏRİ (MƏQALƏLƏR)

Bakı-2026

Redaktoru: **Vəfa Saleh**

Elmi məsləhətçi: Nadejda Tıdıkova,
Baş elmi işçi

Şamil Əli. (Şamilov Əli Hüseyn oğlu).
Sibir Türkləri (Məqalələr),
Bakı: "İmza" nəşrlər evi, 2026, 244 s.

Kitaba keçmiş Sovetlər Birliyinin ən böyük coğrafi ərazisi olan Sibirdə yaşayan Türk xalqlarının mill azadlıq mübarizəsindən, özlərinə dövlət qurma cəhdlərindən bəhs edən məqalələr daxil edilmişdir. Mövzu ilə bağlı tarixi faktlarda Rusiyanın bölgəni işğal edərkən qəddarlığından söz açılmışdır.

İSBN 978-9952-37-755-2

© Əli Şamil, 2026.

İÇİNDƏKİLƏR

Nədən Sibir Türklərini lazımınca tanımadıq.....4
Elmi məqalələr.....13
Son Sibir xanı Küçüm Murtaza Xan oğlunun məğlubiyyətinin səbəbləri.....14
Nədən Bati Sibir Türk Cümhuriyyəti qurmaq istəyənlər cəzalandırıldılar.....21
Türk dünyasının məşhurları.....126
Aleksey Kulakovski.....127
Anempodist Sofronov (Alampa).....141
Qeorqi İtiqin.....150
Nikolay Fyodroviç Katanov.....162
Nikolay Qavriloviç Katanov.....174
Nikolay Konqarov.....184
Stepan Manaqaşev.....191
Qriqori Çoros-Qurkin.....198
Tarix yenidən yazılır: Ejer Çolokov.....206
Əriməkdə olan Altay dillərinin qoruyucu mələyi-Nadejda Tıdıkova.....227

NƏDƏN SİBİR TÜRKLƏRİNİ LAZIMINCA TANIMADIQ

Sibir deyəndə yaşlı azərbaycanlıların yadına həhsxana, sürgün, ölüm, şaxta-qar və s. düşür. Baxmayaraq ki, 1970-cı illərdən bəri sosialist respublikalarının qəzet-jurnalları, radio-televizyası, partiya və komsomol təbliğatçıları, yazıçıları durmadan Sibirdən, orada gedən böyük quruculuq işlərindən yazır, göstərir, danışırdılar. Onlar var gücləri ilə gəncləri Baykal-Amur Magistral (BAM) xəttində və oradakı xidmət sahələrində işləməyə həvəsləndirirdilər. "Şərq qapısı" qəzetinin "Partiya həyatı" şöbəsində işlədiyimdən bu təbliğatı aparmalı olanlardan biri də mən idim.

Valideyinlərini görmək üçün məzuniyyət götürüb vətənə dönənlər, eləcə də BAM-da müqaviləsini başa vurub geri dönənlər orada çəkdikləri əzabdan, insanların həyatda qalmaq uğrunda necə mübarizə apardıqlarından çox danışırdılar. Lakin onların danışdıqlarını qəzetdə çap etdirə bilməzdik. Üzərimizdə ciddi senzor nəzarəti vardı. Yalnız tərənnüm və yenə də tərənnüm yazmalı idik. Rayon və şəhər komsomol komitələrində, vilayət komsomol

komitəsində işləyənlər də BAM-dan gələnlərin narazılıqlarını eşidirdilər. Lakin nəinki tədbir görmək, bu haqqda heç danışmaq səlahiyyətinə də malik deyildilər. Var gücləri ilə BAM-a gənc işçi göndərmək planını doldurmağa, Moskvadan gələn qəlibə uyğun komsomolçuları səfərbərliyə alıb göndərməyə çalışırdılar.

Yalnız təbliğatla iş bitmirdi, mərkəzdən rayon və şəhərlərə tikintiyə nə qədər gənc göndəriləcəyi haqqında planlar gəlirdi. Həbs olunanların da bir qismi oraya işçi kimi göndərilirdi. Ən ağır işlərdə, meşə qırmada, dəmiryol çəkilişində, tunellərin vurulmasında məhkumların qüvvəsindən istifadə edilirdi.

Bu qədər təbliğata baxmayaraq insanlarımız cavidlərin Sibirdə ölməsini, sürgündən sağ qayıdanların xatirələrini unuda bilmirdilər. Bir suala heç cür cavab tapa bilmirdim: necə olub ki, yüz illər boyu Türk xalqları, nenler, evenqlər və b. heç bir zor, güc tətbiq edilmədən, oz xoşları ilə orada yaşayıb, bölgəni sevərək vətənə çevriblər. Sonralar insanlar oraya zorla, təziqlə və müxtəlif imtiyazlarla göndərsələrdə çoxu geri qayıtmağa can atıb.

BAM-a işləməyə gedən gənclər Naxçıvana qayıdanda sürgün olunmuş azərbaycanlıların

tayqanın dərinliklərində kənd salıb yaşadıqlarından, bəzi kənd və qəsəbədə isə yaşayanların xeylisinin azərbaycanlı olduğundan danışırdılar. 1982-ci ildə Hüseyin Cavidin nəşini gətirmək üçün İrkutsk Vilayətinin Tayşeti rayonundakı Şevçenko qəsəbəsindəki həbs düşərgəsinə gedənlərdən SSRİ Ali Sovetinin deputatı, fəhlə Zakir Nəsirov danışırdı ki, şairin cənazəsini qəbirdən çıxarıb gətirəndə oradakı azərbaycanlılar bir neçə qoyun kəsib ehsan veriblər.

Azərbaycan dilçilərinin, tarixçilərinin bəzilərinin fikrincə Sibir sözü Türk tayfalarından olan sabırların, saburların adındandır. Sibir sözünün mənasını əski türkcədəki soyuq yer mənasını verdiyini yazanlar da var.

Batıda Ural dağlarından Sakit okeana qədər uzanan və Quzeydə Arktik dənizlərinə, Güneydə Qazaxıstan, Monqolustan və Çin sərhədinə qədər dayanan, ərazi 13 milyon kvadratkilometrdən çox olan bu torpaqlar indiki Rusiya Federasiyasının yüzdə 77-ni təşkil edir.

Rusiya 17 yüzildə bölgəni yerüstü sərvətlərinə görə işğal edəndə gələcəkdə buradan hansı yeraltı sərvətlər çıxaracaqlarından xəbərsiz idi.

Rus qaynaqlarında Sibir sözünə ilk dəfə 1483-cü ildə rast gəlinir. 17-ci yüzildən hərbi qüdrətini artıran Rusiya Ural dağlarını keçərək Quzey Asiyanı işğal etməyə başladı. Əvəllər onlar Ob çayının orta və aşağı sahillərini Sibir adlandırırdılarsa sonradan İrtış çayı boyunca, Baykal gölünün güneyinə də Sibir deməyə başladılar. Rusiya işğal dairəsini Sakit okeana kimi genişləndirdikdə Uraldan Kamçatkayadək olan əraziləri Sibir adlandırdı.

Yeni ərazilər işğal ediləndə daha çox gəlir əldə etmək üçün təbii sərvətləri bazar üçün hazırlayacaq işçi qüvvəsi haqqında da düşünülür. Rusya bu yolu seçmədi. Hərbçilər və məmurlar yerli şəraitə uyğunlaşmış insanları qoruyub saxlamaq əvəzinə onları məhv etməyə, müxtəlif bəhanələrlə öldürməyə, yaşam üçün daha çətin şəraiti olan yerlərə qovmağa başladılar. Beləliklə bölgədə sürətlə Türklərin sayı azalmağa başladı. Boşalmış yerləri doldurmaq üçün əsasən Rusiyanın batısından, sonra da işğal edilmiş güney bölgəlrindən, Qafqazdan buraya işçi qüvvəsi gətirməyə başladılar. Beləcə qarışıq millətlərdən doğulmuş Rus xalqı formalaşmağa başladı.

Doğulub boya-başa çatdığım İnəkdağı neçə deyərlər, Allahın da yadından çıxmış ucqar bir dağ kəndi idi. O, Allahın "yadından çıxsa da" çar məmurlarının yadından çıxmamışdı. 20-ci yüzilin əvvəlində 62 evli bu kənddən Əhməd və Meyfalı adlı iki cavanı da Sibirə sürgün etmişdilər. Onlar sürgündən qaçıb gələrək düşmənlərini öldürüb Osmanlıya keçmişdilər. Çar hakimiyyətdən devriləndən sonra doğma yurda dönən Əhməd və Meyfalının Sibirdə çəkdikləri çilələr haqqında danışdıqları ağızdan-ağıza keçərək qonşu kəndlərə də yayılmışdı.

Sibirdə yaşayan xalqları ruslaşdırmaq üçün hökümət oraya xristian missionerləri göndərir, kilsələr, monastırlar tikirdi. Yerli xalqlar formal olaraq xristianlığı qəbul etsələr də inanclarını da yaşadırdılar. Burada sanki qalib ordunun, məmurların dini ilə məğlub yerli xalqların inancı arasında bir mübarizə gedirdi. Yerli xalqlar inanclarını, ana dillərini qorumağa çalışırdılar.

Sovetlərin beynəlmiləlçilik siyasəti, xristian dininin yayılmasını əngəlləşdirsə də ruslaşdımanı durdura bilmədi. Bölgəyə sürgün edilənlərin qarışıq nigahdan olan uşaqları Rus dilində təhsil aldıqlarından, Rusiyanın təbliğatı altına düşdüklərindən özlərini Rus sayırdılar. Aparılan

siyasət nəticəsində yerli əhalinin özünü elit sayanları da millətini danır, Rus olduğunu deyir və bununla qürur duyurdular.

"Şərq qapısı" qəzetində işlədiyim illərdə mərkəzin idarəetməsindən yayınaraq muxtar respublikalarla birbaşa əlaqələr qurmağa çalışırdım. Naxçıvan haqqında hazırladığım materialları onların qəzetlərinə göndərir, həmin qəzetlərin əməkdaşlarından da xahiş edirdim ki, yaşadıqları bölgə haqqında səhifələr hazırlayıb mənə göndərsinlər. Beləcə səhifə mübadiləsi edirdik. Oxucular da bu səhifə mübadilələrini maraqla qarşılayırdı. 1986-1988-ci illərdə 20-dən çox səhifə mübadiləsinə nail ola bildim.

Bununla kifayətlənmir başqa yazılar da göndərirdim. Həmin illərdə çap olunmuş yazılarımın bibloqrafiyasına baxanda görürəm ki, Altay vilayətindəki "Altaydın çolmianı" qəzetinin 1989-cu il 12 iyul sayında "Naxçıvanlılar altaylıları alqışlayır", Yakutiya Muxtar Sovet Sosialist Respublikasındakı "Kıım" qəzetinin 1986-ci il 30 noyabr sayında (175 (19223) "Astma xəstəliyi müalicə olunur", "Kıım" qəzetinin 1987-ci il 14 noyabr sayında "Naxçıvan radiosu Yakutiya haqqında", "Социалистическая Якутия" qəzetinin 1987-ci il 28 iyun sayında "Sovet Naxçıvanı" Yakutiya haqqında",

Tuva Muxtar Sovet Sosialist Respublikasındakı "Şın" qəzetinin 1987-ci il 29 iyun, sayı (150 (13450) "Duz müalicə edir", "Şın" qəzetinin 1987-ci il, 28 noyabr sayında (271 (13571) "Xoş-bəxtliyini Tuvada tapdı", "Amurskaya pravda" qəzetində müxtəlif yazılarım çap olunmuşdu.

Azərbaycan Milli Elmlər Akademiyas Folklor İnstitunda işləməyə başlayandan sonra xarici ölkələrdə keçirilən beynəlxalq simpoziumlara tez-tez getməyə başladım. Beynəlxalq simpoziumlara Türk xalqlarının alimlərini də cəlb etməyə çalışırdım. Sibir Türklərinin araşdırıcılarından və aydınlarından Nadejda Tıdıkova, Vasiliy İllarionov, Yelena Fyodrova, Vitali Vlasov, Ayxan Qabışev, Nadiya Yulişeva və b. ilə şəxsi tanışlığım vardı. Çalışırdım ki, onların da Türkiyədə, Avropa ölkələrində, Amerikada keçirilən beynəlxaq toplantılara getmələrinə yardımçı olum. Lakin istədiyimi reallaşdıra bilmirdim.

Onlar xarici ölkələrə getməyə, orada məruzə oxumağa, məqalələrinin çap olunmasına can atsalar da uzunmüddətli Sovet təbliğatının təsirindən çıxa bilmirdilər. Rus dilini dünyanın ən güclü dili sayırdılar. Bu dili bilməyənlərə yuxarıdan aşağı baxırdılar. Onlar ingilis dilini, türk dilini öyrənməyə maraqlı deyildilər.

Türksoylu olsalar da Türkləri özlərindən savadsız sayırdılar. Mən hər il onlara 20-30 beynəlxalq elmi toplantının elanını göndərir, məqalələrini dövrün tələbinə uyğun yazmalarına kömək edəcəyimizi yazırdım. Buna baxmayaraq keçmiş Sovetlər məkanından kənarda keçirilən simpoziumlarda onları az görürdüm. Mənim tanıdıqlarımdan Nadejda Tıdıkova Türkiyə türkcəsini öyrəndi. Türkiyədə, Bakıda keçirilən toplantılarda birgə iştirak etdik. Xanımımın araşdırıcı qadınlara xoş münasibəti onları valeh etmişdi. Azərbaycana gəlməyi, bizimlə birlikdə olmağı, birlikdə milli yeməklər yeməyi sevirdi. Türkiyəyə simpoziuma gedəndə də biletini Moskva üstündən İstanbula aldırmazdı. Çalışırdı ki, gedəndə, ya da geri dönəndə bir iki gün Bakıda qalsın.

Nadiya Yulişeva araşdırma ilə maraqlanan deyildi. Özünü Türkiyədə şaman (qam) kimi tanıtmışdı. Oğlu Amırı da gətirib Türkiyədə oxutdu. Təşkilatlardan oğluna burs (təqaüd) də ala bildi. Sonralar onunla da, oğlu ilə də əlaqələrimiz kəsildi.

Sibir türklərini beynəlxalq elmi toplantılara apara bilməsəm də onların vasitəsilə Sibir türklərinin folkloru haqqında rus dilində xeyli kitab gətirdib mifoloq, dastanşunas, etnoqraf

araşdırıcılara verə bildim. Ramiz Əskər saxa Olonxolarını dilimizə çevirməyə hazırlaşırdı. Ömür vəfa etmədi.

200 ilə yaxın Sibir türkləri ilə Rusiya və Sovetlər Birliyində yaşasaq da Azərbaycanda onların folkloru, dili, ədəbiyyatı lazımınca tanıdılmayıb. Bu kitabı nəşrə hazırlayarkən yalnız folklor, ədəbiyyat mövzusunda materialları daxil etmədim. Öz xalqlarının azadlığı uğrunda mübarizə aparan insanların ömür yolu haqqında Azərbaycan oxucularına bilgi verməyə çalışdım.

20-ci yüzilin başlarında Sibirdə yaşayan Türklərin siyahısında Altayların, Tuvaların, Xakasların, Şorların, Saxaların (Yakut), Sibir Tatarlarının, Barbara Tatarlarının, Teleutların, Kumandinlərin və b adları çəkilir. Çox heyif ki, həmin xalqların bəziləri Ruslaşdığından ana dillərini, mədəniyyətlərini qoruya bilmədilər. Biz də həmin xalqların hamısı haqqında Azərbaycan oxucusuna geniş bilgi verə bilmədik.

Bu işdə mənə yaxından kömək edən, kitabın hazırlanmasında mənim qədər əməyi olan iş yoldaşım Vəfa Salehə xeyirxahlığına, vətənsevərliyinə, təmənnasız yardımına görə təşəkkürümü bildirirəm.

ELMİ MƏQALƏLƏR

SON SİBİR XANI KÜÇÜM MURTAZA XAN OĞLUNUN MƏĞLUBİYYƏTİNİN SƏBƏBLƏRİ



Küçüm xan - soyu Çingiz xana dayanan Murtaza xanın oğludur. Doğumu haqqında dəqiq bilgi yoxdur. Ehtimal edilir ki, 1510-1520-ci illərdə anadan olub. Onların soyu haqqında Əbülqazi Bahadır xan "Səcərəti tərəkimə" əsərində geniş bilgi vermişdir. Sovet dövründə təhsil almış insanların hamısı orta məktəblərdə tədris edilən "SSRİ tarixi" kitabında Küçün xan haqqında qısa bilgi almışlar. Kitabda Sibiri işğala gedən soyca türk olan, lakin ruslara xidmət edən kazak dəstəbaşçısı ataman Yermakın Küçüm xanı az qala məğlub etdiyi, lakin qəfil basqına

uğradığından qaçmaq istəyərkən çayda boğulub öldüyü haqqında yazılırdı.

Çingiz xanın qurduğu qüdrətli və nəhəng dövlət onun ölümündən sonra nəvələri arasında parçalandı və əvvəlki nüfuzunu itirdi. Nəvə-nəticələrin qurduqları dövlətlər də daxili ziddiyyətlərdən zəiflədi.

Bölgədəki son güclü dövlət olan Noqay Ordası 1550-ci ildə baş verən 3 illik quraqlıqdan və vəba epidemiyasından sonra məhvə doğru getdi. Krım xanı Mengili Gərayın 1502-ci ildə Qızıl Orda üzərindəki qələbəsi Rus knyaz-lıqlarının müstəqil siyasət yeritməsinə imkan yaratdı.

4-cü İvan (İvan Qroznı, 1530-1584) atası 3-cü Vasilinin yerinə Bütöv Rusiyanın böyük knyazı elan ediləndə onun 3 yaşı vardı. O, gəncliyindən idarəetmədəki hünərilə seçildi. O, 17 yaşında Moskvada baş qaldırmış üsyanı qəddarlıqla yatırıb sərt islahatlara başladı. Ordusunu gücləndirdi, özünü Rusiyanın ilk çarı elan etdi (1547), türk xanlarının bir-biri ilə düşmənçilik etməsindən yararlanaraq 1552-ci ildə Kazan xanlığını, 1556-cı ildə Həştərxan xanlığını, 1581-ci ildə isə Qasım xanlığını işğal etdi. Beləcə uzun illər Qızıl Ordaya xərac verən

Moskva knyazlığını 5,4 milyon kvadratmetr ərazisi olan böyük bir dövlətə çevirdi.

Qaliblər məğluba çevrildiyindən türk xanlarının bir çoxu İvan Qroznunun vassalına çevrildilər. Lakin gənc Küçüm xan vassallığı qəbul etmək istəməyərək babası İbak xanın nəzarətində olan Tümen və Böyük Ordanın ərazilərini genişlətməyə çalışırdı. O, dövlətini möhkəmləndirmək üçün mühüm addımlar atır. Tatar və qıpçaqlarla yanaşı, Ob və Ural ətrafında yaşayan xantı-mansi tayfalarını, barabinləri və Uralın doğusundakı bəzi başqırd tayfalarını öz hakimiyyəti altına alır. Sibir xanlığının sərhədləri quzeydə Ob çayına, batıda bəzi yerlərdə Uralın Avropa tərəfinə, güneydə isə Barabin çölünə qədər genişləndirir.

1569-cu ildə Moskvanın böyük knyazı IV İvan Qroznı Sibir xanlığını asılı vəziyyətə salaraq, Küçüm xandan Rusiyaya xərac ver-məsini tələb etdi. 1573-cü ildə Küçüm xan Perm şəhərinə qarşı hücum təşkil etdi. Buna baxmayaraq, o, 1570-ci illərdə Rusiya dövləti ilə sülh münasibətlərini qoruyub saxlaya bildi[1].

[1] Измайлов, Искандер Лерунович.Tatarica. https://tatarica.org/ru/razdely/istoriya/srednie-veka/personalii/kuchum

1563-cü ildə Küçüm xan Yedigey xanı məğlub edərək Sibir xanlığını da öz əlinə keçirir. Xanlıqdakı ənənəvi tanrıçılıq inançını islamla əvəzləməyə çalışır. O, Buxara xanı Abdullah xana müraciət edərək islam dinini təbliğ edən və öyrədən alimlərin Sibirə göndərilməsini xahiş edir. Az sonra Buxaradan Sibir xanlığına din alimləri və şeyxlər göndərilir. Lakin əhali səriətə o qədər də əhəmiyyət vermir. Küçüm xan zor gücünə bölgəni islamlaşdırmağa çalışır.

Samur xəzindən kürklərə tələbatın artdığını görən türk kökənli Storoqovlar 1574-cü ildə İvan Qroznıdan silahlı dəstə saxlamağa icazə alırlar. Permdə geniş torpaq sahələri olan Storoqovlar xəz əldə etmək üçün Sibirə yürüşlər təşkil etməklə qalmır, Ob, İrtış çaylarının sahilində qalalar tikməyə başlayırlar. Storoqovlar Yermak Timofeyeviçin atamam olduğu kazak dəstəsini satın alaraq 1581-ci ilin sentyabrında 300 tüfəng, 3 topla silahlanmış, hər biri 20 nəfərlik adam tutan qayıqlarla 840 nəfərlik quldur dəstəsini Sibirə göndərirlər.

1581-ci il sentyabrın 1-də Yermakın kazak dəstəsi qayıqlarıyla Taqil, Tura, Tobol çayları ilə aşağı enərək Sibir xanı Küçümə hücum etdilər. Küçüm xan hazırlıqsız yaxalandığından məğlub

olur və geriyə-Ural dağlarına çəkilir. Kazaklar 1582-ci ilin sentyabrında Sibir xanlığının içərilərinə doğru xeyli irəliləyirlər. Oktyabrın sonunda İrtışdakı Çuvaş şəhərciyi yaxınlığındakı döyüşdə Yermak Küçüm xanın əsas qüvvələrini məğlub edir, oktyabrın 26-da Sibir xanlığının paytaxtı Qaşlıq işğal olunur. Dekabr ayında isə ruslar İrtışın qolu Vaqay çayında Küçümun oğlu Məhəmməd Qulunu məğlub edərək əsir götürür.

Yermakın başçılığı ilə rusların hücumları ara vermir. Küçüm xan və oğlu Məhəmməd Qul tatar bəylərini ümumi düşmənə qarşı bir araya gətirə bilmədiklərindən ruslara məğlub olsalar da, sonra qüvvələri artırıb yenidən hücuma keçirlər. İvan Qroznı Yermakın köməyinə 500 nəfər atıcı əsgər göndərir. Küçüm xan İşim çöllərinə çəkilərək yeni qüvvə toplayıb 1585-ci il avqustun 6-da 1000 nəfərlik dəstəsi ilə kazakların düşərgəsinə hücum etdi. Gözləmədikləri baskından qurtulmaq üçün kazaklar özlərini çaya atırlar. Lakin ağır zireh geydiklərindən və odlu silahlarını da özləri ilə aparmaq istədiklərindən çoxu, o cümlədən Yermak da suda boğulur. Rusların sağ qurtulanları Sibirdən qaçmalı olurlar.

Yermakın ölümündən sonra (1585) Küçüm xan Qaşlığı geri ala bildi. Lakin onun hakimiyyətini möhkəmləndirmək üçün göstərdiyi bütün cəhdlər zadəganların müqaviməti ilə qarşılaşdı. Küçüm xana qarşı üsyana öz türklərimiz-Seyid xan və Kəraçi başçılıq edirdi[2].

İvan Qroznının ölümündən (1884) sonra oğlu I Fyodoru (1557-1598) taxta əyləşdirir, iki ay sonra isə onu çar və Bütün Rusiyanın hakimi elan edirlər. O, atasının işğalçılıq siyasətini davam etdirir. I Fyodor xristianlığı qəbul etmiş, türk soylu, Moskvaya sədəqətlə qulluq edən Mansurovu 1598-ci ildə Küçüm xanın üzərinə göndərir. Dnepr kazaklarından və Polşa, Litva döyüşlərində əsir alınmış əsgərlərdən təşkil edilmiş, topla, tüfənglərlə silahlandırılmış 1000 nəfərlik dəstəyə voyevoda Andrey Voyeykov komandanlıq edir. İrmen döyüşündə Küçümün qardaşı, oğlu və iki nəvəsi həlak oldu, mühafizəçilərinin çoxu öldürüldü. Xan özü isə geri çəkilməyə məcbur oldu.

Rəvayətlərə görə Küçüm xan ömrünün son illərini Zaysan gölü ətrafında, İşim çöllərində

[2] Измайлов, Искандер Лерунович.Tatarica. https://tatarica.org/ru/razdely/istoriya/srednie-veka/personalii/kuchum

keçirmişdir. Araşdırıcıların bəzilərinə görə o, noqaylar və ya kalmıklar tərəfindən 1601-ci ildə öldürülmüş, oğlu Əli xan elan edilsə də xanlığı bərpa edə bilməmişdi. 17-ci yüzildə Küçümün nəvələrindən Ablaykərim xan və Kiray xan Sibir xanlığını bərpa etməyə çalışsalar da ona nail ola bilməmişlər.

Küçüm xanın ölümündən sonra ruslar bölgə-bölgə Sibiri işğal etmiş, orada yaşayan buryatları, tunqusları, sakaları (yakut) və b. xalqları əsarət altına alırlar.

Rusların 1593-1604-cü ildə Sibirə yürüşləri daxili ziddiyyətlərdən qurtula bilməyən xalqların əsarət altına düşməsilə nəticələnmişdir.

NƏDƏN BATI SİBİR TÜRK CÜMHURİYYƏTİ QURMAQ İSTƏYƏNLƏR CƏZALANDIRILDILAR

Özət

Sibir türklərindən altayların, xakasların, şorların, teleutların və digərlərinin dilləri yox olmaqda olan dillər sırasındadır. Bu dillərin yox olmasının nədəni isə Rusiyanın yeritdiyi əritmə siyasətidir. Çar Rusiyası zamanı zəif gedən prosesi bolşeviklər xalqlara azadlıq vermək, onlara mədəniyyət gətirmək adı altında sürətləndirdilər. 1918-ci il martın 12-də qurulan Karakorum Dağlıq Altay Hökümətinin fəaliyyətinə 1920-ci ilin yanvarında son qoyulur. Bolşeviklər Batı Sibiri işğal edəndən sonra Qeorqi İtiqin, Sarı-sep Konzıçakov, Qriqori Çoros-Qurkin və b. batı Sibirdə yaşayan türkləri bir qurumda birləşdirməyə çalışırdılar. Lakin Moskva buna imkan vermir. Batı Sibirdəki türk xalqlarını bir mərkəzdə birləşdirmək istəyən aydınlara gizli və açıq divan tutulur. 1934-cü ildə Batı Sibir Türk Respublikası yaratmaq istəyənlərdən 37 nəfər istintaqa cəlb olunur. 70 nəfər də silahlı terror dəstəsi yaratmaqda suçlanır.

Siyasətçilərdən N.A.Aeşini, A.N.Amzarakovu, V.İ.Sunçuqaşevi və digərləri həbs edilir. Rus şovinistlərinin bununla ürəkləri soyumur, 1937-ci ildə onlar yenidən mühakimə edilir, əksəriyyəti güllələnir.

Açar kəlmələr: Karakorum Dağlıq Altay Hökuməti, Sarı-sep Konzıçakov, Qriqori Çoros-Qurkin, Stepan Maynaqaşev, Batı Sibir Türk Respublikası

THE BAD FATE OF THOSE WHO WANT TO ESTABLISH WESTERN SIBERIAN TURKISH REPUBLIC

Summary

Languages of the Siberian Turks such as: Shors, Khakass, Altai, Teleuts and so on. are among the world's endangered languages. The reason for the disappearance of these languages is Russia's melting policy. The process, which was weak during Tsarist Russia was accelerated by the Bolsheviks under the guise of giving freedom to the peoples and bringing them culture.

The Karakorum Mountainous Altai Government, proclaimed on March 6, 1918 was disbanded by Alexander Kolchak's troops. After the Bolshevik occupation of Western Siberia, Georgy Itigin, Sari-Sep Konzychakov, Grigory Choros-Gurkin and others they tried to unite the Turks living in Western Siberia under one republic. But the Bolsheviks did not allow it. The intellectuals who wanted to unite the Turkic peoples of Western Siberia in one center were caught on an open or secret couch.

In 1934, 37 people who wanted to establish the Turkish Republic of Western Siberia were involved in the interrogation. Among them N.A.Aeshini, A.N.Amzarakov, V.I.Sunchugashev and others are arrested. They were not satisfied with that, in 1937 they were re-judged again and most of them were shot.

Keywords: Karakorum Mountainous Altai Government, Sari-Sep Konzychakov, Grigory Choros-Gurkin, Stepan Maynagashev, Western Siberian Turkish Republic

Giriş

Krım xanı Mengili Gərayın 1502-ci ildə Qızıl Orda üzərindəki qələbəsi Rus knyazlıqlarının müstəqil siyasət yeritməsinə imkan yaratdı. 4-cü İvan (İvan Qroznı, 1530-1584) atası 3-cü Vasilinin yerinə Bütöv Rusiyanın böyük knyazı elan ediləndə onun 3 yaşı vardı. O, gəncliyindən idarəetmədəki hünərilə seçildi. 17 yaşında Moskvada baş qaldırmış üsyanı qəddarlıqla yatırıb sərt islahatlara başladı. Ordusunu gücləndirdi, özünü Rusiyanın ilk çarı elan etdi (1547), Türk xanlarının bir-biri ilə düşmənçilik etməsindən yararlanaraq 1552-ci ildə Kazan xanlığını, 1556-cı ildə Həştərxan xanlığını, 1581-ci ildə isə Qasım xanlığını işğal etdi. Beləcə uzun illər Qızıl Ordaya xərac verən Moskva knyazlığını 5,4 milyon kvadratmetr ərazisi olan böyük bir dövlətə çevirdi.

Samur xəzindən kürklərə tələbatın artdığını görən türk kökənli Storoqovlar 1574-cü ildə İvan Qroznıdan silahlı dəstə saxlamağa icazə aldılar. Permdə geniş torpaq sahələri olan Storoqovlar xəz əldə etmək üçün Sibirə yürüşlər təşkil etməklə qalmadılar, Ob, İrtış çaylarının sahilində qalalar tikməyə başladılar. Onlar ataman Yermak

Timofeyeviçin kazak dəstəsini muzdlu döyüşçülərinə çevirdilər.

1581-ci il sentyabrın 1-də Yermak Timofeyeviçin kazak dəstəsi qayıqlarıyla Taqil, Tura, Tobol çayları ilə aşağı enərək Sibir xanı Küçümə hücum etdilər. Sibir xanı savaşa hazırlıqsız yaxalandığından məğlub oldu. Kazaklar 1582-ci ilin sentyabrında Sibir xanlığının içərilərinə doğru xeyli irəlilədilər. Bir neçə savaşda uduzan (Yermak hətta Küçüm xanın oğlu Məhəmmədqulunu döyüşdə əsir almışdı), xanlığın paytaxtı Qaşlığı qoruya bilməyən Küçüm xan 1585-ci il avqustun 6-da kazakların düşərgəsinə hücum etdi. Gözləmədikləri baskından qurtulmaq üçün kazaklar özlərini çaya atırlar. Lakin ağır zireh geydiklərindən və odlu silahlarını da özləri ilə aparmaq istədiklərindən çoxu, o cümlədən Yermak da suda boğulur. (ASE, 1984: 414, 8 cild).

İvan Qroznının ölümündən (1884) sonra oğlu 1-ci Fyodoru (1557-1598) taxta əyləşdirir, iki ay sonra isə onu çar və Bütün Rusiyanın hakimi elan edirlər. O, atasının işğalçılıq siyasətini davam etdirir. 1-ci Fyodor xristianlığı qəbul etmiş, Türk soylu, Moskvaya sədəqətlə qulluq edən Mansurovu 1598-ci ildə Küçüm

xanın üzərinə göndərir. Dnepr kazaklarından və Polşa, Litva döyüşlərində əsir alınmış əsgərlərdən təşkil edilmiş 1000 nəfərlik dəstə topla, tüfənglərlə silahlandırılır. Rusların 1593-1604-cü ildəki yürüşləri daxili ziddiyyətlərdən qurtula bilməyən tatarların, xakasların, şorların, altayların, barabinlərin və başqa xalqların əsarət altına düşməsilə nəticələnir.

Beləcə Ural dağlarının quzeyindən Altay dağlarınadək uzanan bölgədəki Sibir xanlığı tarix səhnəsindən silinir. Çar karvan yollarına nəzarəti əldə saxlamaq üçün qalalar tikdirməyə başlayır və bölgənin strateji əhəmiyyətli yerlərinə Rus kəndlilərini köçürür. Onlara ən münbit torpaqlar verilsə də, heyvandarlıq təcrübələri olmadığından yerli şəraitə uyğun təsərrüfat qura bilmirlər. Özlərini qorumaq üçün verilmiş odlu silahlardan soyğunçuluqda istifadə edirlər.

Türk xalqları mədəniyyətinin araşdırıcısı Güllü Yoloğlu yazır: “Messerşmidtin gündəliyinin 25 may 1721-ci il qeydində yazır ki, Obun yuxarı axarında yaşayan rusları işimlilər adlandırırdılar; məzarlar dağıdan, soyan, qızıl və gümüş əşyaların qazılıb çıxaranlar da məhz onlardır. İlk dəfə "goreşənliklə" də məhz onlar məşğul olurdular. Onlar məzarları qaza-qaza

gəlib Ob çayına qədər çatmışdılar. Rus kəndliləri çöllərdə məzarları qazmaqla pul qazanırdılar. Ruslar ətraf kəndlərdən toplanaraq 200-300 nəfərlik dəstələr halında xizək yolu ilə çöllərə 20-30 günlük "səfərə" çıxır, kurqanları ayrı-ayrı dəstələr arasında bölür və qazıntıya başlayırdılar. Qazax və kalmıklar gələrkən tezcə birləşərək özlərini müdafiə edə bilmələri üçün dəstələr bir-birindən çox da uzaqlaşmazdılar. Ata-babalarının təhqir olunan məzarlarını qorumağa gələn yerlilərlə toqquşma vaxtı ölən və yaralananlar da olurdu.

Rus "goreşənlər"i qazılan türk məzarlarından çoxlu qızıl və gümüş əşyalar – at üçün bəzək əşyaları, zirehli geyim, qadın bəzək əşyaları, silah və s. oğurlayır, sonra da əldə etdiklərini satırdılar." (Yoloğlu Güllü, 2018, http://davam.az/48686-sibirin-ial-rusladrma-v-xrstanladrma.html).

Rus kəndliləri məzarları soyurdularsa, tacirləri də Sibirin flora və faunasına divan tuturdular. "1637-ci ildə tacir Buxryakovun bir neçə arteli (113 nəfər) Manqazeydə 33 min 116 samur öldürmüşdü. Bu cür vəhşicəsinə qırılma nəticəsində tezliklə nəinki Manqazeydə, hətta bütün Sibirdə samurun sayı kəskin şəkildə azaldı.

Artıq bazarlara samur dərisi əvəzinə, əvvəllər yerlilərin heç ovlamadıqları tülkü, dələ və digər heyvanların dəriləri çıxarılırdı...

Ovçuluq və heyvandarlıqla məşğul olan yerlilər "az olsun, həmişə olsun" istəyilə yaşayır, təbiətin onlara bəxş etdiyi sərvətlərdən yalnız tələblərini ödəmək üçün istifadə edir, onları gəlir mənbəyinə çevirmir və bu yolla varlanmaq məqsədi güdmürdülər" (Yoloğlu Güllü, 2018, http://davam.az/48686-sibirin-ial-rusladrma-v-xrstanladrma.html).

1860-cı və 1870-ci ildə Sibirdə olan Radlov yerli xalqların 10 ildə həyatında baş verən dəyişiklik haqqında yazır: "Necə ki, Quzey Amerikada talan olunaraq yavaş-yavaş yox olan qızıldərililər, eləcə də, Sibirin yerli əhalisi. Əvvəlcə onların var-dövləti və sosial durumu itki verir: baylar kəndxudalara, varlı maldarlar bitki kökləri ilə qidalanan dilənçilərə çevrilirlər... Altayı rus tacirləri bu hala salmışdılar". (Yoloğlu Güllü, 2018, http://davam.az/48686-sibirin-ial-rusladrma-v-xrstanladrma.html).

İşğalçılar yerli xalqların tarixini məhv etməklə, onların yaşam üçün çətin yerlərə qovmaqla, təbiətə divan tutmaqla kifayət-lənmirdilər. "Missionerlər hər yerdə xristianlığı təbliğ edir, əhalinin oturaq şəraitdə yaşaması,

milli adət-ənənəsindən, həyat tərzindən uzaqlaşdırılması üçün kəndlər salır, kilsələr tikdirir, yerlilərlə rus qızlarının evlənməsinə şərait yaradır, rus məktəbləri açırdılar. 1830-cu ildə Ulalu, Muytu, Urusul və ya Onqoday, Şamal, Qara Anuy, Makaryev, Köbizəndə 8 missioner məktəbi var idi. ... Xaç suyuna salınmış yerli əhali ruslarla bir yerdə yaşayır, rus dilini, rus adət-ənənəsini öyrənirdi. Missionerlər daim onların əsl xristian kimi yetişmələrinə göz qoyurdular. Xristianlığı qəbul etmiş yerlilər özlərini ruslara bənzətməyə çalışır, onlar kimi geyinir, onların yediyindən yeyir, hətta öz aralarında söhbət edəndə, çalışırdılar ki, çoxlu rus sözləri işlətsinlər. Buna baxmayaraq, ruslar onlara yuxarıdan aşağı baxır, saymır, ələ salıb gülürdülər. Rusları yamsılayan yerlilər üçün ən böyük xoşbəxtlik rus qızları ilə evlənmək idi. Çünki o, artıq özünü rus saya bilərdi. Belə qarışıq nikahlardan törəyənlərdə türk elementi itir, rus anaların uşaqları türk atalarının dilini bilmir və ya çox pis bilirdilər" (Yoloğlu Güllü, 2018, http://davam.az/48686-sibirin-ial-rusladrma-v-xrstanladrma.html). Onu da qeyd edək ki, ruslar yerli xalqı asanlıqla idarə etmək üçün onları bilərək alkollu içkilərə öyrəşdirdilər. Nəticədə

yerli əhali arasında az bir zamanda sərxoş insanların sayı artmağa başladı.

Bu proses bolşeviklərin silahlı üsyan yolu ilə hakimiyyəti ələ alanadək davam etdi. Öncələr yerli xalqların mədəniyyəti, dünyagörüşü, təbiətdə və toplumda baş verənləri izah etmə üsulu vəhşilik adlandırılırdısa, sovet dövründə isə bunlar keçmişin qalıqları, gerilik kimi tənqid edilir, aradan qaldırılmağa çalışılırdı.

Bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra başlatdıqları vətəndaş savaşı 1922-ci ilədək davam etdi. Bu illərdə Ural-Sibir bölgəsində ataman Dutovun, admiral Aleksandr Kolçakın, ataman Semyonovun rəhbərlik etdiyi ordularla bolşeviklərin təşkil etdiyi Qırmızı Ordu arasında toqquşmalar baş verdi. Bölgədə hakimiyyət əldən ələ keçdi. Batı Sibirin iqtisadiyyatı çökdü, təsərrüfatları dağıldı, minlərlə insan savaşlarda, aclıqdan, xəstəlikdən öldü. Bəzi insanlar da xarici ölkələrə qaçmalı oldular.

1. Batı Sibir türklərinin muxtariyyat uğrunda mübarizəsi

Birinci Dünya savaşına qoşulan Rusiyanın durumu getdikcə ağırlaşdı. 1917-ci ilin başlan-ğıcında cəbhədən çoxlu əsgər və zabit itkisi,

uğursuzluqlar haqqında xəbərlər gəlməyə başladı. Ölkənin iqtisadi vəziyyətinin kəskin pisləşməsi, əhalinin çar rejiminə olan inamının itməsi hökuməti çıxılmaz vəziyyətə saldı.

1917-ci il fevralın 27-də Fəhlə və Əsgər Deputatlarının Peterburq Şurası ilk toplantısını keçirdi. Dövlət Duması Müvəqqəti Komitə yaratdı. Beləcə Rusiyada ikihakimiyyətlilik meydana gəldi. Siyasi tətil silahlı üsyana çevrildi. Fevralın 28-də inqilabın qalib gəldiyi elan edildi. Çar 2-ci Nikolay hakimiyyətdən əl çəkdi. 300 illik Romanovlar sülaləsinin hakimiyyətinə son qoyuldu. Yeni qurulan Müvəqqəti Hökümətə knyaz Georgi Lvov (1861-1925) rəhbər seçildi. Lakin bu ölkədə dincli, sabitlik yarada bilmədi. Üç ay altı gündən sonra Müvəqqəti Hökümətin Ədliyyə Naziri, SR (Rusiya Sosialist İnqilabçı Partiyanının qısaldılmış adı-Ə.Ş) Aleksandr Kerenskinin (1881-1970) rəhbərliyi ilə yeni kabinet quruldu. Onun kabinetini də 1917-ci il oktyabrın 25-də bolşeviklər silah gücünə devirdilər. (Azərbaycan tarixi, 2008:221, 5-ci cild).

Hakimiyyəti silahlı üsyanla ələ alan bolşeviklər xalqın geniş təbəqəsini tərəflərinə çəkmək üçün 1917-ci il oktyabrın 25-də axşam

Smolnıda açılan 2-ci Ümumrusya Sovetlər Qurultayında Sülh haqqında və Torpaq haqqında dekretlər qəbul etdilər. Bolşeviklərin rəhbəri Vladimir Lenin (Ulyanov) Rusiyanı xalqlar həbsxanası adlandırırdı. Qurultayda qəbul edilən "Rusiya xalqlarının hüquq bəyannaməsi" əsarətdə olan xalqların aydınlarını öz dövlətlərini qurmağa həvəsləndirdi. (ASE, 1984:527-528). Keçmiş Rusiya imperiyasının ərazisində bir-birinin ardınca milli və məhəlli dövlətlər, özünüidarə qurumları yaradıldı.

Batı Sibir türkləri də yaranmış imkanı dəyərləndirmək istədilər. Millətin öndəgedənləri əsasən xristian missonerlərinin açdıqları məktəblərdə oxumuş rusdillilər və bir qismi də anası rus olanlardı. Onlar rus mədəniyyəti və düşüncəsinin təsirindən çıxa bilməsələr də, gen yaddaşının təsiri ilə millətlərinin xoşbəxtliyinə çalışır, demokratik, azad bir ölkə qurmaq istəyirdilər. Lakin əllərinin altında hazır idarəetmə forması yox idi.

İşğaldan sonra çar Rusiyası bölgədə öz idarəetmə aparatını yaratmış, türk xalqlarının hərəsinə bir ad verməklə onları bir-birindən ayırmağa çalışmışdı. Təbiət də sanki işğalçılara yardımçı olmuşdu. Sayan dağları türk xalqları

arasında keçilməz bir divara çevrilmişdi. Qışda qar dağ keçidlərini tamam bağlayırdı.

Türk xalqları Sibirdə yaradılmış müxtəlif quberniyaların ərazisində yaşayırdılar. Onları eyni bir ad altında, eyni inzibati ərazidə birləşdirmək, mərkəz seçmək o qədər asan deyildi. Milli müqəddaratını təyin etmək istəyənlər çar Rusiyasının Sibirə sürgün etdiyi, işləməyə göndərdiyi ruslar və rusdillilərlə dil tapması da çətin idi. İdarəetmə işinə cəlb ediləcək savadlı milli kadrlar da azlıq edirdi. Azlıq təşkil edən milli kadrların millətin öz müqəddaratını təyin etməsinə münasibəti məsələsində də fikir ayrılıqları vardı.

Fikir ayrılığı yalnız Sibirin yerli xalqları arasında deyil, sonradan buraya gəlsələr, əsasən şəhər və qəsəbələrdə yaşayan ruslar və rusiyayönlülər arasında da vardı. Bölgənin Omst, Tomsk, İrkutsk və b. şəhərlərində siyasi təşkilatlar arasında kadetlər partiyasının (Konstitusiyaçı Demokratik Partiyasının qısa adı-Ə.Ş.) nüfuzu daha böyük idi. 1917-ci ilin may ayından 1918-ci ilin noyabrına kimi kadetlər Sibirdə aparıcı fikir sahibiydilər. Partiya üzvləri arasında yerli xalqlara münasibətdə fikir ayrılığı vardı. Federal dövlət qurmağın tərəfdarı olan bu

partiyanın üzvlərinin bəziləri yerli xalqlara milli muxtariyat verilməsinə tərəfdar çıxırdılar. Bolşeviklər "Rusiya xalqlarının hüquq bəyannaməsi" elan etsələr də, onlar yerlərdə yalnız proletariatın hakimiyyətə gəlməsi, həm də onların quracağı dövlətin mərkəzi proletar diktaturasının nəzarəti altında olmasını istəyirdilər.

Mərkəzi Omskda olan Müvəqqəti Ümumrusiya Hökümətinin zamanında Sibir türklərinin öndərləri Ulalada qurultaya toplaşdılar. 1918-ci ilin martın 6-da başlayan qurultay 12-də başa çatdı. Son toplantıda Karakorum Dağlıq Altay Hökümətini yaratdıqlarını elan etdilər. Yeni hökümətin idarə heyətinə Qriqori Qurkin sədr, Mixail Şatilov, Vasili Maneev, Vasili Tyukin, Dmitri Filatov üzv, Sergey Borisov, Stepan Qurkin və Yakov Bersenev şura üzvlüyünə namizəd seçilir. (Хронограф Республики Алтай, 2018:29).

Yeni yaradılan hökümətin başı ilk gündən dərddə olur, Bryansk Şurasının silahlı dəstələrinin ərazi iddiaları ilə toqquşmalar başlayır.

Karakorum Dağlıq Altay hökümətinə rəhbərlik edən Qriqori Çoros-Qurkindən narazılıq artır. Çox vaxt onu bolşeviklərin adamı sayırlar. Kolçak hökümətinin bölgə komissarı

İ.Bururin isə Qurkin haqqında belə yazır: “Ətrafındakılara son dərəcə güvənən, zəif xarakterli bir insandır. Birsi "Altayı sevirəm" deməsi kifayətdir, Qriqori Çoros-Qurkin həmin adamın əsl simasını bilmədən ona etibar edəcək".

(Горный Алтай в канун революций 1917 года; https://история.авра.рф/index.php/Горный_Алтай_в_канун_революций_1917_года). Qriqori Çoros-Qurkin i Sibirdə hakimiyyəti ələ alan Aleksandr Kolçakın başçılıq etdiyi hökümət 1918-ci ilin dekabrında vəzifədən uzaqlaşdırır.

1917-ci ilədək Minusunski və Abakanda yaşayanlar tatar, yaxud türk adlandırılırdı. Stepan Manaqaşev və məsləkdaşlarının təşəbbüsü ilə 1917-ci il aprelin 6-7-də keçirilən 1-ci Xakas Xalq Qurultayından sonra xakas millət adı kimi daha çox işlədilməyə başladı. 1917-ci il iyulun 20-28-də keçirilən 2-ci Xakas Xalq Qurultayında Stepan Manaqaşev ilk dəfə Xakasiya ilə Oyratyanı birləşdirilməsini təklif edir (Орешкова Ю., 2013:184)

Qurultay iştirakçıları dilləri, mədəniyyətləri, tarixləri, yaşamları bir olan xalqların öndərləri ilə danışıqlar aparılması, onların Oyrat adı altında birləşdirilməsi, muxtariyyətlərinin bu

ad altında qurulması üçün nümayəndə heyəti seçir. Oyratyada, Altay, Kuznetsk və Minusinsk türk tayfalarının Oyrat Respublikasına birləşdirilməsi haqqında qərar qəbul edilir. 1918-ci il fevralın 21-27-də keçirilən Rus olmayan Kəndli Deputatların təsis qurultayında da bu qərar bəyənilir (Мамышева Е., 1998:43)

Dəyişkən xasiyyəti ilə seçilən Vasili Anuçin və tərəfdarları 1918-ci ildə Böyük Asiya Respublikasını qurmaq ideyasını ortaya atdılar. Onların fikrincə Rusiya imperiyası ilə Monqolustan arasında bölünmüş Altayı, eləcə də orada yaşayan türk xalqlarını Oyrat adı altından birləşdirmək lazımdır. Onlar bu ad altında birləşsələr, tarixi köklərinə bağlanacaq və qətiyyətlə siyasi müqəddaratları uğrunda mübarizəyə başlayacaqlar (Suşko A. http://history.nsc.ru/publ/1/html/sushko.htm). Böyük Asiya Respublikası ideyasının reallaşmadığını gördükdə onlar Altay, Xakas, Tuva və monqolların Oyrat adı altında birləşdirilməsini planlaşdırdılar.

Birinci Dünya savaşında Rusiyaya əsir düşmüş Ağ Çexlərin üsyanı, Aleksandr Kolçakın yaratdığı Müvəqqəti Hökümət bölgədə vəziyyəti daha da gərginləşdirdi. Vətəndaş müharibəsi

bölgəyə aclıq və xəstəlik gətirdi. Bolşeviklərin vətəndaş müharibəsi adlandırdığı bu qarşıdurma prof.Leonid Mametin yazdığı kimi sinfi müharibədən çox milli müharibə idi. Daha yaxşı silahlanmış rus əsgər və zabitləri yerli əhalini öldürərək bölgə üçün saysız-hesabsız fəlakətə yol açırdı. Bununla özlərinin ərzaq ehtiyatını tükəndirirdilər.

Batı Sibirin milli öndərləri Moskva və Peterburqda, eləcə də Sibirdə yaşayan burjua aydınlarının onların milli respublika yaratmaq istəyinə əngəl olduqlarını gördükdə bolşeviklərə doğru meyillənirlər. 2-ci Ümumrusya Sovetlər Qurultayında qəbul edilən "Rusiya xalqlarının hüquq bəyannaməsi" onlara çox şirin və inandırıcı gəlir.

1.1. Stepan Maynaqaşev

Rusiya imperiyasındakı etnoqraf, xakas ədəbi dilinin yaradıcısı, xakas əlifbasının banisi Stepan Maynaqaşev Aşıs Bozkır Bələdiyyəsi Məclisinə bağlı olan İresov (Xakasça: İres aal) kəndində anadan olmuşdur.

Xakas türkləri arasında sagay türklərinin bir etnik qrupu olan Tomlar tayfasından olan Dmitri

Maynaqaşevin ailəsində 8 yanvar 1886-cı ildə doğulan oğlunu keşiş kilsədə xaç suyuna salaraq ona xristian müqəddəslərindən birinin-Stepanın adını verir. Xakas mənşəli türkoloq Stepan Maynaqaşev Sağay tayfasının Aşisdəki ikisinifli məktəbi bitirdikdən sonra 1906-1907-ci illərdə bölgənin inkişaf etmiş mərkəzlərindən olan Krasnoyarskidə dini seminariyada oxuyur. Seminariyanı başa vurduqdan sonra Aşisdəki yerli xalqlarla iş idarəsində çalışır.

1910-1911-ci illərdə Tomsk Universitetində azad dinləyici olan Stepan Maynaqaşev Mərkəzi Asiyanı öyrənən görkəmli rus alimi Qriqori Potaninlə (1835-1920) tanış olur. Araşdırıcı onu Sibir türklərinin folklorunu, etnoqrafiyasını, ləhcələrini toplamağa və nəşr etdirməyə həvəsləndirir. Nəzəri biliyinin yetərsizliyini hiss edən Stepan Maynaqaşev Moskvaya gedərək sərbəst təhsil ocağı kimi məşhurlaşmış A.L.Şanyavski adına Moskva şəhər Xalq Universitetinin hüquq və ictimaiyyət fakültəsinə yazılır. Təhsil illərində Vasili Radlov, Lev Şteyrnberq, Aleksandr Samoyloviç və başqaları ilə tanış olur.

Peterburqdakı Rusiya İmperator Coğrafiya Cəmiyyətinin (Императорское Русское

Географическое Общество) Etnoqrafiya Şöbəsi və Rusiyanın Orta və Doğu Asiyanı Öyrənən Komitəsi Stepan Maynaqaşevi 1913-cü ildə Minusin qəzasına dil, folklor və etnoqrafiya materialları toplamağa göndərir.

Onun səfəri uğurlu olur. Rusiya İmperator Coğrafiya Cəmiyyətinin Etnoqrafiya Şöbəsində "Sağay və qonşu tayfaların şamanlarından toplanmış materiallar" mövzusunda məruzəsi dinlənilir. Topladığı materiallar 1913-cü il dekabrın 20-də "Sibir" qəzetində və Petroq-raddakı "Jivaya starinna" toplusunun 3-4-cü saylarında nəşr edilir. Onun "Rusiya Komitəsinin xəbərləri"ndə dərc etdirdiyi "1913-cü ilin yayında Abakan çayı vadisində yaşayan türk tayfalarının yaşadığı bölgələrə səyahət haqqında hesabat"ı və İmperator Böyük Pyotr adına Antropologiya və Etnoqrafiya Muzeyinə təqdim etdiyi 354 fotoşəkil bu gün də elmi əhəmiyyətini itirməmişdir.

1914-cü ildə yenidən Sibirə göndərilən gənc araşdırıcı şamanlardan topladığı materialları 1914 və 1915-ci illərdə Petroqradın elmi jurnallarında nəşr etdirir.

Fevral burja inqilabından sonra Stepan Maynaqaşev daha çox ictimai-siyasi sahədə

çalışır. 1917-ci ildə 2-ci Xakas Xalq Qurultayında Milli Komitə yaradılır və onu komitənin icraiyyə bürosuna rəhbər seçirlər.

Tomskda keçirilən 1-ci Sibir Vilayət Qurultayında (8-17.11.1917), Minusində keçirilən Fəhlə, Kəndli və Əsgər Deputatları Sovetinin 3-cü Qurultayında (26.11.1917), Fövqəladə Sibir Qurultayında (7-15.12.1917) iştirak edən Stepan Maynaqaşev bolşevik çevrilişini qəbul etməyən Sibir Vilayət Dumasına da üzv seçilir.

Minusi Fəhlə, Kəndli və Əsgər Deputatları Sovetinin 4-cü Qurultayında Stepan Maynaqaşev İcraiyyə Komitəsinin Hüquq Şöbəsinə rəhbər təyin edilir. May ayından isə sosial yardım şöbəsinə rəhbərlik etməyə başlayır.

7-ci Qəza Komissarları Soveti Qurultayına (iyun 1918) seçilən Stepan Maynaqaşev bir ay sonra Müvəqqəti Sibir Hökümətində işləyir. Öz xalqının azadlığı və xoşbəxt gələcəyi naminə daima mübarizə aparan, müxtəlif vəzifələrdə işləyən Stepan Maynaqaşevi bolşeviklər Sibiri işğal etdikdən sonra qohumları ilə birlikdə İresov aulunda həbs edir (10.03.1920). Minsusin Qəza Fovqaladə Komissiyası Kollegiyasının qərarı ilə (24.04.1920) 1920-ci il aprelin 29-da güllələnir.

Qəribə burasıdır ki, ona bəraət verilməsi illərlə yubadılır. 2000-ci il avqust ayının 20-də vətənsevər xakas aydını və siyasətçisinə bəraət verilir. (Şamil Ə., Stepan Maynaqaşev, https://ali-shamil.tr.gg/Stepan-Manaqa%26%23351%3Bev.htm)

1.2 Vasili Anuçin

2 və ya 14 aprel 1875-ci ildə Yenisey quberniyasının Bazaixa kəndində ortabab bir türk ailəsində anadan olan Vasili İvanoviç Anuçin 1875-ci ildə Yenisey qubernatorluğunun Bazaixa kəndində ortabab ailədə anadan olub.

1886-cı ildə kilsə məktəbini, 1891-ci ildə Krasnoyarsk İlahiyyat Məktəbini bitirib, Tomsk İlahiyyat Seminariyasına daxil olub, lakin 1896-cı ildə öz xahişi ilə oradan azad olub.

1897-ci ildə o, Sankt-Peterburqa köçmüş, burada Sankt-Peterburq Arxeologiya İnstitutunu bitirdikdən sonra Rusiya Elmlər Akademiyasının Antropologiya Muzeyində çalışmışdır. O, Si-bir xalqlarını öyrənmişdir.

1905-1909-cu illərdə Yeniseydə Ketləri arasında (Rusiya Federasiyası Sibir Federal Dairəsinin Krosnoyarsk diyarının Yenisey

vadisində yaşayan azsaylı xalq-Ket xalqının dili Yenisey dillərinə daxildir) ekspedisiyalarda iştirak etmişdir.

Sibir xalqlarının mədəniyyətini, etnoqrafiyasını araşdırmağa başlayan gənc Vasili Radlovla, Lev Şteynberqlə, Dmitri Klementslə tanış olur, Qriqori Potaninyaxın dostuna çevrilir. Rusiya İmperator Coğrafiya Cəmiyyətinin Doğu Sibir Şöbəsinin Krasnoyarsk bölməsinə rəhbər seçilir.

Onun siyasi fəaliyyəti 1917-ci il fevral burjua inqilabından sonra başlayır. Martın 2-də yeni yaradılan hökümətdə-Müvəqqəti İctimai Təhlükəsizlik Komitəsinə üzv, az sonra isə sədr müavini olur. Tambov vilayətində ərzaqın toplanması və paylanması məsələsinə rəhbərlik edən Vasili Anuçini həm də vilayət xalq məclisinə deputat seçirlər.

Bundan sonra SR (Sosialist İnqilabçılar Partiyasının qısaldılmış adı-Ə.Ş) partiyasının üzvü olduğunu elan edən Vasili Anuçinə qarşı sərt hücumlar başlayır. A.Adrianov "Sbirskoy jizn" qəzetinin 7 may 1917-ci il sayında "Anuçkin kimdir?" adlı məqalə çap etdirir. O, özünü nə qədər müdafiə etməyə çalışsa da, ardıarası kəsilməyən tənqidlərdən yaxa qurtara

bilmir. 1917-ci il noyabrın 19-da keçirilən məhkəmədə Vasili Anuçin başqalarına böhtan atmaqda, vicdansızlıqda ittiham edilir. 1918-ci il martın 6-da Ulale (Dağlıq Altay) qəsəbəsində keçirilən toplantıda bir mütəxəssis araşdırıcı kimi Karakorum Dağlıq Altay Hökümətinin yaradılmasının vacibliyini əsaslandırır. Vasili Anuçin Sayan-Altay bölgəsində yaşayan xalqların-altaylıların, xakasların, tuvalıların, monqolların birləşərək Oyrat Respublikası yaratmasını vacib sayır. Buna görə də bölgədə yaşayan yerli xalqların 1918-ci il iyunun 28-də keçiriləcək qurultayını hazırlamaq Vasili Anuçinə tapşırılır.

Ulaledə keçirilən qurultayın rəyasət heyəti keçmişdə mövcud olmuş Oyrat dövlətinin ərazisində yaşayan yerli xalqların öndərləri ilə danışıqlar aparıb onları yenir, Oyrat Respublikası yaratmağa razı salmaq səlahiyyəti verir. Lakin istər Moskvada hakimiyyəti ələ almış bolşeviklər və onların Sibirdəki nümayəndələri, istərsə də bölgədəki başqa siyasi qüvvələr yerli əhalinin Oyrat Respublikasını qurmalarını əngəlləyirlər.

Vasili Anuçin Tomskdakı Sibir Bölgə Dumasının Milli İşlər Komitəsində yerli xalqları yaxından tanıyan bir mütəxəssis kimi işə cəlb

edilir. O, 1919-cu ilin yanvarında keçirilən qurultayda bölgənin etnoqrafiyasını yaxından və elmi əsaslarla öyrənməyin vacibliyindən söz açır və bunun üçün Sibir Araşdırmalar İnstitutunun yaradılmasını təklif edir.

Altayda yaşayan yerli xalqları bir millət kimi formalaşdırmağa, onlarda tarixi yaddaşı bərpa edib milli müqəddaratını təyinetmə hüququndan istifadə edərək dövlətlərini qurmağa həvəsləndirir. O, deyirdi ki, Altay və Sayan dağları yerüstü və yeraltı sərvətləri ilə zəngindir. Burada sənayeni asanlıqla və sürətlə inkişaf etdirmək mümkün olacaq. Bölgəyə şosse və dəmir yolları çəkiləcək. Burada milli hökümət yaradılarsa, o, öz pulunu kəsməklə iqtisadi böhrandan çıxara biləcək.

Vasili Anuçin ictimai-siyasi həyatda fəal iştirak etməklə yanaşı elmi araşdırmalarını da davam etdirir. Şamanizm əsasında yeni bir dünya dini yaradılmasının vacibliyindən söz açır, 1904-cü ildən 1916-cı ilədək baş vermiş ixtişaşların, savaşların, üsyanların, sosial narazılıqların cədvəlini hazırlayır. Bütün bu hadisələrin Günəşdə baş verən dəyişiklərlə bağlı olduğunu əsaslandırmağa çalışır. Onun fikrincə 1919-1921-ci illərdə Günəşdə aktivlik azalmağa başlayacaq,

bu da insanların siyasi, savaş fəallığına təsir göstərəcək (Шиловский М., http://oblastnic-hestvo.lib.tomsk.ru/page.php?id=34)

Vasili Anuçin bolşeviklər Sibiri işğal etdikdən sonra da Oryat Respublikası yaratmaq ideyasından daşınmır. 1921-ci il iyulun 8-də Tomskda keçirilən toplantıda Oryat Respublikasının yaradılması məsələsi yenidən gündəmə gətirilir. Vasili Anuçinin və Leonid Aleksandroviç Sarı-ser Konzyçovun (1891-1937) inadla müdafiə etdiyi "Oyrat dövləti" ideyası Moskvada əyləşən rəhbərlərin heç də xoşuna getmir.

Bolşeviklərin oktyabr çevrilişindən sonra siyasi fəaliyyətinə görə 17 dəfə hibs edılin Vasili Anuçinə iki dəfə ölüm hökmü oxunsa da, verilən cəzadan yaxasını qurtara bilir. Fövqəladə Komissiya onu seperatçılıqda, yəni Sibir türkləri üçün dövlət yaratmaqla onları Rusiyadan ayırmaqda günahlandıraraq 1922-ci ildə Kazan şəhərinə sürgün edir. Kazan Universitetində professor işləyən Vasili Anuçini 1923-1924-cü illərdə monarxiya tərəfdarı və patriarx Tixonun dəstəsinin üzvü olmaqda suçlayaraq Tver vilayətinin Vesyegonsk qəsəbəsinə sürgün edirlər. Tverə gedərkən Moskvada "dəmir çekist"

kimi tanıdılan Feliks Dzerjinski ilə görüşür və onun sayəsində yenidən Kazan şəhərinə dönərək professor kimi dərs deməyə başlayır.

Lakin bu, o qədər də uzun sürmür. Onu 1928-ci ildə Səmərqəndə sürgün edirlər. Pedoqoji İnstitutda dərs deyən Vasili Anuçin Sovet hakimiyyəti illərində daim xüsusi xidmət orqanlarının nəzarəti altında olur. Alim, pedoqoq, ictimai-siyasi xadim Vasili Aniçinin 1941-ci ildə dünyasını dəyişir.

2. Bolşevik işğalı dönəmində Batı Sibir türklərinin muxtariyyat uğrunda mübarizəsi

1918-1920-ci illərdə Batı Sibirdə yaşayan yerli xalqlar özlərinə dayanıqlı bir dövlət qura bilmədilər. Yalnız 1914-cü ildə Rusiya işğalı altına düşən tuvalılar 1921-ci il avqustun 14-də keçirdikləri Ümumtuva Təsis Xuralında (qurultayında) Tannu-Tuva Xalq Respublikası yaratdıqlarını elan etdilər. 1926-cı ildə isə onu Tuva Xalq Respublikası adlandırdılar. Bolşeviklər xakaslara, altaylılara, şorlara nə respublika, nə də muxtar respublika yaratmağa imkan verdilər. Buna baxmayaraq bolşeviklərlə əməkdaşlıq edən yerli xalqların nümayəndələri

millətin öz müqəddəratını təyinetmə hüququndan yararlanmağa çalışdılar. Onların sayı az olsa da, dirənişləri çox sərt ıdı. Qar yağıb Sayan vi Altay dağlarının keçidlərini bağlayanda bolşeviklər əsgəri birliklərini istədikləri bölgəyə göndərə bilmirdilər. Yayda silah gücünə Sovetlərin qurulduğunu elan etsələr də, qışda onların hakimiyyətindən əsər-əlamət qalmırdı. Buna görə də hökümət sərt intizam yarada bilmir, güzəştə getməli olurdu. Rusiya Kommunist (bolşeviklər) Partiyasının Sibir Bürosu yerli xalqları öz tərəfinə çəkmək üçün 1922-ci il iyunun 1-də Oyrot (altaylılar 1948-ci ilə qədər Oyrot adlandırılırdılar) Muxtar Vilayəti, Şorlar üçün isə Kemerova vilayətində Dağlıq Şor Xalq Rayonunu yaratdılar (bu rayon 1939-cu ildə ləğv edildi.)

Ortaq yazı dili formalaşmamış Sibir türklərinin hər tayfalasının ləhcəsində bolşeviklər məktəblər, qəzetlər açdılar. Əslində bolşeviklər bununla azsaylı xalqlar arasında öz ideyalarını yaymaq və türksoylu xalqları bir-birindən ayırılmasını surətləndirdilər.

İstəklərinə parçalanmış halda nail ola bilməyəcəklərini görən Sibirin türksoylu xalqlarının aydınları güclərini birləşdirməyə çalışırdılar. Onlar açıq-aydın görürdülər ki, Çar

Rusiyası zamanında və bolşevik işğalından sonra bölgəyə sürgün edilmiş cinayətkar ünsür, işə göndərilmiş narahat adamlar yerli xalqlara yuxarıdan aşağı baxır, onların hüquqlarını tapdalayır. Bolşeviklərin vədinə inanaraq onlarla əməkdaşlıq edən yerli kadrların sayı da olduqca az idi. Onları da müxtəlif vasitələrlə sıxışdırırdılar.

Rusiya Kommunist (bolşeviklər) Partiyası Yenisey Vilayət Komitəsinin 1924-cü ilin sentyabrında keçirilən plenumunda Qeorqi İtiqin demişdi: "Xakas hökuməti xakassızdır". Yerli partiya rəhbərlərinin yarıtmaz işini qınayan Yenisey Vilayət İcraiyyə Komitəsinin sədri Pavel Şıxanov (1888-1938) isə "Kotlyar (Xakas Vilayət Partiya komitəsinin katibi-Ə.Ş.) yaxşı bir rəf düzəltdi, amma onun siyirmələri boşdur və orada Xakasiya qoxusu yoxdur". (Шекшеев А., 2011: 18 мая, http://www.tuva.asia/news/ruregions/-3426-hakasiya.html). 1927-ci ilin aprelinə qədər xakaslar arasından Kommunist partiyanın cəmi səkkiz üzvü və 32 üzvlüyə namizədi var idi. Bu da vilayətdəki kommunistlərin 12,7-i faizi demək idi. (Шекшеев А., 2011: 18 мая, http://www.tuva.asia/news/ruregions/3426-hakasiya.html).

Bolşeviklər Çar Rusiyası dövründə təhsil almış və müxtəlif vəzifələrdə işləmiş mütəxəssislərə inamsız yanaşırdılar. Batı Sibirdə idarəetmədə kadr çatışmazlığı vardı. Buna görə də milli kadrların sərbəst fikir söyləmələrinə, düşündüklərini açıq demələrinə qarşı sərt təpki göstərmirdilər. Üzdə çox vaxt onların dedikləri ilə razılaşdıqlarını bildirsələr də, arxada cəza tədbirləri hazırlayırdılar. Bolşeviklər hakimiyyətdə möhkəmləndikcə fərqli düşünənlərə qarşı təziqləri artırmağa başladılar. Kollektivləşmə adı altında kəndliləri ac-yalavac vəziyyətinə saldılar. Milli dəyərləri köhnəlik qalığı deyə sıradan çıxarmağa başladılar. Haqsızlığa, zülmə dözməyən xalqın narazılığı gündən-günə artmağa başladı. Bunları dilə gətirən yerli partiya-sovet işçilərinə "sağçı" damğası vurdular. Sibir türklərinin öndərləri vəziyyətin çıxılmaz dalana doğru getdiyini gördükdə toparlanaraq 1917-1918-ci ildəki istəklərini reallaşdırmağa çalışdılar.

2.1. **Leonid Alekseyeviç Sarı-sep Konzıçakov**

Bolşeviklər Sibiri işğal etdikdən sonra orada yerli xalqların hüququ, onların milli

hökümətlərini qurmaq uğrunda ardıcıl mübarizə aparanlardan biri də, milliyətcə altay (oyrat) Leonid Alekseyeviç Sarı-Sep Konzıçakov olmuşdur.

Leonid Alekseyeviç Sarı-Sep Konzıçakov Altay muxtariyyəti ideyasının banilərindən biri idi.

Müəllim və keşiş ailəsində doğulan Leonid 1891-ci il aperlin 14-də Rusiya Federasiyasının, Altay diyarının, Biysk dairəsinin Qara Anuy kəndində (digər məlumata görə Maralıxa Oqnevskoy kəndi[3]) anadan olub. Atası Aleksey Kanzaçakov 1886-cı ildə Biysk Katexetik Məktəbini bitirib, müəllim və keşiş kimi çalışıb. 1891-ci il aperlin 14-də Rusiya Federasiyasının, Altay diyarının, Biysk dairəsinin Qara Anuy kəndində (digər məlumata görə Maralıxa Oqnevskoy kəndi) anadan olub. 1903-cü ildə Leonid Tomsk İlahiyyat Seminariyasına daxil olub, orada bir il oxuyub, sonra təhsilini yarımçıq qoyub. 1904-cü ilin sentyabrında Biysk Katexetik Məktəbinə daxil olub, amma bitirməyib. 1905-ci ildə L. Kanzaçakov Ust-

[3] Редакция ЦА. Конзычаков (Конзычаков, Сары-Сэп) Леонид Алексеевич
https://centrasia.org/person2.php?st=1637923451#gsc.tab=0

Kanda tacir Mokinin yanında fermer şəyirdi, sonra Katanda kəndindəki tacir S.Çekantsevin yağ fabrikində süd yığıcısı, daha sonra Çeluxoevski kəndindəki Baçatski missioner düşərgəsində məzmur oxuyucusu kimi çalışıb.1905-ci ildən təsərrüfat işçisi, süd tədarükçüsü kimi çalışır. 18 yaşında isə imtahan verərək Tomsk İlahiyyat Seminariyasının 5-ci sinfinə daxil olur.

Məktəbi bitirib Ust Kan kəndinə gedən Leonid Alekseyeviç oradadı ilahiyyat məktəbində müəllim, partizanların karkuzarı işləyir. Birinci Dünya Müharibəsi başlayanda onu cəbhəyə göndərirlər. 1915-ci ildən 5-ci Sibir Atıcı Korpusunda çavuş rütbəsində xidmət edir.

1917-ci il Oktyabr çevrilişindən sonra evlərinə dönən Leonid Alekseyeviç Qriqori Çoros-Qurkinlə tanış olur və Altay Dağ Mədən Dumasına təlimatçı, az sonra isə həmin təşkilatın Kuznetsk şöbəsinə sədr təyin edilir. Boleviklərin gəlişindən sonra onlarla əməkdaşlıq edən Leonid Alekseyeviç Sarı-Sep Konzıçakov Altay Quberniya İcrayə Komitəsində milli məsələ şöbəsinin müdir müavini və müdiri işləyir. “Jizn Natsionalnostey” jurnalında altaylıların muxtariyyatı haqqında bir neçə məqalə çap etdirir.

Altayda türk xalqlarının muxtar dövlətinin yaradılması üçün hazırladığı layihələri Sibir Diyar İcraiyyə Komitəsinə, Rusiya Kommunist (bolşeviklər) Partiyasının Təşkilat Bürosuna, RSFSR Xalq Millətlər Komissarlığına, Umumrusya Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyətinə, Xalq Komissarlar Sovetinə və b. göndərir, "Altay Respublikası", "Oyrat Xalqının Muxtar Vilayəti" layihələrini müdafiə edir. İosif Stalinlə məsələni geniş müzakirə edir.

Onun hazırladığı layihədə keçmiş Biysk, Kuznetsik və Minusinsk qəzalarının ərazisinin bir inzibati vahiddə birləşdirilməsi, sahəsi 195,7 min kvadrat kilometirlik bir respublika yaradılması təklif edilirdi. Əhalisi 208,7 min nəfər olan bölgədə 135,6 min nəfər Sibir türkü yaşadığını göstərilirdi. (Тенгереков И., 2016:15 aprel, https://www.zvezdaaltaya.ru/2016/04/l-a-sary-syep-kanzachakov-mysli-ob-avton/).

Altay dağlarında sovet hakimiyyətinin qurulması zamanı Altay quberniyasının millətlər üzrə idarəsinin rəisi kimi milli idarəetmə orqanlarının işini təşkil etmiş, Sibir və Rusiya səviyyəsində keçirilən tədbirlərdə iştirak etmişdir. 1921-ci il dekabrın 15-dən 23-dək

Moskvada keçirilən Türk Xalqlarının Ümumrusiya Konfransı onun həyatında mühüm mərhələ oldu. Sarı-Sep konfransda Altqubnatların işi haqqında məruzə ilə çıxış etdi və Millətlər Komissiyasına seçildi. 1922-ci ilin iyununda Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi "Oyrat Xalqının Muxtar Vilayəti haqqında" fərman verir və Sarı-Sep Konzıçakov Diyar İnqilab Komitəsinin sədr müavini təyin edilir. Lakin onun bu vəzifədə qalması uzun sürmür. 1922-ci il dekabrın 22-də onu işdən çıxarırlar.

Kominternin üzvü olan Sarı-sep Konzıçakov özlərini kommunist adlandıran bolşeviklərin Rusiyanın müstəmləkəçilik siyasətini davam etdirməkdən əl çəkmədiklərini görür. İnadkarlığına görə 1924-cü ildə onu millətçilikdə suçlayaraq kommunist partiyasının üzvlüyündən çıxarır və vəzifəsindən uzaqlaşdırırlar.


Bölgədə Sarı-sep Konzıçakov kimi yüksək bilikli, bölgəni yaxşı tanıyan və vətənpərvər kadırlara böyük ehtiyac olmasına baxmayaraq o, Altay vilayətindəki kənd məktəblərində müəllim işləyəyir. 1928-ci ildə isə onu yenidən Kommunist partiyası sıralarına qəbul edir, 1929-cu il yanvarın 1-dən Oyrat Vilayət İcrayə Komitəsinin təşkilat şöbəsinə müdir və yeni nəşrə

başlayan “Krasnaya Oyrotiya” qəzetinə redaktor müavini təyin edirlər.

Sarı-sep Konzıçakovu partiyaya bərpa edib, vəzifə versələr də o, mübarizəsindən geri çəkilmir. Hökümət tərəfindən etibarsız sayılan millətsevər kadırları işə götürür, müxtariyyat uğrunda mübarizədən geri çəkilməyən partiya-sovet rəhbərləri, aydınlarla görüşüb mübarizə proqramı hazırlayır.

1934-cü ilin fevralında onu pantürkizmdə suclayaraq həbs etsələr də ittihamı təkzib edə bilir. 1935-ci ildə onu "məişət cinayətinə" görə həbs edirlər. 1936-cı ildə həbsdən azad edilsə də həmin ilin may ayının 21-də "əksinqilabi millətçi üsyançı təşkilatın" üzvi kimi həbs edərək onu RSFSR Cinayət Məcəlləsinin 58-1, 58-2 maddələri ilə mühakimə edirlər. Sarı-sep Konzıçakovun mübarizə yoldaşları Q.Çoros-Qurkinin, N.Mecit-İvanovun, İ.Alaqızovun, S.Safarovun, P.Xabarovun və M.Borisov-Kuçubayevin istintaq işi 1937-ci ilin oktyabrın 4-də tamamlanır və 14.10.1937-ci ildə hamısını güllələyirlər. 1956-cı ildə isə hamısına bəraət verirlər. (Тенгереков И., 2016:15 aprel, https://www.zvezdaaltaya.ru/2016/04/l-a-sary-syep-kanzachakov-mysli-ob-avton/).

Leonid Sarı-sepin həyatı xalqının müstəqilliyinə nail olmaq arzusu ilə dolu idi. Ailəsi haqqında demək olar ki, heç bir məlumat tapılmayıb. Məlumdur ki, o, "birinci sinif məktəbində müəllimə" olan Anna Efimovna Sarı-sep-Konzıçakova ilə evli idi.



Sarı-sep Konzıçakov siyasətdən kənarda da özünü göstərdi. Ədəbi istedada malik olan Sarı-sep Altay dilində qısa hekayələr yazırdı. 1931-ci ildə onun "Temdeş" hekayəsi kitab şəklində nəşr olundu. O, bölgədəki məktəblər üçün dərsliklərin

yaradılmasında və nəşrində iştirak etmişdir (Александр Санович Тадыжеков https://gornoaltaysk.bezformata.com/listnews/chasi-sari-sepa-konzichakova/12533365/ .Тенгереков И.С. https://www.zvezdaaltaya.ru/2016/04/l-a-sary-syep-kanzachakov-mysli-ob-avton/).

2.2.Qeorqi İtıqin

1873-cü il martın 2-də Yenisey quberniyası Açunsk qəzasının Çebaki ulusunda yaşayan türklərin Qızıl tayfasından olan İqnatla rus Matryona Sergeyevnanın yeni doğulan oğluna kilsədə keşiş Qeorqi adı qoyur. Varlı bir ailənin övladı olan uşaq ilk təhsilini valideynlərinin yaşadığı bölgədə alır. Sonra onu Krasnoyarsk Müəllimlər Seminariyasında oxumağa göndərirlər. 1892-ci ildə seminariyanı bitirən Qeorqi İtıqin Minusin qəzasındakı Şalabol kənd məktəbində işləməyə başlayır.

Sonra isə Ust-Abakana, Açunski, Kansk qəzalarındakı məktəblərdə dərs deyir. 1904-1913-cü illərdə Ujursk məktəbində işləyir. 1905-ci ildə Rusiya Təhsil Nazirliyinin “Fədakarlığa görə” gümüş medalını alır. 1913-cü ildə

Krasnayarsk şəhərində yeni açılan dəmiryol məktəbində işə dəvət edilir. Sibirdəki qəzet-jurnallarda məktəblərin vəziyyəti, təhsil sistemindəki çatışmazlıqlar, kəndlərin həyatı və yerlərdəki mədəni, iqtisadi, sosial vəziyyətin yarıtmazlığı haqqında silsilə məqalələr yazır. Onun yazıları bölgədə yaşayan aydınların diqqətini çəkir.

Sürgündəki inqilabçılarla tanışlıq Qeorqi İtıqinin dünyagörüşünü dəyişir. Onların nəzəri fikirləri xalqını xoşbəxtliyə çıxarmaq istəyən aydına çox şirin və inandırıcı görünür. O da xalqın xilas yolunu inqilabda görür. Qeorqi İtıqin Krasnoyarsk Müəllimlər İnstitutuna qəbul olunur. Müəllimlər üçün açdığı "Sibir məktəbi" jurnalı 1915-cı ildə 1916-cı ilədək ardıcıl çıxır. İctimai-siyasi həyatda fəallığı ilə seçilən Qeorqi İtıqin 1917-ci il martın 10-da Krasnayarskdə yardılan Beynəlmiləl Müəllimlər Birliyinin təşkilatçılarından olur və Rusiya Sosial Demokrat Fəhlə Partiyasına qəbul edilir.

Bölgədə partiyanın öndərlərində birinə çevrilən Qeorqi İtıqin hakimiyyətin Sovetlərə keçməsi üçün var qüvvəsilə çalışır. Onlar 1917-ci il noyabrın 10-da Miçunski qəzasında Sovet hakimiyyətinin qurulduğunu elan ediblər. Xalq

arasında dayaqları olmadığına və mərkəzi hökümətdən yardım alma bilmədiklərinə görə hakimiyyətlərinin ömrü qısa olur.

1918-ci ildə Krasnoyarsk Müəllimlər İnstitutunu bitirən Qeorqi İtıqin açıq siyasi fəaliyyət göstərməsinin mümkünsüzlüyünü görərək gizli işə keçir. Çex əsirlərindən təşkil olunmuş hərbi birləşmədə 1918-ci il iyunun 18-də baş vermiş üsyan, Admiral Aleksandr Kolçakın (1874-1920) Yaponiyadan gəldikdən sonra (13.10.1918) Omskda fəaliyyət göstərən Müvəqqəti Ümumrusiya Hökümətini devirərək özünü Rusiya dövlətinin Ali rəhbəri elan etməsi və ağqvardiyaçılardan yaratdığı ordu bolşeviklərin bölgədəki fəaliyyətinə son qoyur.

Qeorqi İtıqini də həbs edilərək iki ay Miçunskidə saxlandıqdan sonra İrkutskiyə sürgünə göndərilir. Qeorqi İtıqin məsləkdaşları ilə birlikdə ağqvardiyaçılara qarşı partizan dəstələri yaradır. Bu dəstələr ağqvardiyaçılara qarşı döyüşməklə yanaşı, yerli əhalini soyub-talayır, qəddarlıq edir.

Aleksandr Kolçakın ən etibarlı generalları Zineviç və Qaydan rəhbərlik etdikləri hərbi birliklərlə birgə 1919-cu ildə bolşeviklərin tərəfinə keçir. Bu xəyanət Sibirdə qüvvələr

nisbətini dəyişir. 1920-ci ilin yanvarında bolşeviklərin silahlı qüvvələri partizan adlandırdıqları silahlı dəstələrin köməyi ilə bölgənin əsas strateji yerlərini ələ keçirirlər. Bolşeviklər yeni qurduqları hökümətdə Qeorqi İtıqini Krasnoyarsı vilayət İcrayə Komitəsinə üzv seçirlər. O, bir müddət quberniya dəmiryol işçilərinin Mədəni-Maarif Komissarı işlədikdən sonra Yenisey Vilayət Xalq Maarifi Şöbəsinin Xakasiya bölməsinə müdir təyin edilir. Bölgənin güneyində silahlı dəstələrin bolşeviklərin hakimiyyətini qəbul etmədiklərini, onlara qarşı müqavimət göstərdiyinin görən hökümət rəhbərləri yerli şəraiti yaxşı bilən, adamları yaxından tanıyan və xalq arasında hörməti olan Qeorqi İtıqinə Yenisey quberniya Hərbi Tribunalına rəhbərlik etmək tapşırılır.

Lakin bu işdə Qeorqi İtıqinlə məsləkdaşı arasında qarşıdıurma yaranır. O, müxalif qüvvələrlə danışıqlar yolu ilə sülhə və dincliyə nail olmaq istəyir. Bir neçə dəfə də həmin qüvvələrin rəhbərləri ilə danışıqlara gedir. Lakin yerli hakimiyyəti saya salmayan hərbçilər müxalif qüvvələri silah gücünə susdurmağa, daha doğrusu, onları tamamilə məhv etməyə üstünlük verirlər. Silahlı qarşıdurmada isə dinc əhali

öldürülür, təsərrüfatlar dağıdılır, bölgəni aclıq, xəstəlik bürüyür.

1922-ci ildə Xakas Milli Qəzası yaradılır. Qeorqi İtıqin vilayət Sovetinin İcraiyyə Komitəsinə sədr seçilir. Onun bu vəzifədəki fəaliyyəti çox gərgin olur. Qeorqi İtıqin yuxarıların əmrlərinə sözsüz əməl edən bir məmur olmur. Çünki o, azadfikirli, müstəqil fəaliyyəti sevən, millətinin və seçicilərinin hüququnu qoruyan bir insan idi. O, yeni yaradılan inzibati vahiddə rəhbər vəzifə tutsa da, bununla razılaşmayıb. Batı Sibirdə yaşayan türklərin bir inzibati ərazi bölgüsünə daxil edilməsini, bu bölgüyə də respublika statusu verilməsini istəyir. Mərkəzi hakimiyyət isə heç vəchlə bununla razılaşmaq istəmir. Lakin bölgəni zorla idarə edə biləcək güc də yox idi. Sibirin sərt şaxtası aylarla uluslar arasında gediş-gəlişi əngəlləyir, yayda isə sərt yamaclı dağlar zəif təchizatlı Sovet əsgəri birliklərinin irəliləməsinə əngəl olurdu. Bütün bu çətinlikləri nəzərə alan Moskva bölgəni yaxşı bilən, xalq arasında nüfuzu olan Qeorqi İtıqinə güzəştə getməyə məcbur olsa da, o biri tərəfdən də bölgədə əhalinin milli tərkibinin dəyiş-dirilməsi üçün planlı iş aparır.

Qeorqi İtıqin Moskvanın yeritdiyi siyasətlə barışa bilmir. O, Xalq Deputatlar Sovetinin iclasındakı çıxışında deyir ki, bölgənin 479 yaşayış məntəqəsindəkilərin yüzdə yetmişi xakaslar olmasına baxmayaraq, ruslar yaşayan bölgələrə büdcədən vəsait daha çox ayrılır. Qeorqi İtıqini 1924-cü il yanvarın 1-də Xakas Qəza İnqilab Komitəsinə sədr vəzifəsinə təyin olunur. Sonra yeni yaradılan Fəhlə, Kəndli və Qırmız Əsgər Sovetinin 1-ci Qurultayında (noyabr 1924) onu Xakasiya Qəza İcraiyyə Komitəsinə sədr seçirlər.

Qeorqi İtıqin kimi düşünən, milli təfək-kürlü, demokratik fikirli insanları susdurmaq üçün 1925-ci ildə Xakas Milli Mahalı yaradılır. Qeorqi İtıqini də mahal Sovetinin sədri seçirlər. Lakin o, nə inzibati bölgü, nə də vəzifəsinin yüksəldilməsi ilə razılaşır. Xakas dilində məktəblər açılmasına nail olur. Ana dilində yeni dərsliklərin yaradılması, əlifba hazırlanması komissiyalarına rəhbərlik edir. Milli pedaqoji kadrlar hazırlayan üçaylıq kursların açılmasına, xakas dilində ilk qəzetin- "Qızıl aal" qəzetinin nəşrinə, kitabların çapına nail olur. 1925-ci ilin martında keçirilən Xalq Deputatlar Sovetinin 2-ci Qurultayındakı çıxışında Batı Sibirdə yaşayan

türksoylu xakas, altay, şor, teleut və b. xalqlar üçün bir inzibati vahid-Batı Sibir Türk Respublikası yaradılmasını təklif edir.

Onun çıxışları çoxlarına romantik görünür. Sayan dağlarının keçilməz olduğunu söyləyənlərə cavab olaraq deyirdi ki, əlçatmaz saydığınız dağlardan Oyrata və Uryanxaya rahat keçə biləcəyimiz aşırımlar var. Qırğızıstandan Mantur kəndinə, oradan Ulalaya (Dağlıq Altay) yol çəkilərsə, tayqa canlanar, saysız-hesabsız sərvətlər respublikanın iqtisadiyyatını yüksəldər. Oyratdan çəkiləcək başqa bir yol Qara İyus və Sarala çayı boyunca uzanaraq Alatau, Ulengendən keçər. Gələcəkdə Uryanhaya dəmir-yolu çəkilər. Qeorqi İtıqin Xakasiya və Oyratyanı iki ayrılmaz bacıya bənzətmiş və bu mövzuda şeir də yazmışdır. Qeorqi İtıqinin poetik çıxışını qurultay iştirakçılarının çoxu bəyənir. Qəbul edilən qərar haqqında Sibir quberniya İcraiyyə Komitəsinə bilgi verilir və xahiş edilir ki, qəbul edilən qərar haqqında Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi məlumatlandırılsın. Türksoylu xalqların bir inzibati vahiddə birləşdirilməsi üçün Oyrat və Uryanxay, Tanna-Tuva hökümətləri ilə danışıqlar aparmaq üçün nümayəndə heyəti də yaradılır.

Qeorqi İtıqin bolşeviklərin yeritdiyi siyasətlə razılaşmır, Rusiya Kommunist (bolşevik) Partiyası Yenisey Quberniya Komitəsinin 1924-cü ilin sentyabrında keçirilən plenumundakı çıxışında deyir ki, Xakas hökümətində sən demə xakas yoxmuş. Onun bu fikrini quberniya XDS İcrayə Komitəsinin sədri P.İ.Şixanov da təsdiqləyir. Kommunist Partiyasının istər quberniyadakı, istərsə də Moskvadakı rəhbərliyi bu cür çıxışlardan razı qala bilməzdi. Hətta İosif Stalin Qeorqi İtıqini özündən razı şovinist adlandırır.

Bölgədə milli mübarizənin gücləndiyini görən Moskva başqa siyasət yürüdür. Ukraynadan, Mərkəzi Rusiyadan, Qafqazdan narazı insanları Batı Sibirə sürgün etdiyi halda müxtəlif bəhanələrlə bölgədəki xakas, oyrat, şor, telut türklərini də Quzeyə – Baykala, Norilskə tayqanın yaşayış daha çətin olan yerlərinə sürgün edir. Beləcə türklərin kütləvi aclıqdan, xəstəlikdən ölümünə şərait yaratmaqla yanaşı, Batı Sibirin əhalisinin milli tərkibini də dəyişdirmiş olur.

Burjua millətçiliyində suçlandırılan Qeorqi İtıqin 1927-ci ilin martında Novosibirsk Ölkə İcraiyyə Komitəsi Xalq Təhsili Şöbəsinin azsaylı

xalqlar bölməsinə işə göndərilir. Lakin o, başladığı işi yarıda qoymayıb, şor türklərindən Y.K.Telqerekov, oyrat türkü Mixaylov-Oçi, rəssam Çoros-Qurkin və başqaları ilə birlikdə Batı Sibir Türklərinin İttifaqı təşkilatını yaradır. Bu təşkilatın planı Batı Sibir Türk Respublikasını qurmaq olur. Qeorqi İtıqin 1928-ci il dekabrın 5-də Novosibirskdə şübhəli şəkildə ölür.

(Şamil Ə., Qeorqi İtıqin, https://ali-shamil.tr.gg/Qeorqi-%26%23304%3Bt%26%23305%3Bqin.htm 30.04. 2012)

2.3. Qriqori Çoros-Qurkin

1870-ci il yanvarın 12-də Biyski qəzasının Ulala kəndində xristianlaşdırılmış türk ailəsində doğulan Qriqorini səkkiz yaşında missionerlərin açdığı kilsələr üçün ikona hazırlayan məktəbə oxumağa göndərirlər. O, burada yazmağı öyrənməklə yanaşı, ikona hazırlanacaq ağacların növünə və yaşına görə necə qurudulduğunu da öyrənir. Bu o qədər də asan bir iş olmur. Çünki usta ikona hazırlayacağı ağacın soyuğa və istiyə necə dözəcəyini, qurumuş ağac parçasının illər keçəndən sonra rəngini dəyişməməsi üçün nələr

etmək lazım gəldiyini, bir sözlə sənətinin sirlərini dərindən bilməlidir. Yaşıdlarından əl qabiliyyətinə və bacarığına görə seçildiyi üçün onu məktəbdə usta – müəllim saxlayırlar.

Qriqori Qurkin bölgədə həvəskar rəssam, ikona ustası kimi tanınır. Batı Sibirin mədəni mərkəzlərindən sayılan Tomsk şəhərinə tez-tez gedir, oradakı ədəbi-mədəni mühitlə yaxından tanış olur. Tale onu 1896-cı ildə bölgəyə ekspedisiyaya gəlmiş etnoqraf, bəstəkar və şair A.B.Anoxin, coğrafiyaçı və səyyah, Sibir xalqlarının folklorunu toplayan Q.N.Potanin, geodeziyaçı pofessor, sonralar rus ədəbiyyatına "Uqrum çay" kimi dəyərli roman bəxş etmiş B.Y.Şişkovla görüşdürür. Onlar Qriqori Qurkinin əl işlərinə heyran qalırlar. Fitri istedad sahibinə Avropa tipli rəssamlıq haqqında bilgi verirlər və məsləhət görürlər ki, Sankt-Peterburqa gedib oradakı rəssamlıq akademiyasında təhsil alsın.

1897-ci ilin oktyabrında Peterburq Rəssamlıq Akademiyasına imtahan versə də, onu qəbul etmirlər. Necə deyərlər ixtisas imtahanından ümumi biliyinin zəyifliyinə və rəssamlıq hazırlığı yetərincə olmadığına görə keçə bilmir. Məşhur mənzərə ustası İ.İ.Şişkin isə gəncin fitri istedadını görərək onu emalatxanasında işə

götürür. Burada üç il çalışdıqdan sonra yenidən rəssamlıq akademiyasında oxumağa cəhd edir. 1899-cu ilin martında akademiyanın mənzərə sinfində dərslərə başlayır.

Oncə İ.İ.Şişkinin sinfində, o, öldükdən sonra isə A.A.Kiselovun sinfində oxuyur və rəngkarlığın sirlərinə dərindən yiyələnir. Rəssam kimi məşhurlaşmağa başlayanda Qriqori nəslinin adını-Çorosu ləqəb götürərək soyadını Çoros-Qurkin edir.

Akademiyanı bitirdikdən sonra, yəni 1903-cü ildə vətənə dönən rəssam rus qadını ilə evlənir və Anos kəndində, Katuni çayının sahilində, axar-baxarlı bir guşədə özünə ev tikərək Sibir mənzərələrini kətana köçürməyə başlayır. Əsərləri Sibirin ən nüfuzlü insanlarının otaqlarını bəzəyir. 1907-ci il dekabrın 23-də Tomskda açılmış fərdi sərgisi ona böyük uğur qazandırır. Peterburqlu sənət tənqidçisi V.Dalkeviç, sibirli alim, publisist A.B.Adrianov və başqaları Qriqori Çoros-Qurkinin mənzərə janrında çəkdiyi tablolar haqqında qəzetlərdə xoş sözlər yazırlar. Qriqori Qurkinin Omskdə, Barnaulda, Krasnoyarskidə, Novonikolayevskidə açılan sərgiləri də uğurlu olur. Rəssamın əsərləri satılır, ona yeni sifarişlər verilir.

Qriqori Çoros-Qurkinin 1903-cü ildə tamamladığı "Katunda bahar", 1907-ci ildə çəkdiyi "Laje gölü" və "Xan Altay", 1909-cu ildə çəkdiyi "Yadıqem çayı", "Karakol", "Buzqıran" və "Altay. Dağ vadisi", 1910-cu ildə çəkdiyi "Katun çayının qolları", "Dağ gölünün ruhu" və b. əsərləri sənətsevərlər tərəfindən böyük maraqla qarşılanır. O, mövzu axtararkən Batı Sibiri qarış-qarış gəzməli olur. Zəngin təbii sərvəti və əvəzsiz gözəlliyi olan bölgənin sürgün yerinə çevrilməsi, soydaşlarının doğma yurdlarında ikinci dərəcəli insan sayılması və ac-yalavac yaşaması onu çox narahat edir. Gəzdiyi yerlərdə insanlarla danışır, onların dərdlərini dinləyir, müzakirələr aparır, geriliyin, səfalətin aradan qaldırılma yollarını axtarır. Açıq-aydın görür ki, yarı zor, yarı xoş soydaşlarının xristianlığı qəbul etməsi milli ayrıseçkiliyi aradan qaldırmır. Nəinki çar məmurları, hətta hökümətdən narazı olduqlarına görə Batı Sibirə sürgün edilən rus aydınlarının əksəriyyəti də onun xalqına yuxarıdan aşağı baxır. Odur ki, soydaşlarını öz haqları uğrunda mübarizəyə, hüquqlarını qorumağa, maariflənməyə həvəsləndirir. Rus dilində təhsil almasına, özünü xristian saymasına baxmayaraq rəsm əsərlərini

ana dilində adlandırır, babalarının inanclarına sayqı ilə yanaşır, ayinləri onlar kimi icra etməyə çalışır.

1917-ci ildə çar 2-ci Nikolayın taxtdan salınması Romanovlar sülaləsinin 300 illik hakimiyyətinə son qoyur. Bu, Qriqori Çoros-Qurkində ruh yüksəkliyi yaradır. O, düşünür ki, Rusiya demokratik bir ölkəyə çevriləcək və soydaşları da əsarətdən qurtulacaq. Lakin bolşeviklərin hakimiyyəti zorla ələ almaları vəziyyəti daha da ağırlaşdırır. Ölkəni vətəndaş müharibəsi bürüyür. Rəssam xalqını azad görmək istədiyini, milli ayrıseçkiliyə son qoyulmasını tələb etdiyinə görə separatizmdə, Rusiyanı parçalamağa cəhddə suçlanır.

Aleksandr Kolçakın qurduğu oyuncaq hökümət 1919-cu ilin aprelində Qriqori Çoros-Qurkinin həbs edilməsinə göstəriş verir. Dostlarının və bölgənin nüfuzlu insanlarının təsirilə zaminlə buraxılsa da, vəziyyətin getdikcə gərginləşdiyini görərək Monqolustana qaçmaq məcburiyyətində qalır.

Bolşeviklər Sibiri yenidən işğal etdikdən sonra da Qriqori Çoros-Qurkin vətənə dönmür. O zaman müstəqil respublika olan Tuvaya gedir. 1924-ci ildən Sibirdə iqtisadiyyatın dağıldığını

görən hökümət Monqolustanda və Tuvada mühacirətdə olanları vətənlərinə qayıtmağa çağırır və onların mal-mülklərini özlərinə qaytaracaqlarını vəd edir.

Beş ilə yaxın Tuvada yaşayan və yaradıcılıqla məşğul olan rəssamı Sovet emissarları dilə tutaraq vətənə qaytara bilirlər. İlk günlər ona sayqı ilə yanaşır, Batı Sibirin inzibati mərkəzinə çevrilmiş Novosibirsk şəhərində və Moskvada fərdi sərgisini açırlar. 1926-cı ildə Moskvada açılmış fərdi sərgisinə hökümətin ən məşhur simalarından olan, mədəniyyət və incəsənət işlərinə rəhbərlik edən xalq komissarı Lunaçarski də gəlir. Lunaçarski Qriqori Qurkinin əsərləri haqqında mərkəzi mətbuatda yüksək fikirlər söyləyir.

Tərifl ər, sərgilər rəssamın həqiqəti görməsinə əngəl törədə bilmir. O, cəmiyyətdəki nöqsanlara dözə bilmədiyindən rəsmi toplantılarda da bolşeviklərin Sibirdə yaşayan türk xalqları ilə çar məmurları kimi davrandıqlarını söyləyir. Rəhbər vəzifədə olan soydaşları ilə də açıq müzakirələri girişir, razılığa gəlirlər ki, mərkəzi hökümət qarşısında Batı Sibir Türk Respublikası yaradılmasının vacibliyi məsələsini

qaldırsınlar. Məsələni bölgənin rəsmi toplantılarında gündəmə gətirirlər. Xakasların, şorların, oyrat-altayların çoxluq təşkil etdiyi bölgədə Batı Sibir Türk Respublikası yaratmaq ideyası xalq kutlələri tərəfindən də rəğbətlə qarşılanır.

Mərkəzi hökümət bölgədə yerini lazımınca möhkəmlətmədiyindən siyasi müxalifətə sərt münasibət göstərmir, əsas ağırlığı silahlı müxalifəti məhv etməyə yönəldir. İstəyinə nail olduqdan sonra Sibirə sürgün edilmiş rus, ukrain, belarus və b. millətdən olanların əliylə yerli xalqların öncüllərini cəzalandırmağa başlayır. İdarəetmədə yerli xalqların nümayəndələrinin olmadığını, inzibati-ərazi bölgəsinin düzgün qurulmadığını, milli hüquqların tapdalandığını söyləyən insanlar millətçilikdə, antisovet təbliğat aparmaqda, xarici ölkələrin xüsusi xidmət orqanları ilə əməkdaşlıqda suçlandırılırlar.

1934-cü ilin aprelində Qriqori Çoros-Qurkin də daxil olmaqla 37 nəfər həbs olunur. Dörd aylıq istintaqdan sonra Batı Sibir Türk Respublikası ideyasının tərəfdarlarının məhkəməsi başlayır. Lakin bu məhkəmə o qədər də sərt keçmir. “Kapitalist ölkəsi Yaponiyanın dəstəyi ilə Sibir türklərinin birliyinə nail olmaqda, Batı Sibir Türk Respublikası qurmaqda” suçlananların

bir qisminə icbari iş verilir, bəziləri də cinayəti sübut edilmədiyindən azadlığa buraxılır. Lakin bunlar ötəri və keçici bir proses idi, qarşıdan daha ağır günlər gəlirdi. 1937-ci ildə nəinki dəlil yetərsizliyindən həbs edilməyənləri, icbari iş verilənləri, hətta onları mühakimə edənləri də həbs edirlər.

Qriqori Çoros-Qurkin yenidən həbs edilir və ağır işgəncələri başlayır. Taleyin qəribəliyi orasında idi ki, 1937-ci ildə Qriqori Qurkinə qarşı əks cəbhədə olanlar, Moskvanın tapşırıqlarını yerinə yetirənlər də həbs olunur. Budəfəki həbsdən isə nə xalqının güzəranı üçün gün ağlamağa çalışanlar, nə də bölgədə Sovetlərin möhkəmlənməsi üçün canından keçməyə hazır olanlar qurtula bilirlər. Çünki Moskvadan Krasnoyarskiyə "xalq düşməni" planını yerinə yetirmək haqqında sərt göstəriş gəlmişdi.

Krasnoyarskinin də, Xakasiya Muxtar Mahalının NKVD-sinə gələn plana görə Xakasyadan minimum üç min nəfər həbs edilməli idi. Mərkəzin göstərişləri vaxtında və lazımınca yerinə yetirilir. Krasnoyarsk şəhərində fəaliyyət göstərən Ali Məhkəmənin Hərbi Kollegiyası Qriqori Çoros-Qurkin və məsləkdaşlarına ölüm hökmü oxuyur. Qəribəsi bu olur

ki, Dağlıq Altayın görkəmli siyasi və dövlət xadimi, Sovetlərin bölgədəki ən güclü ideoloqu Nikitı Fyodroviç Medjum-İvanov da 1937-ci il oktyabrın 11-də Qriqori Çoros-Qurkinlə birlikdə güllələnir.

İllər keçir. Qriqori Çoros-Qurkin və onun kimi minlərlə insana 1956-ci ildən sonra bəraət verilir. Adının əbədiləşdirilməsi, əsərlərinin təbliği sahəsində bəzi işlər görülür. Lakin hələ də Qriqori Çoros-Qurkin və onunla birlikdə ölümə gedənlərin ideyaları reallaşdırılmır (Şamil Ə., Qriqori Çoros-Qurkin, https://ali-shamil.tr.gg/-Qriqori-%C7oros_Qurkin.htm 10.05.2013)

2.4. Nikolay Konqarov

Konqar ailəsinin Askız qəsəbəsi yaxınlığında geniş torpaq sahəsi vardı. Rusiya bölgəni işğal edəndən sonra onların torpaqları da Yenisey quberniyasının Minusinsk qəzasına daxil edildi. Nikolay da 1905 və ya 1906-cı ildə burada doğulmuşdu. Onun atasını da xaç suyuna salaraq İvan adı vermişdilər. Rusiya bölgəni işğal etdikdən sonra yerli əhalini yarı zor, yarı xoş xristianlaşdırdığından Sibir xalqlarını adları və ata adları xristian din xadimlərinin verdiyi adlar

olsa da, soyadlarını milli dillərdən gələn sözlər təşkil edirdi.

Nikolay anadan olan dövrdə yerli əhalinin böyük bir qismi hələ oturaq həyata keçməmişdi. Heyvan sürülərini fəsillərə görə bu yerdən, o birisi yerə aparır, özləri də həmin yerdə alaçıq qurub yaşayırdılar. Rəsmi dövlət sənədlərində onları gah Sibir tatarları, gah Yenisey tatarları, çox vaxt da sadəcə tuzemts kimi göstərirdilər. Qonşu xalqlar isə onları qırğız kimi tanıyırdı.

Çin qaynaqlarından alınan xakas sözü isə Sovetlər hakimiyyəti illərində aktuallaşdı. Beləcə Sibirdə yaşayan türklər nəinki bir-birlərindən, həm də yüzillər boyu birgə yaşadıqları, qazaxlardan, qırğızlardan, uyğurlardan ayrıldılar. Müstəmləkəçilər türkləri bir-birindən ayıraraq kiçik xalqlara çevirsələr də, bu günün özündə belə rus araşdırıcılar xakas dilindən söz açanda "xakas dili türk dillərinin şərqi hun qolunun uyğur qrupuna daxildir... Mənşəcə qırğız dilinə daha yaxındır" yazır, xakas dilinin formalaşmasından söz açanda isə "saqay, kaçin, qızıl və b. dialektləri var" deyə qeyd edirlər.

Saqay, kaçin, qızıl tayfaları isə yalnız xakasların deyil, altay, teleut, şor, qazax, qırğız və başqalarının da soykökündə iştirak etmişdir.

Nikolay Konqarovun doğulduğu yaşayış məntəqəsinin adı sonralar Arjanov adlandırılmışdır. O, ilk təhsilini kəndlərində, sonra isə Askiz qəsəbəsində alır.

1917-ci ilin oktyabrında bolşeviklər silah gücünə hakimiyyəti ələ aldıqdan sonra Sibirdə vəziyyət daha da gərginləşir. Çünki buraya dini inancına görə, əqidəsinə görə sürgün edilənlərlə yanaşı, müxtəlif cinayətlər törətmişlər də sürülmüşdülər. 1917-ci ilin qarğaşasından istifadə edən cinayətkarlar silahlı dəstələr yaradıb xalqı talayır. Bölgədə hakim olmaq istəyən ağqvardiyaçılarla bolşeviklər arasındakı savaş isə ara vermir. Bu qarışıq dövrdə yeniyetmə Nikolay Konqarov təhsil ardınca gedə bilmir. Siyasətdən uzaq bir həyat yaşamağa çalışır. Bölgənin sayılan nəslindən olduqlarından təsərrüfatlarının idarəolunmasında valideynlərinə kömək edir.

Bolşeviklər bölgədə möhkəmləndikcə əhalininin var-dövlətini əlindən zorla almağa başlayır. Konqarovlar da "kulak" elan edilərək var-dövlətləri əllərində alınır, təqib olunmağa başlayır. 20 yaşlı Nikolay Konqarov ailəni dolandırmaq üçün Cebaj-Abakan bölgəsində meşəqıran işləyir. Onun işgüzarlığını,

diribaşlığını görən rəhbərlik 1928-ci ildə Nikolayı Sovetlərin təşkil etdiyi partiya məktəbində oxumağa göndərir.

Nikolay Konqarov 1928-1931-ci illərdə Abakan və Krasnoyarskdakı partiya məktəblərində təhsil alır. Kadr qıtlığına görə 26 yaşlı gənci Abakan Rayon Partiya Komitəsinin təşkilat şöbəsinə müdir təyin edirlər. Nikolay Konqarov orada çox işləmir. Onu Xakas Milli Nəşriyyatına şöbə müdirinin müavini vəzifəsinə göndərirlər. Az sonra, yəni 1932-ci ilin fevralında daha məsul bir vəzifəyə, xakas dilində nəşr olunan "Xızıl Aal" qəzetinə redaktor təyin edirlər.

Nikolay Konqarov partiya qəzetinin redaktoru olduğu dövr milli kadrlarla özlərini beynəlmiləlçi adlandıran, əslində velikorus siyasəti yeridənlər arasındakı qarşıdurma getdikcə dərinləşir. Belə ki, bolşeviklər silah gücünə bölgədə hakimiyyətlərini möhkəmləndirdikdən, yəni əhalinin bir qismini güllələdikdən, həbsxanalara göndərdikdən, ölkəni tərk etməyə, aclıqdan ölməyə məhkum etdikdən sonra onlarla əməkdaşlıq etmiş yerli sakinlərə divan tutmağa başlayır.

Bolşeviklərin sülh, sosial ədalət, əsarət altında olan xalqlara azadlıq və s. kimi şirin

şüarlarına inanan yerli xalqların nümayəndələri verilən vədlərin yerinə yetirilməsinə səy göstərdilər. Rəhbər vəzifələrdə olan xakaslar, altaylılar, şorlar, yerli Sovetlərin toplantılarında "Qərbi Sibir Türk Respublikası" yaradılması məsələsini gündəmə gətirdilər. Moskvanın göstərişilə mövzunu gündəmə gətirənlərin əksəriyyəti 1934-cü ildə həbs edilir. Nikolay Konqarov bu həbslərdən qurtulsa da, təqib və təzyiqlərdən qurtula bilmir. Həqiqəti dediyinə, redaktoru olduğu qəzetdə xalqının istəklərini dilə gətirməyə çalışdığına görə onu qəzetdən uzaqlaşdıraraq tərcümə və nəşriyyat işinə göndərirlər. Bununla da iş bitmir. Nikolay Konqarovun təqib və sıxışdırılması bölgə miqyasını aşır.

Moskvada nəşr olunan, Ümumrusiya Kommunist (bolşeviklər) Partiyasının orqanı "Pravda" qəzeti 1936-cı il iyulun 17-də çap etdiyi məqaləsində Konqarovu və Kuçendayevi Sovet Konstitusiya layihəsini tərcümə edərkən təhriflərə yol verməkdə ittiham edir. Bu təhriflər sadəcə tərcümə zamanı baş vermiş qüsurlar kimi dəyərləndirilmir. Onu tərcüməçilərin millətçiliklərindən, bolşeviklərin yeritdiyi siyasi xətlə razılaşmadıqlarından doğan bir hal, siyasi təxribat kimi qiymətləndirirlər. Beş gün sonra isə

Ümumrusiya Kommunist (bolşeviklər) Partiyası Xakasiya Vilayət Komitəsinin bürosunda məsələ geniş müzakirə edilir. Nikolay Konqarova partiya cəzası verilir və tutduğu vəzifədən uzaqlaşdırılaraq Xakasiya Vilayət İcraiyyə Komitəsinə katib göndərilir. Təqib və təzyiqlər Nikolay Konqarovun mövqeyini dəyişmir. Elə buna görə də 1937-ci ilin fevralında həbs edirlər. Uzun sürən istintaqdan sonra 1937-ci ilin iyulun 13-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarı ilə güllələnir.

Ailəsinin şikayəti əsasında 1957-ci il mayın 21-də Nikolay Konqarova bəraət verilsə də, onun haqqında həqiqətlər hələ də aşkarlanmayıb (Şamil Ə., Nikolay Konqarov, https://ali-shamil.tr.gg/Nikolay-Konqarov.htm, 20.04.2013)

Sonuc

Batı Sibir türklərinin 1918-ci ilin martın 12-də yaratdıqları Karakorum Dağlıq Altay Hökümətinə 1920-ci ildə son qoyuldu. Lakin bu, türklərin hökümət qurma istəklərini əngəlləyə bilmədi. Milli hökümətlərini qurmaq uğrunda

bölgədə yaşayan türklərin öndərləri 1934-cü ilədək mübarizə apardılar.

1934-cü ilin aprelində partiya-sovet aparatında rəhbər vəzifələrdə çalışmış 37 nəfər "millətçilikdə, kapitalist ölkəsi Yaponiyanın köməyindən istifadə edib burjua-demokratik Batı Sibir Türk Respublikası qurmağa cəhddə, bununla da SSRİ-ni dağıtmağa təşəbbüsdə" suçlanaraq həbs edildi. NKVD (Xalq Daxili İşlər Komissarlığının rus dilində qısaldılmış adı-Ə.Ş.) işçiləri fəaliyyətlərinin genişmiqyaslılığını göstərmək üçün 70 nəfərlik bir dəstəni də Sovet rəhbərləri Xakasiyaya gələndə onlara terror hazırlamaqda suçladılar. Sibir Türk İttifaqının liderləri sırasında xakaslardan Konistantin Maytakovu, N.ikolay Ayoşinii, Konistantin Kokovu, Aleksey Şulbayevi, Aleksey Topanovu, İvan Borqoyakovu, Vasili Sunçuqaşevi, altaylardan Qiriqori Qurkini, Vasili Maneyevi, Lazer Edokovu, şorlardan Yakov Telqerekovu, Fyodur Kusurqaşevi və başqaları həbs edildilər. (Тугужекова В.Н., Карлов С.В, 1998, https://memorial.krsk.ru/Articles/1998/RepHak/3.htm).

Həbs olunanlar arasında rəhbər vəzifələrdə işləmiş Yakov Telqerekov, Nikolay Ayoşini,

A.N.Amzarakov, Vasili Sunçuqaşev, Konistantin Maytakov, 1926-cı ildə Bakıda keçirilən 1-ci Türkoloji Qurultayın iştirakçısı Nikolay Qriqoreviç Katabov (Məşhur alim Nikolay Fyodroviç Katanovun bacısı oğlu) və b. da vardı. Krasnoyarsk şəhərində Ali Məhkəmənin Hərbi Kollegiyası qısa dindirmələrdən sonra saxta ittihamlarla mühakimə olunan "müttəhim"lərə hökm oxuyur: Xakasiya Vilayət İcrayə Komitəsinin sədri Mixail Torosov, İcrayə Komitəsinin katibi Nikolay Konqarov, Vilayət Komsomol Komitəsinin katibi Konistantin Kuljxanov, mədəniyyət şöbəsinin müdiri İvan Toqdin, xalq məhkəməsinin sədri Fyodr Tolstuxin, Askiz rayon Maliyyə Şöbəsinin rəisi İvan Abdin, maarif şöbə müdiri İvan Kudryakov güllələnsin, komsomolun regional komitəsinin siyasi rəhbəri Nikolay Kiştyeyev, pedoqoji texnikumun müəllimi Vasili Subrakov, Milli Dram Teatrının direktoru Pavel Maynaqaçev 10 il həbsdə saxlanılsın. Başqa mühakimə olunanlara da 7 illə 3 il arasında həbs cəzası və sürgün cəzaları verilir. Bir neçə nəfər isə əməlində cinayət tərkibi tapılmadığına görə məhkəmə salonundan azadlığa buraxılır. Lakin bununla iş başa çatmır. 1937-ci ildə həbs cəzası

alanlar, sürgünə göndərilənlər, azadlığa buraxılanlar yenidən mühakimə olunurlar. Onların əksəriyyəti güllələnir və ya uzunmüddətli həbs edilirlər (Чигарских И., 2020:10 декабр) 1937-ci ilin repressiyası Batı Sibir türklərinin milli hökümətlərini qurmaq uğrunda mübarizəsinə son verir. Bununla yanaşı bölgədə ruslaşdırma sürətləndirilir. Türk xalqları elə bir hala salınır ki, babaları türk olduqları ilə qürur duyan, türk hökümәti qurmaq istəyənlərin nəvələri bu sözdən utanc duyur, özlərini türk saymırlar. Parçalanmış, tayfadaxili ünsiyət vasitəsinə çevrilmiş dilləri isə yox olmağa doğru gedir.

Qaynaqlar:

Azərbaycan türkcəsində

1. ASE (Azərbaycan Sovet Ensiklopediyası). (1984). Bakı.
2. Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı. "Elm". 2008. 696 səh.
3. Şamil Əli. (2013) Stepan Maynaqaşev, https://ali-shamil.tr.gg/Stepan-Manaqa%26%23351%3Bev.htm, 06.03.2013

4.Şamil Əli.(2012). Qeorqi İtıqin, https://ali-shamil.tr.gg/Qeorqi-%26%23304%3Bt%26%23305%3Bqin.htm 30.04.2012
5.Şamil Əli. (2013), Qriqori Çoros-Qurkin, https://ali-shamil.tr.gg/Qriqori-%C7oros_Qurkin.htm, 10.05.2013.
6.Şamil Əli.(2013) Nikolay Konqarov, https://ali-shamil.tr.gg/Nikolay-Konqarov.htm, 20.04.2013.
7.Yoloğlu Güllü.(2018). Sibirin işğalı - ruslaşdirma və xristianlaşdirma, http://davam.-az/48728-sibirin-ial-rusladrma-v-xrstanladrma.html

Rus dilində

8. Гладышевский Алексей.(2008) Союз тюрков Сибири, http://www.gorno-altaisk.ru/-archive/2005/25/001.htm
9. Горный Алтай в канун революций 1917 года, https://история.авра.рф/index.php/Горный_Алтай_в_канун_революций_1917_года)
10. Демидов В. А. От Каракорума к автономии. Новосибирск, 1996. С. 44-45.

11. Мамышева, Е.П. Общественно-политическая деятельность С.Д. Майнагашева [в Сибири. 1917-1920 гг.] / Е.П. Мамышева // Росиия и Хакасия : 290 лет совместного развития. – Абакан, 1998. – С. 126- 131.
12. Орешкова Ю.А. (2013). ВЗГЛЯД В ПРОШЛОЕ: К 95-ЛЕТИЮ СО ДНЯ ПРОВЕДЕНИЯ I СЪЕЗДА ХАКАССКОГО НАРОДА (по документам ГКУ РХ «Национальный архив»), АДА ЧИР-СУУ - ОТЕЧЕСТВО , краеведческий альманах. ГБУК РХ «Национальная библиотека им. Н.Г. Доможакова». Абакан, https://arhiv.r-19.ru/upload/iblock/681/681861b62237f51fb5237adddf5e0243.pdf
13. Пахаев С. Я. Штрихи к политической биографии Г. И. Чорос-Гуркина // Возвращение: Сб. докл. и сообщ. науч.-практ. конф. Горно-Алтайск, 1993. С. 138;
14. Сушко А.В. Об этнонимах некоторых народов Сибири и альтернативном варианте их развития в годы революции и гражданской войны.
http://history.nsc.ru/publ/1/html/sushko.htm

15. Тенгереков И.С.(2016). Л.А. Сары-сэп Канзачаков: мысли об автономии, q. “Zvezda Altaya”, 15 апреля.
16. Тугужекова В.Н., Карлов С.В. «Репрессии в Хакасии», 1998 год. https://memorial.krsk.ru/Articles/1998/RepHak/3.htm
17. Хронографа Республики Алтай на 2018 год. Горно-Алтайск, 2017
18. Шекшеев Александр. (2011). Хакасия Непростое рождение республики, «Хакасия” г., 18 мая, http://www.tuva.asia/news/ruregions/3426-hakasiya.html
19. Шиловский М.В. Анучин Василий Иванович, http://oblastnichestvo.lib.tomsk.ru/page.php?id=34

Çap olunub: Nədən Batı Sibir Türk Cümhuriyyəti qurmaq istəyənlər cəzalandırıldılar, Ədalət TAHİRZADƏ. Ərməğanı-70, Tərtib edən: Dilqəm ƏHMƏD, Çapar Yayınları Bakı, 2021, 400 səh.

TÜRKOLOJİ QURULTAYIN İŞTİRAKÇISI VƏ BATI SİBİR TÜRK CÜMHURİYYƏTİ İSTƏYƏN, XAKAS NİKOLAY KATANOV

Özət

1894-cü il dekabrın 5-də Sibirin Askiz qəsəbəsi yaxınlığındakı Saraja kəndində doğulan Nikolay Qavriloviç Katanovun həyat yolunu dayısı, məşhur türkoloq, Kazan Universitetinin professoru, monarxiyapərəstliyilə ad çıxarmış Nikolay Fyodoroviç Katanov müəyyənləşdirir. Onu oğulluğa götürərək, öz familyasını verir, təhsili və təlim-tərbiyəsilə məşğul olur.

Dayısının sayəsində Nikolay əvvəlcə hökümətin Askizdəki açdığı iki sinifli kənd məktəbini bitirir, sonra da təhsilini Krasnoyarskdaki dini seminaryasında davam etdirir. 1916-ci ildə isə çar Rusiyasının ən nüfuzlu ali məktənlərindən olan Xarkovdakı Novo Aleksandrski Kənd Təsərrüfatı İnstitutuna daxil olur.

Birinci Dünya Savaşının gedişatı, Rusiyanın məğlubuyyəti, 1917-ci ilin oktyabrında bolşeviklərin silah gücünə hakimiyyəti ələ alması ölkədəki qarışıqlığı daha

da dərinləşdirir. Hər iki tərəf kütləvi əsgəri səfərbərliyə başlayır. İkinci kursu bitirmiş Nikolay Qriqoryeviç Katanov da Denikin ordusunun 29-cu polkuna daxil edilir. 1919-cu ildə onun xidmət etdiyi ordu birləşmələri Moskva üzərinə hücuma keçir. Vətəndaş müharibəsində bolşeviklərin əlinə keçən Nikolay Qriqoryeviç Katanov1919-21-ci illərdə Qızıl Orduda xidmət edir.

Hərbi xidmətdən azad olub vətəninə donən Nikolay Qriqoryeviç Katanovu Millətlər Nazirliyinin Minisun qəzasındakı İcraiyyə Komitəsində, 1925-ci ilin ortalarından Askizdə tərcümə komissyasında, milli nəşriyyatda, savadsızlığın ləğvi komissiyasında, Askiz rayon İcraiyyə Komitəsində və b. təşkilatlarda işləyir. "Xızıl aal" qəzetiylə əməkdaşlıq edir, ibtidai siniflər üçün birinci "Xakas dilinin qrammatikası" kitabını hazırlayır. Xakasca- rusca lüğətini 1928-ci ildə çap etdirir.

1926-cı ildə Birinci Türkoloji Qurultayında, 1929-cu ildə Moskvada keçirilən Milli Azlıqların Konfransında iştirak edir. 1928-ci ildə Türk xalqları üçün latın qrafikalı əlifba hazırlayan komissiyaya üzv seçilir.

Nikolay Qriqoryeviç Katanovun üzv olduğu gizli təşkilat, "Sibir Türklərinin İttifaqı" KQB-ni çox narahat edir. 1934-cü il aprelin sonlarında onu həbs edirlər. Avqustun 31-də Şərqi Sibir Diyar Xalq Məhkəməsi təşkilatın fəaliyyətində qanundan kənar bir iş görmədiyinə görə Nikolay Qriqoryeviç Katanova bəraət verir. 1934-cü il sentiyabrın 17-dən 1936-cı il fevralın 19-dək mədəni-maarif sahəsindən kənarda işləməli olu. 1936-cı il martın 13-dən Kobalsk Askiz məktəblərində müəllimi işləməsinə icazə verilir.

1937-ci il iyunun 24-də Tomski Dövlət Pedaqoji İnstitunun ədəbiyyat fakültəsinin qiyabi şöbəsinə qəbul olunur. Həmin il oktyabrın 21-də yenidən KQB tərəfindən həbs edilir. Onu "Sibir Türklərinin İttifaqı"nın üzvü olmaqda, Qərbi Sibir Türk Respublikası yaratmağa cəhd göstərməkdə suçlayırlar. 1938-ci il iyulun 13-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası Nikolay Qriqoryeviç Katanovu ən ağır cəzaya, ölüm hökmünə məhkum edir və hökm elə həmin gün də icra olunur.

Açar sözlər: Nikolay Qavriloviç Katanov, Sibir Türklərinin İttifaqı, Qərbi Sibir Türk Respublikası

УЧАСТНИК ТЮРКОЛОГИЧЕСКОГО СЪЕЗДА НИКОЛАЙ КАТАНОВ, ПРЕДСТАВИТЕЛЬ ХАКАССКОГО НАРОДА, ВЫСТУПАЛ С ИНИЦИАТИВОЙ СОЗДАНИЯ ЗАПАДНО-СИБИРСКОЙ ТЮРКСКОЙ РЕСПУБЛИКИ

Abstract

Nikolai Katanov Feodor, the famous tukologist, the lover of monarchy, professor of Kazan University, modified the life of Nikolai Katanov Gavrilov, who was born at the village of Saraj in the proximity to the district of Askiz of Sibir on the 5th December of 1894.

Nikolai Katanov Feodor cared about the education of Nikolai Katanov Gavrilov adoptioning him and giving his surname to him.

Thanks to his uncle Nikolai graduated from the two-classes village school at the Askiz, and then continued his education at the religious seminary at the Krasnoyarsk. He was admitted to the Kharkov Novo Alexander Agricultural Institute, the most authoritative university of Russia.

The progress of I World War, defeat of Russia, the forced occupation of government by Bolsheviks on the October of 1917 deepened the confusion in the country. Both sides begun the military mobilization. N.G.Katanov, the second year graduate was joined to the 29th regiment of Denikin.

N.G.Katanov served to his nation all over his life. That's why he was a member of the organization of Union of Sibir's Turks and had done serious jobs there. This secret union disturbs the KGB and that's why they arrested N.G.Katanov on the end of April of 1934. He was released. But KGB arrested him again on 21 April of 1937. He was accused of associate ship of Union of Sibir's Turks, with the diligence to structure of Western Sibir Republic. He was condemned to the most cruel punishment – with the capital punishment on 1st July of 1938. The sentence was carried out the same day.

Key words: Nikolai Gavrilov Katanov, Union of Sibir's Turks, Western Sibir Republic

НИКОЛАЙ КАТАНОВ: ХАКАС, УЧАСТНИК ПЕРВОГО ТУРКОЛОГИЧЕСКОГО КОНГРЕССА И КТО ХОТЕЛ СОЗДАВАТЬ ЗАПАДНУЮ СИБИРИСКОЕ ГОСУДАРСТВУ

Резюме

Николай Катанов Фёдорович, известный турколог, любитель монархии, профессор Казанского Университета определил жизненный путь Николая Гавриловича Катанова, родившийся в селе Саража возле посёлке Аскиза Сибири, в 5-го декабря 1894-го года.

Он интересовался его воспитанием и учёбой усыновляя и давая свою фамилию.

Благодаря свою дядю Николай сначала закончил двух классную сельскую школу в Аскизе, потом продолжил учёбу свою в религиозном семинарии в Красноярске. В 1916-м году он поступил Харьковский Ново Александровский Сельскохозяйственный Институт, один из самых влиятельных вузов Росии.

Прогресс Первой Мировой Войны, поражение Росии, носильный захват власти большевиков в октябре 1917-го года углубил путаницу в стране. Обе страны начали военную мобилизацию. Н.Г.Катанов, выпускник второго курса тоже включается в состав 29-го полка Деникина.

Н.Г.Катанов всю жизнь обслужил своему народу. Поэтому он стал членом скрытой организации под названием «Союз Сибирских турков» и делает важные дела. Эта скрытая организация беспокоит КГБ и поэтому его арестовывают в конце апреля в 1934-м году. Скоро его освобождают. Но КГБ снова арестовывает его в 21-го октября 1937-го года. Он обвиняется в будучи членом Союза Сибирских Турков, усердием строением Западной Сибирской Республики. Он осуждается с самым жестоким наказанием – приговором смертной казни в 1-го июля 1938-го года. Приговор выполняется тот же день.

Ключевые слова: Николай Гаврилович Катанов, Союз Сибирских Турков, Западное Сибирская Республика

Giriş

Rusiya işğal etdiyi bögənin əhalisini xristianlaşdırmaq və ruslaşdırmaq siyasəti yeridirdi. Zor tətbiqi ilə həyata keçirdiyi bu siyasət o qədər də uğur qazanmırdı. İstəklərini həyata keçirmək üçün müxtəlif planlar hazırladılar. 1846-cı ildə Kazan şəhərində açılmış İlahiyyat Akademiyasını bitirən yüzlərlə məzun qazax çöllərində, şəhər və qəsəbələrdə, Sibirdə durmadan islam dini əleyhinə təbliğat aparır, xirstianlığı təbliğ edirdilər. 1847-ci ildə təşkil edilmiş Tərcüməcilər Komitəsi xiristianlığ haqqında dini kitabları Türk dillərinə tərcümə edib yayırdı. Hökümət, dini qurumlar, ictimai təşkilatlar xiristianlığı qəbil edənlərə köməklik göstərirdilər. Kilisələr bu işdə xüsusi fəallıq göstərirdi. Orenburq və Ural şəhərlərinin Baş yep iskopu Daxili İşlər Nazirinə yazırdı: "Torğay əyalətində din dəyişdirmiş 26 qazax ailənin hər birinə ev tikmələri və əkinçiliyi inkişaf etdirmələri üçün ildə 200 ruble olmaqla 5200 ruble verilməsini rica edirəm" **(Pirmanov A. ve Kapeyeva A, 1997:69-70).**

1871-ci ildə milli məktəblərə nəzarət üçün müfəttişlik quruldu. Bu müfəttişliyə Radlov

rəhbər təyin edildi. Təşkilata tatar məktəb və mədrəsələrini nəzarətdə saxlamaq, Sibirə, Türküstana gedən tatar müəllimlərinin yerli xalqlar arasında işləməsini, Türksoylu uşaqlara dərs verməsini əngəlləmək tapşırılmışdı. Rusiya tatarların qazaxlara yalnız təhsil sahəsində təsirini azaltmaqla kifayətlənmirdi, din, idarəçilik, mətbuat sahəsində işləmələrinə də bir sıra məhdudiyyətlər qoymuşdu. Rus ziyalılarının və missionerlərin təsiri ilə hökümət 1868-ci ildə Orenburq müftülüyünün səlahiyyətlərini məhdudlaşdırdı, qazaxlar müftülüyün idarə aparatından çıxarıldı. 1886-cı ildə verilən qanun isə tatarların Orta Asiyada geniş torpaq sahələri almalarını əngəllədi **(Özdemir E., 2007:46-58).**

Rusiyanın əsarət altına aldığı xalqlardan hökümətə sədaqətli və onun siyasətini həyata keçirmək üçün fədakarlıq edən kadrlar hazırlanırdı. Soyca Türk olan çuvaş Aleksandr Alektorov (1861-1919), xakas Nikolay Fyodroviç Katanov **(**1862-1922), Azərbaycan Türkü Mirzə Kazım bəy (1802–1870; əsl adı Məhəmmədəli Kazımbəy olan alimin adı rusdilli qaynaqlarda Aleksandr Kazımoviç Kazımbek kimi yazılır – Ə.Ş) və b. hökümətin yeritdiyi siyasətə sədaqətlə qulluq edirdilər.

Kırım savaşından (1853-1853) sonra Rusiyada millətçilik düsüncəsinin yüksəlməsiylə panslavyan düşüncəli Rus ziyalılarının Rusiyadaki müsəlman millətlərini ruslaşdırmaq, rus mədəniyyəti içərisində əritmək istəkləri də gücləndi. Nikolay İvanoviç İlminski (1822-1891) bu işdə xüsusilə seçilirdi.**(**http://www.portal-missia.ru/node/531**)**

Çar Rusiyasının müsəlman xalqlarına qarşı apardığı soyuq savaş təhsil sahəsində özünü daha qabarıqlığı ilə göstərirdi. Min ildən çox ənənəsi və tədris metodu olan, şagirdlərə və müəllimlərə böyük sərbəstlik verən mədrəsələrin açılmasını əngəlləyir və durmadan onu tənqid edirdilər. Təbliğata uyan, Avropanın inkişafından gözləri qamaşan yerli ziyalılar da bilməyərək bu təbliğatın fəal iştirakçısına çevrilirdilər (**Yoloğlu Güllü, 2016,**

https://admiral.az/az/mobile/news/22543**).**

Rusiya Təhsil Naziri D.A.Tolstoyun "Vətənimizin sərhədləri daxilində yaşayan xalqların (işğal altına alınan xalqları nəzərdə tutur – **Ə.Ş**.) təhsili, onların ruslaşdırılmasına və qeyri-şərtsiz rus xalqı ilə qaynayıb qarışmasına xidmət etməlidir" - göstərişinə cavab olaraq Nikolay İlminski yazırdı: "İslam dini var olduqca, rus

hərflərinin ərəb hərflərinə qarşı savası çox çətin olacaqdır.”**(Özdemir E., 2007:158).**

Rusiyanın Həştərxandakı qubernatoru İvanovski milli məktəb və mədrəsələrin artımından çox rahatsız olurdu. O, 1882-ci ildə hökümət dariələrinə yazdığı məktubda milli məktəb və mədrəsələrin artmasının qarşısını almaq üçün tədbir görmələrini xahiş edirdi.

Rusiyanın hökümət məmurları Sibir Türklərinin xristianlaşdırılmasının başa çatdığını düşünür, onları ruslaşdırmağa çan atırdılar. Strateqlərin fikrincə Sibir Türklərinin ruslaşdırılmasını əngəlləyən səbəblərdən ən başlıcası tatarların, qazaxların müsəlman olaraq qalmaları idi. Ona görə də əsas güc bu əngəlin aradan qaldırılmasına yönəldilmişdi. Çar Rusiya strateqlərinin başladığı işi xalqlara azadlıq bəxş edəcəyini vəd edən Sovetlər Birliyi sürətlə həyata keçirməyə girişdi.

Sovet hökümətinin 1926-cı ilin fevralında Bakıda təşkil etdiyi Birinci Türkoloji Qurultayın məqsədi də əsarət altında saxladığı türk, müsəlman xalqlarını yüzillərdi istifadə etdiyi əlifbadan uzaqlaşdırmaq və həmin xalqlar arasındakı birliyi dağıtmaq idi.

1. Türkologiya elmində iki Nikolay Katanov

Türkologiyada iki Nikolay Katanovun adı çəkilir. Onlardan birisi Bakıda keçirilən Birinci Türkoloji Qurultaya qatılan Nikolay Qavriloviç Katanov, o birisi də onun dayısı, 19-cu yüzildə Sibir Türklərindən 1200-dən çox folklor mətni toplamış Nikolay Fyodoroviç Katanovdur.

Qavril Leonteviç Tünitsev professor Nikolay Fyodoroviç Katanovun böyük bacısı Mariya ilə evlənmişdir. Bu evlilikdən doğulan üçüncü oğlanı -Nikolay Qavriloviç Katanovu dayısı Nikolay Fyodoroviç Katanov övladlığa götürürmüş və ona adını və soyadını vermişdir. Bakıya Türkoloji Qurultaya gələn də Nikolay Fyodoroviç Katanovun baçısı oğlu Nikolay Qavriloviç Katanov olmuşdur.

1.1. Nikolay Fyodoroviç Katanov

1862-ci il mayın 6-da Sibirdə, Yenisey quberniyasının günüyində, Askiz qəsəbəsinin yaxınlığındakı Turaxov aulunda doğulub. O doğulanda bölgədə yaşayanları xakas deyil, Sibir türkləri adlandırırdılar. Çinlilər bu Türk xalqını

xakaslar adlandırdığından ruslar da onların dililə belə adlandırdılar. Sibir Türkləri Rusiyanın "Parçala! höküm sür!" siyasəti nəticəsində xakas, tuva, şor, oryat, altaylı, teleut və başqa adlarla çağırılmağa başladılar.

Nikolay Fyodoroviç Katanovun ilk adı Pora imiş. Rusiya Sibir torpaqlarını 18-ci yüzillikdə işğal etdikdə burada yaşayan şaman inanclı insanları da zorla xristianlaşdırmışdı. Ona görə də uşağı evdə Popa çağırsalar da rəsmi sənədlərdə kilisədə verilən Nikolay adıyla tanınmışdır. Nikolayın atasını da xakaslar Xızıl deyə çağırsalar da, sənədlərdə adı Fyodr kimi yazılıb. Xızıl Katanov xakasların Saqay, xanımı isə Kaçina tayfasından olub. Bu tayfalar böyük Yenisey çayının qolu Abakanın sağ sahilində, Uzyum çöllərində yaşayırmış.

Popa aristokrat və ziyalı bir ailədə böyüyüb. Belə ki, atası Xızıl Katanov ulus, tayfa başçısının mirzəsi, əmisi Yefim Semyonovic isə çar hökümətinin Askiz qəsəbəsində açdığı məktəbdə müəllim imiş. İlk təhsilini atasından alan Popa sonra əmisinin işlədiyi məktəbdə oxuyub.

1869-1876-cı illərdə Askiz məktəbində oxuyan Nikolay Katanov oranı bitirib həmin ilin avqustunda imtahan verərək Krasnoyarsk

şəhərində hökümətin açdığı klassik oğlan gimnaziyasına daxil olur. 1884-cü ildə gimnaziyanı qızıl medalla bitirərək Sibirdən çox çətinliklərlə imperiyanın başkəndi Peterburqa gəlir.

Sibirdən gəlmiş və Rus olmayan gəncin Sankt Peterburqdakı İmperiya Universitetinin şərq dilləri fakültəsinə qəbul olması çoxlarını heyrətləndirir. Ona dərs deyən N.İ.Veselovski, İ.N.Berezin xakas gəncinə diqqətlərini artırırlar. Məşhur türkoloq V.V.Bartoldla əməkdaşlıq edir. Nikolay Fyodroviç Katanovgimnaziyada oxuduğu illərdə saqay ulusundan-tayfasından topladığı dil və folklor materiallarını müəllimlərinə verir.

Yalnız Rusiyanın deyil, dövrünün ən tanınmış şərqşunaslarından dərs alması, ərəb, fars, türk-tatar dillərini dərindən öyrənməsi və elmi araşdırmaları Nikolay Fyodroviç Katanovu bir alim kimi tanıdır. 1888-ci ildə universiteti bitirir, 1889-cu ildə isə Sankt Peterburq İmperiya Elmlər Akademiyası və Rusiya İmperiya Coğrafiya Cəmiyyəti Batı Sibirdə, Doğu Monqolustanda, Doğu Türküstanda, Cunqariyada yaşayan xalqların dillərinin, dialektlərinin və etnorqafiyasının öyrənilməsi üçün ekspedisiyaya

göndərilir. Onun getdiyi yerlərdə yaşayan əhalinin əksəriyyəti Türk xalqları idi. Ruslar isə onların hamısını tatar adlandırırdılar.

Üç il çəkən ekispedisiyadan zəngin materiallarla geri dönən Nikolay Fyodroviç Katanov1893-cü ilin sonlarında tanınmış şərqşünas İ.N.Berezin rəhbərlik etdiyi professor – müəllim heyəti qarşısında imtahan verərək Türk-tatar dilləri üzrə magistr elmi dərəcəsi alır. Həmin il də Nikolay Fyodroviç Katanovu Kazan Universitetinin Türk-tatar dilləri kafedrasına ekstraordinar professor təyin edirlər. Beləcə Nikolay Fyodroviç KatanovAvropa tipli ali məktəblərdə yerli Sibir xalqlarından ilk professor olur. 1894-cü ildə isə onu Rusiya Coğrafiya Cəmiyyətinə həqiqi üzv seçirlər.

Nikolay Fyodroviç KatanovKazan Universitetində dərs deməklə kifayətlənmir, elmi axtarışlarını davam etdirir, kadr hazırlığına diqqəti artırır. 1896-98-ci illərdə Ufa qubreniyasını dolaşaraq bölgə əhalisindən zəngin dialektoloji, etnoqrafik və folklor materialları toplayır. Topladığı materiallar əsasında "Başqırd dili" adlı əsərini yazır. Nikolay Fyodroviç Katanovyüzillər boyu Ərəb əlifbasından istifadə edən Başqırdlar üçün Kiril qrafikası əsasında

“Başqırd dilinin əlifbası” kitabını yazır. Onu bu işə məcbur edən Ərəb əlifbasında sait səslərin yazılmaması idi. Sait səslər yazılmadığına görə də Türk dillərində Ərəb əlifbasıyla yazılmış mətnləri doğru-düzgün oxumaq çətinlik törədirdi.

Elmi araşdırmalarına və ekspedisyalarda fəal iştirakına görə 1898-ci ildə onu Kazan Universitetinin nəzdindəki Arxeologiya, Tarix və Etnoqrafiya Cəmiyyətinə rəhbər və Cəmiyyətin “Xəbərlər” adlı elmi jurnalına redaktor seçirlər. 1899-cu ilin martında isə “Deyatel” jurnalı üçüncü sayının üzqabığında Nikolay Fyodroviç Katanovun fotoportretini verir.

Nikolay Fyodroviç Katanov Batı Sibir Türklərindən topladığı materialları Türk dillərində danışan xalqların dil və dialektlərilə müqaisə edərək ortaya sanballı bir əsər qoyur. O, 1889-cu ilin mart ayından avqustuna kimi Tuvada ekispedisyada olur. Altı ayda yerli xalqlardan 1410 mətn toplayır ki, bunun da 1200-ü folklor mətnləri olur. Həmin mətnlər bu gün də dünya Türkologiyasının qızıl fondu sayılır. Topladığı mətnlər əsasında “Uronxoy torpağının oçerkləri”ni, “Uronxoy dilinin başqa Türk kökənli qohum dillərlə müqaisəli öyrənilməsi təcrübəsi” əsərlərini yazır. Sonuncu əsərə görə

Peterburq Universitetinin elmi şurası Nikolay Katanova elmlər doktoru adı verir. Onun topladığı mətnlər sonradan Radlovun "Türk tayfalarının xalq ədəbiyyatı nümunələri" çoxcilidliyinin doqquzuncu cildinə daxil edilir.

16 il Arxeologiya, Tarix və Etnoqrafiya Cəmiyyətinə rəhbər vəzifəsini şərəflə daşıyan Nikolay Katanov ictimai işlərdə də fəallığı ilə seçilir. Rus cəmiyyətini sərxoşluğun məhvə apardığını görən böyük alim Alkoqolizmə Qarşı Mübarizə Cəmiyyətinin fəallarından birinə çevrilir. Onun "Deyatel" jurnalının səhifələrində sərxoşluq, içki düşgünlüyü əleyninə yazdığı məqalələr bir doktorluq dissertasiyası üçün mövzu ola bilər.

Elmdə böyük uğurlar qazanan Nikolay Fyodroviç Katanovu Belçikanın Leven, Avstriya-Macarıstanın Budapeşt, Finlandiyanın Qelsinqfors şəhərlərindəki elmi cəmiyyətlərə üzv seçirlər. Rusiyadaki bir sıra elmi cəmiyyətlərə də üzv seçilən Nikolay Fyodroviç Katanovqatı monarxiyapərəstliyinə, antisosialistliyinə görə müasirlərinin kəskin tənqidinə də məruz qalır. O uzun zaman Kazanda Türk-tatar dillərində çap olunan qəzet-jurnalları, kitabları senzor edir. Hökümətin ona inamı o qədər güclü olmuşdur ki,

hətta bəzən Qafqazda çap olunmalı kitabları, qəzet-jurnalları da rəy üçün ona göndəriblər.

Ata-babaları şaman inanclı olan Nikolay Fyodroviç Katanovfədakar pravoslav missioneri kimi də tanınmışdır. Hətta "Pravoslav müsahib" jurnalının "Dini xülasə" adlı əlavəsinə redaktorluq etməyi də ona tapşırırlar.

Monarxiyapərəstlikdə, dindarlıqda olduğu kimi o elmi-pedaqoji fəaliyyətdə də olduqca sərt mövqedə dayanmışdır. Buna görə də Kazan Universitetinin professor – müəllim heyəti 1907-ci ildə müdafiə etmədən ona ikinci dəfə elmər doktoru adı verir. Nikolay Fyodroviç Katanovun tələbələri arasından Sergey Yefimoviç Malov, Zəki Valid Toğan kimi böyük türkoloqlar yetişir.

Nikolay Fyodroviç Katanov1911-ci ildən Kazan Dini Akademiyasında işləməyə başlayır. 1917-ci ildə ölkədə baş verən dəyişikliklər, xüsusən 300 illik Romanovlar sülaləsinin hakimiyyətinə son qoyulması, Romanovların son nümayəndəsi II Nikolayın çar taxtından endirilməsi, onun ardınca bolşeviklərin etdiyi hərbi çevriliş ona sarsıdıcı təsir edir. O pedaqoji fəaliyyətini davam etdirməyə çalışsa da elmi işlə ən məhsuldar məşğul olmalı bir vaxtında bədbinliyə qapılır. Beləcə sağlamlığı da pozulur

və 1922-ci il martın 9-da Kazan şəhərində vəfat edir.

Böyük alim, zəhətkeş türkoloq ideoloji baxışlarına görə cəmiyyətdə artıq adama çevrilir. Yaşamını təmin etmək məqsədilə kitablarını və arxivini satır. Onun arxivi alınaraq İstanbula gətirilir. Bununla da Nikolay Fyodroviç Katanovun arxivi həm məhv olmaqdan qurtarılır, həm də dünya türkoloqlarının istifadəsinə verilmiş olur (http://ali-shamil.tr.gg/Nikolay-Katanov.htm,www.trtazerbaycan.com).

1.2. **Nikolay Qaviloviç Katanov**

1894-cü il dekabrın 5-də Sibirdə, keçmiş Yenisey quberniyasının güneyində, Askiz qəsəbəsinin yaxınlığındakı Sarajak (Saqay) ulusunda doğulub. Kənd bölgədəki Türk tayfalarından birinin – Saqay tayfasının adını daşıyırdı. O, əvvəlcə bölgədə mərkəzi qəsəbə sayılan Askizdəki hökümətin yerlilərdən hökümətə xidmət edəcək kadrlar hazırlamaq üçün açdığı iki sinifli kənd məktəbində oxuyub. Sonra təhsilini Krasnoyarskdaki dini seminariyada davam etdirib. 1916-ci ildə isə çar

Rusiyasının ən nüfuzlu ali məktənlərindən olan Xarkovdakı Novo Aleksandrski Kənd Təsərrüfatı İnstitutuna daxil olur **(Килижекова, 2009,**http://www.khakasia.com/forum/**index.php?threads/Николай-Гаврилович-Катанов.276).**

Birinci Dünya Savaşının gedişatı, savaşda Rusiyanın məğlubuyyəti, 1917-ci ilin fevralında İkinci Nikolayın hakimiyyətdən uzaqlaşdırılması, Kerenskinin başçılığı ilə Müvəqqəti Hökümət qurulması və nəhayət 1917-ci il oktyabrın 25-də bolşeviklərin silah gücünə hakimiyyəti ələ alması ölkədəki qarışıqlığı daha da dərinləşdirir. Ölkəni vətəndaş müharibəsi bürüyür. Ağqvardiyaçılar adlandırılan, general Anton Denikin ordusunu gücləndirmək üçün Xarkov Kənd Təsərrüfatı İnstitunun tələbələrini də səfərbərliyə alır. İkinci kursu bitirmiş Nikolay Qriqoryeviç Katanov 1919-cu ilin martında 29-cu polka daxil edilir. 1919-cu ildə Nikolay Qriqoryeviç Katanovun xidmət etdiyi ordu birləşmələri bolşeviklərin üzərinə Moskva hücuma keçir. Lakin bu hücum uğursuz olur.

Nikolay Qriqoryeviç Katanov yazdığı özkeçmişində 1919-cu ilin mayında gedən döyüşlərdə bolşeviklərin tərəfinə keçdiyini və

1919-1921-ci illərdə Qızıl Orduda xidmət eddiyini yazır. 1921-ci ildə hərbi xidmətdən azad olub vətəninə gələn Nikolay Qriqoryeviç Katanovu Millətlər Nazirliyinin Minisun qəzasındakı İcraiyyə Komitəsinə bölmə müdiri təyin edirlər. Sovetlərin xalqlara azadlıq, kəndlilərə torpaq verəcəyinə, sülh, əmin amanlıq yaradacağına ürəkdən inanan gənc var gücü ilə yeni hakimiyyətin möhkəmlənməsinə çalışır. 1923-cü ilin sonunda yaradılan Xakas Milli Qəzası 1925-ci ildə milli mahala çevrilir. Bütün bunlar gənc Nikolay Qriqoryeviç Katanovu ruhlandırır. Sovet əsgər və zabitlərinin özbaşınalığına, xalqına tutduğu divana göz yumur.

1925-ci ilin ortalarında onu qəza mərkəzi olan Askizdə tərcümə komissyasında işləməyə gətirirlər. Az zamanda işgüzarlığı, təşəbbüskarlığı ilə yalnız qəzada deyil, qəzadan uzaqlarda da diqqəti cəlb edir. 1927-ci ildən ana dilində nəşrə başlayan "Lenin çolu (yolu-**Ə.Ş.**)" qəzetində müntəzəm məqalələr yazmağa başlayır. Milli məsələyə daha çox diqqət yetirir, Sovetlərin milli azlıqlara qayğı adı altında türkləri parçaladığını, ruslaşdırma siyasəti yeritdiyini görür.

O, Xakasiyadakı milli nəşriyyatda ədəbi redaktor işləməklə yanaşı, savadsızlığın ləğv edilməsi kurslarında dərs deyir, "Xızıl aal" qəzetiylə əməkdaşlıq edir, ibtidai siniflər üçün birinci "Xakas dilinin qrammatikası" kitabını hazırlayır. Onun xakasca- rusca lüğəti 1928-ci ildə ilk dəfə çap olunur. Həmin il Türk xalqları üçün latın qrafikalı əlifba hazırlayan komissiyaya üzv seçilir.

Nikolay Qriqoryeviç Katanov 1929-cu ildə Moskvada keçirilən Milli Azlıqların Konfransında iştirak edir. 1930-cu ildə isə onu yenə də Moskvaya SSRİ Xalqlarının Mərkəzi Nəşriyyatında milli məktəblər üçün dərsliklər hazırlayan redaktorların kursuna göndərirlər. Moskvadakı çıxışları və söhbətləri xüsusi xidmət orqanlarının diqqətindən yayınmır. Vətənə döndükdən sonra onu KQB istintaqa cəlb edir. İstintaqdakı hədə-qorxudan sonra onu kənd məktəbinə müəllim işləməyə göndərirlər.

1930-cu ilin oktyabrında Xakas Milli Mahalı Xakas Muxtar Vilayətinə çevrilir. Kadr çatışmazlığına görə onu Askiz rayon İcraiyyə Komitəsində təlimatçı vəzifəsinə gətirmək məcburiyyətində qalırlar. Nikolay Qriqoryeviç Katanov yaranmış vəziyyətdən istifadə edərək

Askiz kəndlərində savadsızlığı aradan qaldırmaq üçün xüsusi plan hazırlayır. 1931-ci ilin sentyabrında onu yenidən məktəbə xakas dili müəllimi göndərirlər. Lakin KQB onun vilayət mərkəzində qalması, milli kadrlarla tez-tez görüşüb müzakirələr aparmasıyla razılaşmır. 1932-ci ildə Nikolay Qriqoryeviç Katanovu bölgənin ən ucqar kəndlərindən olan Ustsos kəndinə müəllim göndərirlər.

Nikolay Qriqoryeviç Katanov harada işləməsindən asılı olmayaraq milli fəaliyyətindən qalmır. Nikolay Qriqoryeviç Katanov "Sibir Türklərinin İttifaqı" adlı gizli təşkilatının üzv olur. Lakin bilmir ki, təşkilatı KQB daimi nəzarətində saxlayır. 1934-cü il aprelin sonlarında Nikolay Qriqoryeviç Katanovu həbs edirlər (http://ali-shamil.tr.gg/Qeorqi-%26%23-304%3Bt%26%23305%3Bqin.htm,http://www.khakasia.com/forum/index.php?threads/Георгий-Игнатьевич-Итыгин.250/). Həmin il avqustun 31-də Şərqi Sibir Diyar Xalq Məhkəməsinin hakimi "Sibir Türklərinin İttifaqı"nın rəhbərlərini həbs etsə də onu fəaliyyətində qanundan kənar bir iş olmadığına görə Nikolay Qriqoryeviç Katanova bəraət verir

(http://www.memorial.krsk.ru/Articles/Askiz/06.htm).

1934-cü il sentyabrın 17-dən 1936-cı il fevralın 19-dək mədəni-maarif sahəsində işləməsinə icazə verilmir. 1936-cı il martın 13-dən mayın 1-dək Kobalsk məktəbində müəllimlik edir. Sonra Askizə qayıdaraq rus dili və ədəbiyyatı müəllimi işləməyə başlayır.

1937-ci il iyunun 24-də Tomski Dövlət Pedaqoji İnstitunun ədəbiyyat fakültəsinin qiyabi şöbəsinə qəbul olunan coşğun vətənpərvəri həmin ilin oktyabrın 21-də yenidən KQB həbs edir və 1938-ci il iyulun 13-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası onu ən ağır cəzaya, ölüm hökmünə məhkum edir. Hökm elə həmin gün də icra olunur (http://www.-memorial.krsk.ru/Articles/RepHak/3.htm,
Гладышевский Алексей, 2008, http://plim-pa.livejournal.com/92830.html)

1959-cu ildə Nikolay Katanova bəraət verilsə də, əslində bu formal xarakter daşıyır. Onun əsərləri çap olunmur, fəaliyyətinin öyrənilməsinə və təbliğinə icazə verilmir. Son illər onun haqqında araşdırmalar aparılsa da, gənclik bununla razılaşmır. Onlar Nikolay Qriqoryeviç Katanovun ideyalarının

gerçəkləşməsini istəyirlər.(http://ali-shamil.tr.gg/Nikolay-Qavrilovi%E7-Katanov.htm,www.trtazerbaycan.com)

2. Nikolay Qavriloviç Katanov və Birinci Türkoloji Qurultay

Çar Rusiyasının ruslaşdırma siyasətini Sovet hökuməti sürətləndirdi. Köhnədən qalma hər şeyi məhv edib yenisini yaradacaqlarını vəd edən bolşeviklər əsarət altında saxladıqları xalqların on minlərlə ziyalısını da məhv etmişdilər. Ona görə də belə hesab edirdilər ki, müqavimət göstərəcək, xalqı ayaqlandıra biləcək qüvvə qalmayıb. Savadsızlığı aradan qaldırma adı altında minillik ənənəsi olan mədrəsələri ləğv etdilər. Xristianlaşdırmanın qarşısını sədd kimi kəsən mədrəsələri ləğv etdikdən sonra müsəlman xalqlarını birləşdirən, onların mədəni birliyinə şərait yaradan Ərəb əlifbasını aradan qaldırmağa girişdilər. Əsarət altında olan Türk-müsəlman xalqlarının bəzi öndərləri də Rusiya strateqlərinin pərdəarxası siyasətindən xəbərsiz olduqlarından onların dəstəkçisinə çevrildilər.

Dörd illik hazırlıqdan, aparılan təşkilati işdən və təbliğatdan sonra 1926-cı ilin fevralında

Bakıda Türkoloji qurultay öz işinə başladı. Qurultayın öncə Moskva və ya Leninqradda keçirilməsi planlaşdırılırdı. Lakin hökümət rəhbərləri planlı şəkildə qurultayı Bakıda keçirdilər. Bununla onu demək istədilər ki, baxın əlifbanın dəyişdirilməsini Rusiya hökümәti deyil Türk-müsəlman xalqlarının özləri istəyir.

Rusiya strateqlərinin məqsədini anlayan təkcə Türkiyədən gəlmiş alimlər deyildi. Azərbaycanın, Qazaxıstanın, Tatarıstanın və b. Türk xalqlarının genişgünyagörüşlü aydınları da bunu görür və ona qarşı müqavimət göstərirdilər. Bolşeviklərin assimlə siyasətinə qarşı duranlar yalnız milli aydınlar deyildi. Hətta milli hökümətlərin bəzi rəhbər işçiləri də bundan rahatsız idilər. Özləri açıq və sərt müqavimət göstərə bilməsələr də ziyalıları, alimlər qətyyətli olmağa həvəsləndirirdilər. Bu haqqda İsmayil Hikmət Ertaylan belə yazır: “Henüz kurultay başlamamıştı. Turkistan, Dagıstan, Kırım, Kazan mumessilleri gelmişlerdi. O zaman maarif komiseri olan zat buyük bir telaşla keyfiyeti anlattt: Ruslar Türklüğe en büyük darbeyi bu lisan meselesinde indirecekler. Bizi Üniversite tedrisatından, Turk dili ve edebiyatından mahrum edecekler. Rus dilinin esareti altında kalacağız!

Bir çare, bir çare bulun! Türk dilini müdafaa edin! diye tazallumde bulunmuştu. Kendisine bizzat benim ve arkadaşlarımın bu hususta kurultayda mudafaaya kalkışmamız komunistlerin ekmeğine yağ sürer, bizim Turkiye turkçesini mudafaa ettiğimizi, onların bu Türkçe hakkında bir soyleyeçekleri olmadığını, fakat kendilerinin talim ve tedrisine müsaade ettikleri Türkçenin Türkiye turkçesi degil, Azerbaycan, çağatay, Kırtım Türkçeleri olduğunu ileri sürerek hak kazanırlar. Bırakımz, Türk ilim ve edebi dilinin bir dil olduğunu ve butun Türk ülkelerinde bu dille konuşulup, bu dille yazıldığnıı kendi alimlerine, Rus profesorlerine soyletelim. O zaman itiraza imkanları kalmaz! demiştim. Oyle de yaptık ..." **(Ertaylan, 1958:91)**

Sovet strateqləri öncədən qurultaya nə qədər ciddi hazırlaşsalar da, oraya göndəriləcək nümayəndələri seçib onlarla iş aparsalar da, yenə də planlaşdırdıqları kimi olmurdu. Buna görə də Qurultayın gedişi zamanı çox məharətli manevrlər edir, istəklərinin reallaşması üçün bəzən geriçəkilmələr də edirdilər. Sibirdən Bakıdakı Birinci Türkoloji Qurultaya göndərilən nümayəndələrin heç biri müsəlman deyildi. Ona görə də Moskva elə fikirləşirdi ki, onlar Ərəb

əlifbasının qatı əleyhdarı kimi çıxış edəcək, kiril əlifbasına keçməyin tərəfdarı olduqlarını bildirəcəklər.

Lakin hadisələr öncədən planlaşdırıldığı kimi getmirdi. Hətta Sibir Türkləri belə əlifba məsələsindən çox Sovet hökümətinin azsaylı xalqların maariflənməsinə qoyacağı xərclə maraqlanırdılar. Qurultaya böyük ümidlər bəsləyən, orada qəbul olunacaq qanunların reallaşacağına inanan Nikolay Qriqoryeviç Katanov bir çox çətinliklərlə üzləşsə də Bakıya gələ bilir.

İlk iclaslarda iştirak edə bilməyən Nikolay Qriqoryeviç Katanov 1926-cı il martın 6-da Səmədağa Ağamalıoğlunun sədrlik etdiyi iclasda xakas dilində çıxış edərkən öncə gəldiyi yer haqqında "Yoldaşlar, mən Birinci Ümumittifaq Türkoloji Qurultayını uzaq Sibirdən, keçmiş Yenisey quberniyasının güneyində yaşayan xakasların adından salamlamaq üçün gəlmişəm" dedikdən sonra çıxışını davam etdirir və sonda üzləşdikləri problemi belə dilə gətirir: "1923-cü ildən etibarən, Xakas Dairə Xalq Maarif Şöbəsi nəzdində xakas dilində yazının yaradılması üçün komissiya formalaşdırılıb. Bu komissiya birinci pillə məktəblərin ilk sinifləri üçün materiallar

tərtib edib. Materiallar hələ 1924-cü ilin noyabrında Xalq Maarif Komissarlığının Milli Azlıqlar Şurasına göndərilsə də, Türk şrifti olmadığı üçün hələ də çap edilməyib. Odur ki, məni qurultaya göndərərkən xahiş etdilər ki, bu qurultay bizim xakaslar üçün xüsusi olaraq burada ümumtürk şriftlər işləyib hazırlasınlar və bizim materialların çapı mümkün olsun" (**1926-cı il, 2006:330**).

Nikolay Qriqoryeviç Katanov Birinci Türkoloji Qurultaydan ruh yüksəkliyi ilə qayıdır. Xüsusən qonşuluqdakı Altay bölgəsindən gəlmiş Aleksey Sabaşkinin qurultay tribunasından "mən Türkəm" deyə hayqırması onu çox təsirləndirir. Vətənə döndükdən sonra tamam başqa bir yöndə çalışır (**1926-cı il, 2006:90).**

3.**Qərbi Sibir Türk Respublikası yaratmaq istəyənlərin taleyi**

Nikolay Qriqoryeviç Katanov vətənə döndükdən sonra ana dilində dərsliklər yaradılmasına, məktəb şəbəkəsinin genişləndirilməsinə çalışır. Həmin illərdə Sibir Türklərinin Saqay və Kaçin tayfalarının ləhcəsi əsasında bir ədəbi dil formalaşdırılır və Xakas dili

adlandırılır. Müasir araşdırıcılar dilləri təsnifatlandıranda Xakas dilini də Türk dillərinin Doğu Hun qolunun Uyğur qrupuna daxil edirlər və mənşəcə Qırğız dilinə daha yaxın olduğunu, 8 uzun, 9 qısa səslisi və 24 səssizi olan bu dildə saitlərin qoşalaşması səciyyəvi olduğunu yazırlar.

Bakıda keçirilən Birinici Türkoloji Qurultayın təsiri ilə Nikolay Qriqoryeviç Katanova milli məsələyə daha çox önəm verir. Harada işləməsindən asılı olmayaraq xalqının ana dilində təhsil almasına, müstəqil ictimai-siyasi qurumunun olmasına, müstəqil inzibati ərazi vahidlərinin yaradılmasına can atır. Düşünür ki, nədən Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan Respubilikaları, Dağıstan, Tatarıstan, Başqırdıstan və b. muxtar respublikalar olduğu halda Sibir Türklərinin milli inzibati respublikası olmasın?!

1925-ci ilin martında keçirilən Xakas Milli Mahal Xalq Deputatlar Sovetinin II qurultayındakı İcraiyyə Komitəsinin sədri Qeorqi İtıqin Qərbi Sibirdə yaşayan və Türkcə danışan Xakaslar, Oyratlar, Şorlar üçün bir inzibati vahid Qərbi Sibir Türk Respublikası yaradılmasının vacibliyindən söz açır. Lakin

Moskva onların fikrilə razılaşmır. İ.V.Stalini rəsmi toplantılarda belə bir təkliflə çıxış edən yerli partiya-sovet işçilərini kəskin tənqid edir. Sibir Türklərinin öndərləri isə arzularını reallaşdırmaqdan əl götürmək istəmirlər. Bunun üçün "Sibir Türklərinin İttifaqı" adlı təşkilat yaradırlar (***Шекшеев А., 2011,*** http://www.tuva.asia/news/ruregions/3426-hakasiya.html, ***Шекшеев А., 2011:48-57, № 1***).

Bu təşkilatın qarşıya qoyduğu məqsəd nəinki yerli KQB-ni, hətta Moskvanı da çox narahat edir. Lakin mərkəzin hədələri Sibir Türklərinin öndərlərini yollarından döndərə bilmir. Xakas Qeorqi İtıqini, şor Türklərindən Y.K.Telqerekov, oyrat Türkü (altaylı) Mixaylov-Oçi, rəssam Qriqori Çoros-Qurkinvə başqaları bu təşkilatın fəallarından olur. 1928-ci il dekabrın 5-də Qeorqi İtıqin Novosibirskdə şübhəli şəkildə ölsə də təşkilat öz fəaliyyətini davam etdirir **(Şamil, 2012,** http://ali-shamil.tr.gg/Qriqori-%C7oros_Qurkin.htm**).** Belə olduqda Moskva sərt cəza tədbirlərinə əl atır. 1934-cü il aprelin sonlarında Nikolay Qriqoryeviç Katanov və onun əqidə dostlarından, 40 nəfərə yaxını həbs edilir. Həmin il avqustun 31-də Şərqi Sibir Diyar Xalq Məhkəməsi yaşları 23-33 arasında olan milli

fəallardan Prokopi Semenoviç Borqoyakova, Terentiy İvanoviç Borqoyakova, Qeorqiy Pavloviç Bıtotova, Vasiliy İvanoviç Sunçqaşyevə, Mixail Pavloviç Topoyevə, Qeorqiy Qeorqiyeviç Çebodayevə, Yakov Yevqrafoviç Çebodayevə və b. 2-5 il arasında həbs cəzası verir və K.K.Samrinin, B.A.Kobyakovun, T.N.Baltıjakovun, A.M.Topanovun, Nikolay Qriqoryeviç Katanovun əməlində cinatət tərkibli bir iş olmadığına görə onları həbsdən azad edir (**Политические...** http://www.memorial.krsk.ru/Articles/Askiz/06.htm).

Nikolay Qriqoryeviç Katanov iki ilə yaxın təzyiq və təqiblər altında yaşadıqdan sonra yenidən toparlanır. Hətta oun müəllim işləməsinə və ali məktəbə qəbul olunmasına icazə də verirlər. Lakin həbs edilmiş İ.İ.Abdininin, Q.P.Bitotovun, K.K.Samrının, K.A.Çuljanovun, İ.V.Toqdınının və başqalarının verdikləri izahatlar KGB-nin Xakasiya Vilayət İdarəsində işləyən kapitan Xamariyə Nikolay Qriqoryeviç Katanov haqqında П-11009 saylı cinayət işi açmasına imkan verir. Az sonra isə, yəni 1937-ci il oktyabrın 21-də onu həbs edərək yenidən istintaqa başlayırlar. İstintaq o qədər də uzun

sürmür. Çünki təşkilatın həbs edilmiş üzvləri fəaliyyətləri haqqında KQB müstəntiqlərinə lazım olduğundan da çox məlumat verməkməcburiyyətində qalmışdılar.

SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası 1938-ci il iyulun 13-də Nikolay Qriqoryeviç Katanovu ən ağır cəzaya, ölüm hökmünə məhkum edir və hökm elə həmin gün də icra olunur.

Xakasiyalı araşdırıcıların bəziləri isə Nikolay Qriqoryeviç Katanovun 1939-cu ildə həbsxanada (**Политические...** http://www.memorial.krsk.ru/Articles/Askiz/06.htm).öldüyünü yazır.

Sonuc

1926-cı il 26 fevral-5 mart tarixlərində Bakıda keçiriləcək Birinci Türkoloji Qurultaya Sovet rəhbərləri ciddi hazırlaşsa da onların içərisində böyük bir narahatlıq da vardı. Qorxurdular ki, Türkiyədən gələn nümayəndələrin sayı çox olsa onlar məntiqli və elmi çıxışları ilə nümayəndələrə təsir göstərərlər. Odur ki, qurultaya iki ay qalmış Türkiyənin Bakı konsulluğunun guya casusluqla məşğul olduğu haqqında cinayət işi başladılar. ZSFSR Birləşmiş

Dövlət Siyasi İdarəsi («OQPU»/«ZakÇeka»)9 dekabr 1925-də bir neçə nəfəri həbs etdi və bununla da Moskva Türkiyə diplomatlarını gərginlik altında saxladı… **(Tahirzadə Ə., 2005: 29 yanvar).** Beləcə Türkiyədən gələn nümayəndələrin sayı minumum həddə çatdırıldı. Sibirdən gəlmiş müsəlman olmayan nümayəndələr isə Ərəb əlifbasının əleyhinə çıxış etməkdənsə öz xalqlarının problemlərini dilə gətirməyə üstünlük verdilər.

Birinci Türkoloji Qurultayın stenoqrammasında Əli Yusifzadənin (1900-1938) adı yoxdur. 1926-cı il martın 8-də Azərbaycan Fovqəladə Komissiyasının (KQB) əməkdaşı Vasin belə bir əmr hazırlayır: "Mən Az.ÇK-nın gizli siyasi şöbəsinin müvəkkili Zak.ÇK-dan alınan qərara görə qərara aldım: ...vətəndaş Əhməd Hacınski, Əli Yusifzadə, Dadaş Həsənov əvvəlcədən evlərində axtarış aparılmaqla həbs edilsinlər və Az.ÇK-nın islah evinə salınsınlar". Qərarda göstərilir ki, onu dəyişmək olmaz. **(Qəhramanlı N., 2010:145).** Buradan belə anlaşılır ki, həmin dövrdə Azərbaycanda rəhbər vəzifədə işləyənlər də, Dövlət Siyası İdarəsinin (sonralar bu təşkilat KQB kimi tanındı-**Ə.Ş**.)

rəhbərləri də bu həbsi durdura, qərarı dəyişə bilməzdi.

Həbsxana sənədindən aydın olur ki, yuxarıda adı çəkilən üç nəfər martın 11-də Az.ÇK-nın islah evinə gətirilir. Maddi sübut kimi Əli Yusifzadənin evindən bir qovluq da sənəd götürülür. Vasinin Əli Yusifzadəyə aşağıdakı sualları verir:

1. Siz nə vaxt, neçə nəfərə və hansı əsasla Türkoloji Qurultay keçirilən salona daxil olmağa sənəd veribsiniz?
2. Siz Əhməd Hacınski və Dadaş Həsənova qurultayda iştirak etmək üçün bilet verib sinizmi?
3. Siz xaricdən dəvət olunmuş alimlərin siyahısını haradan almısınız? **(Qəhramanlı N., 2010:147).**

Suallar xüsusi xidmət orqanlarının hansı məsələdə həssas olduğuna aydınlıq gətirir.

Birinci Türkoloji Qurultayın katibi olan Əli Yusifzadə 8 dil bilirdi, 1920-1923-cü illərdə Parisdə Ali Siyasi Elmlər Akademiyasında təhsil almışdı. Dövlət Siyasi İdarəsi 6 fevral-20 may 1924-cü ildə onu həbs edərək istintaq apardıqdan sonra dilindən iltizam kağızı alib həbsdən buraxıbmış. Lakin 1927-ci il fevralın 28-dək istintaqı başa çatdırıb 10 il həbs cəzası verir və

Şimal Buzlu okeandakı Solovki adalarına göndərirlər. Ə.yusifzadə Solovki adalarında SSRİ-də ilk dəfə siyasi məhbuslarının aclıq aksiyasının təşkilatçılarından olub. 1935-ci ilin yanvarında onu həbsdən azad etsələr də Azərbaycana dönməsinə icazə verməyib Özbəkistana göndərirlər. 1937-ci ildə Daşkənddə həbs edib, həmin ilin avqustun 18-də orada güllələyirlər **(Şamil Əli, 2014:190).**

Qurultaydan sonra həbs olunan, istintaqa cəlb edilən təkcə Əli Yusifzadə Əhməd Hacınski və Dadaş Həsənov olmamışdır. Türkiyədən Azərbaycan ali məktəblərində dərs deməyə dəvət edilmiş İsmayıl Hikmət, Kırım tatalarından Bəkir Çobanzadə, Asan Sabri Ayvazov, qazax Ahmet Baytursunov və b. da KQB tərəfindən din-dirilmişdir.

Biz hələlik Azərbaycanda yaşayan, Azərbaycan arxivlərində olan sənədlərin bir qismi ilə tanış ola bilmişik. SSRİ-nin başqa bölgələrində yaşayan qurultay iştirakçılarının hamısının istintaq materialları ilə tanış deyilik. Bildiyimiz odur ki, onlardan bir qrupu quraltaydan az sonra istintaqa cəlb olunub həbs edilərək Solovki adalarına gönrərilmişdir.

Qurultayı Sovet məmurları istədikləri kimi idarə edib, arzuladıqları qərarları qəbul etdirsələr də nəticə onların gözlədiyi kimi olmadı. Ərəb əlifbası ləğv edilib əvəzində Türk xalqlarının bir –birinin yazısını oxumasına əngəl olan əlifbalar qəbul edildi. Buna baxmayaraq toplantı milli düşüncəli insanlar arasında bir körpü rolu oynadı. Onların bir-bir ilə görüşüb fikir mübadiləsi etmələrinə şərait yaratdı. Nəticədə Birinci Türkoloji Qurulyatın iştirakcılarının bir qismi Vahid Türk Tatar Dövləti və Qərbi Sibir Türk Respublikası yaratmağa çalışdılar. Sovet hökuməti bu istəkdə olanların hamısını güllələsə də onların ideyaları yaşadı.

Qaynaqlar

1. ERTAYLAN İsmail Hikmet.(1958). Azerbaycan'da Dört Buçuk Yıl, "Dergi" dergisi (Münxen), sayı 13. http://www.trtazerbaycan.com/trtworld/az/newsDetail.aspx?HaberKodu=5a6b4ff5-542b-471b-bab1-f25ed4e510d4
2. QƏHRƏMANLI Nazif. (2010). Vətən və istiqlal aşiqi Əli Yusif, "Avropa" nəşriyyatı, Bakı.

3. ÖZDEMİR Emin. (2007). 20. yüzyilin baslarinda Kazakistan'da fikir hareketleri, (Doktora tezi), Gazi Üniversitesi Sosyalb İlimler Enstitüsü Tarih Anabilim Dali Türkiye Cumhuriyeti Tarihi Bilim Dali, Ankara.
4. PİRMANOV Adilcan, KAPEYEVA Aycan. (1997). Kazak inteligetsiyası, Almatı, 68.
5. ŞAMİL Əli.(2012). Türk Dünyasının Məşhurları-02:Nikolay Fyodroviç Katanov.http://ali-shamil.tr.gg/Nikolay-Katanov.htm,www.trtazerbaycan.comhttp://www.trtrussian.com/trtworld/az/newsDetail.aspx?HaberKodu=248a84d0-bcdc-4949-b1aa-0973da80b3da
6. ŞAMİL Əli.(2012). Türk Dünyasının Məşhurları-45:Nikolay Qavriloviç Katanov.http://ali-shamil.tr.gg/Nikolay-Qavrilovi%E7-Katanov.htm,www.trtazerbaycan.com http://www.trt.net.tr/trtworld/az/newsDetail.aspx?HaberKodu=d5d9765e-c127-4a37-b208-aa08f58c036d
7. ŞAMİL Əli. (2012). Türk Dünyasının Məşhurları: Qeorqi İtıqini http://ali-shamil.tr.gg/Qeorqi-%26%23304%3Bt%26%23305%3Bqin.htm,

www.trtazerbaycan.comhttp://www.trtazerbaycan.com/az/newsDetail.aspx?HaberKodu=d231683c-6593-461d-ab6c-4f67e2710c11
8. TAHIRZADƏ Ədalət, Türkoloji Qurultaya "ÇK" "hədiyyə"si, "525-ci qəzet", 29 yanvar 2005, №18; 1 fevral, №19).
9. Yoloğlu Güllü. Sibirin işğalı: Ruslaşdırma və xristianlaşdırma - Birinci hissə, https://admiral.az/az/mobile/news/22543
10. Yoloğlu Güllü. Sibirin işğalı: Ruslaşdırma və xristianlaşdırma – İkinci hissə, https://admiral.az/az/news/technology/26625/sibirin-ishgali-ruslashdirma-ve-xristianlashdirmaii-hisse#.WAnrZ_mLTIU
11. 1926-cı il I Bakı Türkoloji Qurultayı (2006) (Stenoram materialları, bibloqrafiya və foto-sənədlər), Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri: professor Kamil Vəli Nərimanoğlu, Elmi işçi Əliheydər Atakişiyev. "Çinar-Çap" nəşriyyatı, Bakı.

Rus dilində

ГЛАДЫШЕВСКИЙ Алексей (2008). Союз тюрков Сибири, **29 Феврал,** http://www.gorno-altaisk.ru/archive/2005/25/001.htm
http://plimpa.livejournal.com/92830.html

КИЛИЖЕКОВА М. Ф.(2009). О трагической судьбе просветителя хакасского народа Николая Гавриловича Катанова (1894-1939). Толы Хоорай, 17 март. **http://www.khakasia.com/forum/index.php?threads/Николай-Гаврилович-Катанов.276/**

Миссионерско-просветительская система Н. И. Ильминского, http://www.portal-missia.ru/node/531

Политические репрессии в Аскизском районе Хакасии (1920 -1950). http://www.-memorial.krsk.ru/Articles/Askiz/06.htm

12. СОЛОВЬЕВА Татьяна. Семья Итыгиных и Барсугачевых, и их вклад в историю развития Красноярского края и Хакасии http://www.khakasia.com/forum/index.php?threads/Георгий-Игнатьевич-Итыгин.250/

13. ТУГУЖЕКОВА В.Н., Карлов. (1998). С.В.. Репрессии в Хакасии, Абакан, г.http://www.memorial.krsk.ru/Articles/RepHak/3.htm

14. ШАМИЛ Али.(2014)."Известные и неизвестные страницы I -ой тюркологической конференции в г. Баку", Ногайцы: XXI век. История. Язык.Культура. От истоков - к грядущему. Материалы Первой Международной научно-практической конференции. Черкесск, 14-16 мая 2014 г., стр.185-192.

15. ШЕКШЕЕВ А.П.(2011). Власть и национальная политическая элита Хакасии: взаимоотношения в 1920-1930-е годы,Мир Евразии jurnalı, № 1,с.48-57.

16. *ШЕКШЕЕВ Александр.(*2011*)* Хакаси**я:** Непростое рождение республики, Xakasiya qəzeti, 15-18 мая sayı (88, 89, 90).http://www.tuva.asia/news/ruregions/3426-hakasiya.html

Çap olundu: Türkoloji Qurultayin iştirakçisi və Qərbi Sibir Türk Respublikası qurmaq istəyən, xakas Nikolay Katanov, Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər(elmi sessiyanın materialları, Bakı şəhəri, 10 iyun, 2016), "Elm və təhsil" nəşriyyatı, 2016, səh.46-69.

TÜRK DÜNYASININ MƏŞHURLARI

ALEKSEY KULAKOVSKİ

Aleksey Kulakovski (saxa: *Өксөкүлээх Өлөксөй, əski əlifba ilə:* آلئكسئى كولاكووسكى**, rus.** *Алексей Елисеевич Кулаковский, 1877-1926***)** https://ali-shamil.tr.gg/Aleksey-Kulakovski.htm



Aleksey Kulakovskinin ad və soyadının qaynaqlarda Yeleksey Yekseyleex, Өлөксөй Өксөкүлээх kimi yazılmasının səbəbi bu adlardan birini ailəsi, o birini. Xristian kilsəsə, üçüncünü Rus məmurları yazmasıdır.

Dünyanın əksər ölkələrinin statistika və yazılı mənbələrində son illərədək yakut kimi tanınan və yazılan xalqın övladlarının əksəriyyətinin ad və soy adı belə fərqlidir.

1877-ci il mart ayının 4-də (yeni təqvimlə martın 16-da, bəzi qaynaqlarda martın 28 və aprelin 4-də) keçmiş çar Rusiyasının Yakutya vilayəti Boturus ulusunun 4-cü Yexsoqon

qəsəbəsində (indiki Tattin) anadan olub. O, kilisədə Aleksey Yeliseyeviç Kulakovskiy kimi qeydə alınıb. Ailədə, qohumları və tanışları isə onu Öksöküleex *Ölöksöy* deyə çağırırıblar. Onun atasının adı rəsmi sənədlərdə Elisey Vasileviç, anasınınki isə Anastasiya Nikolayevna yazılırdı.

Sənaye və texnika cəhətdən Avropa dövlətlərindən geri qalan aqrar Rusiya bütün gücünü yeni torpaqlar işğal etməyə yönəltmişdi. Rusiyanın qonşuluğundakı xalqlarının zəifləməsi, mərkəzləşmiş güclü dövlətlərinin dağılması da buna şərait yaratmışdı. Çox vaxt tacirlər və macərapərəst qənimət həvəskarları Rus əsgəri birliklərindən öncə Sibirə doğru irəliləyirdilər. 17-ci yüzilliyin 20-30-cu illərində Ruslar Sibirin böyük bir qismini ələ keçirdilər. Sibirin Quzey Doğusundakı bir yaşayış məskəninin adıyla Yakutya, həmin bölgədə yaşayan, maldarlıq, atçılıq və ovçuluqla keçinən türkləri də yakut adlandırdılar. Baxmayaraq ki, xalq özünü saxa adlandırır.

18-ci yüzilin ikinci yarısında Rusiya işğal etdiyi Sibir torpaqlarında yaşayan xalqları zorla xristianlaşdırmağa başladı. Bunun səbəbi bölgədə güclü dini təsislərin olmaması idi. Xristianlığı qəbul etməyənlərdən yasaq deyilən bir vergi

alınırdı. Xristianlığı qəbul edənlər isə yasaq ödəməkdən azad edilirdi. Ruslar tərəfindən Şamanizm adlandırılan tanrıçılıq inancını yaşadan saxaların bir qisimi yasaq adlandırılan vergidən yayınmaq üçün formal olaraq xrisianlığı qəbul etdilər. Müstəmləkəçilərə xidmət edən yerli sakinlərin bir qismi də kilsəyə gedərək xaç suyuna çəkilib – vaftiz olunub xristianlaşdılar. Xristian missionerlərin təbliğatının təsiri ilə əski inanclarından uzalaşanlar da olurdu. Onlar əski inanclarından – tanrıçılıqdan, yəni göytanrı inamından əl çəkərək inanclı xiristiana çevrilirdilər.

Kilsənin və ateist Sovet rejiminin təqib və təzyiqlərinə baxmayaraq saxalar günümüzədək tanrıçılığın bir çox etiqadlarını yaşada bildilər.

Yeleksey Yekseyleex kiçik yaşlarında kilisə yanındakı məktəbdə oxumağa başlayır. Onun təhsilində və dünyagörüşünün formalaşmasında ana babası Nikolay Alekseyeviçin, nənəsi İrina Sobakinanın, böyük qardaşı İvan Eliseyeviçin böyük rolu olmuşdur. Kilsə yanındakı məktəbi bitirdikdən sonra hökümətin yerli xalqlardan özünə xidmət edə biləcək kadrlar hazırlamaq üçün açdığı məktbdə oxuyur. 1886-1890-cı illərdə Curapca əcnəbi məktəbində oxuyan

Yeleksey orada rus dilini, rus ədəbiyyatı və mədəniyyətini öyrənməklə kifatətlənmir, həm də bu dil vasitəsilə Avropa xalqlarının ədəbiyyatı və mədəniyyəti ilə yaxından tanış olur. Yakut Ruhani Məktəbini əla qiymətlərlə başa vurub realnı məktəbə qəbul olunur. 1897-ci ildə realnı məktəbi bitirir. Həmin il rus dilində "Rusların öz adları ilə öyünmyə haqqı varmı?" və "Puşkinin poeziyasının başlıca ləyaqət" əsərlərini yazır.

Əmək fəaliyyətinə başlayan Yeleksey Yekseyleex vətəninə sürgün edilmiş cinayətkarlarla, hakimiyyətdən narazı olan insanlarla, inqilabçılarla görüşür. Fərqli-fərqli zümrədən olan insanlarla ünsiyyət onun dünyagörüşünün formalaşmasına güclü təsir edir.

Yaşam şərtləri çətin olan Sibir "dəmir barmaqlıqlarsız həbsxana", "diri ölülər diyarı" adlandırılırdı. Bir tərəfdən çətin hava şərtləri, o biri tərəfdən Rus hərbçilərinin və məmurlarının yerli xalqlara qarşı qəddar münasibətləri bölgədə əhalinin sayının azalmasına səbəb olurdu. Sibirdə əngin təbii sərvətlərindən istifadə üçün hökümətə işçi qüvvəsi gərək idi. Onu təmin etmək məqsədilə mərkəzi vilayətlərdə, eləcə də işğal edilmiş ölkələrdə cinayət törədən, yaxut da hökümətdən narazı insanlar Sibirdəki

həbsxanalara göndərilir və ya sürgün edilirdi. Buna görə də Sibir Rusiyanın sürgün bölgəsi kimi tanınırdı.

Yeleksey Yekseyleex da rus dilini yaxşı bildiyindən sürgünə göndərilən ziyalılarla görüşür, onların fikirlərilə, gətirdikləri kitab, qəzet və jurnallarla tanış olur, dünyagörüşünü genişləndirirdi.

Oxuduğu məktəblərdə Rus milliyyətçiliyinin təbliğinə geniş yer verilməsi, sürgün edilmiş insanların millət və vətən üçün qatlaşdıqları əziyyətlər Yeleksey Yekseyleexın da bir saxa milliyətçisi kimi formalaşmasına güclü təsir edir.

Yeleksey Yekseyleex milli kimliyini təsbit etmək üçün ulusları gəzir. Xalqını müstəmləkə zülmündən, cəhalət və gerilikdən qurtarmağın yollarını axtarır. Qurtuluş yolunu xalqının maariflənməsində və ata-babalarının yaratdığı mədəniyyətə sahib çıxmaqda görür.

Odur ki, ulusları gəzdikcə etnoqrafik və folklor materialları toplayır. Atalar sözlərini, tapmacaları, yanıltmacları topladıqca rusların, vəhşi, geridəqalmış, mədəniyyətsiz saydıqları bir xalqın necə böyük mənəvi sərvəti olduğuna heyran qalır. Savadsız, heç bir məktəb görməmiş

saxaların saatlarla olonxolar söyləyərək xalqının qəhrəman oğullarını öyməsi, tarixi keçmişlərini musiqi və söz vasitəsilə nəsildən-nəsilə ötürmələri gənc Yeleksey Yekseyleexı heyrətləndirir.

Yeleksey Yekseyleex gördü ki, xalqının boğaz və nəfəs səslərindən istifadə edərək müsiqili epik dastanları söyləmək məharəti nə Ruslarda və nə də özlərini mədəni, inkişaf etmiş sayan bir çox xalqlarda yoxdu.

Saxaların günümüzədək yaşatdıqları sürəkli mahnılar (diereti ırıa), müntəzəm vəznli mahnı (degeren ırıa), rəqs mahnısı (yunkyuy ırıa), eləcə də olonxolardakı teatr elementləri xalqının qədim mədəniyyətin daşıyıcısı olduğundan xəbər verir.

Yeleksey Yekseyleex folklor nümunlərini toplayanda nə bu sahədə təhsil görmüşdü, nə əlinin altında metodik vəsait vardı, nə də səsyzama cihazları. Bu yöndə elmi araştırılmalar da aparılmamışdı. Buna görə də olonxonun əsas epizodlarından olan sürəkli mahnıların melodiyasını, ritm improvizasiya xarakterini və temperasiyasız məqamları toplamaq olduqca çətin idi.

Xalq mahnıları ritmində şeirlər yazmaqla soydaşlarının bədii təfəkkürünü inkişaf

etdirməyə çalışan Yeleksey Yekseyleex və çağdaşları inistiklə saxa ədəbi dili formalaşdırırdılar.

Yeleksey Yekseyleexana 1900-cü ildə ana dilində ilk şeirini-"Bayanay alqıha" (Bayanayın ovsunu) yazır. Saxa inancında meşənin və ovçunu qoruyan ruh (əyə)- "Baay-Bayanay", "Baay-Barıılaah" həsr edilmiş şeir böyük maraqla qarşılanır.

Şair-etnoqraf 1904-cü ildə "Yakut qadınlarının nəğməsi", 1906-ci ildə "Süühün tuolbt emeexsin ırıata" (Yüz yaşlı qarının nəgməsi) , 1907-ci ildə "Keççeqey bay" (Xəsis bəy), 1910-cu ildə "Oyuun tüüle" (Şaman yuxusu) (Bu poema şairin fəlsəfi görüşlərinin məcmusu kimi dəyərləndirilir), 1915-ci ildə "Sərxoş burjuyun nəğməsi", 1916-cı ildə "Şəhərli qız", "Araq", "Saxa daxtalların metiriettere" (Yakutların portiretləri), "Örus belextere" (Çayın sərvəyi), "Törüü illiqitten tünneri tölkölöөx" (Doğuşa qədər lənətlmək) şeirlərini və b. bədii əsərlərini yazır. Yeleksey Yekseyleexanın yaradıcılığının zirvəsi "Oyuun tüüle" (Şaman yuxusu) poeması sayılır. Bu poema fəlsəfi məzmununa, obrazlı ifadələrinə, dilinin axıcılıına görə xalqının qəlbinə tez bir zamanda yol tapir.

Bədii yaradıcılıqla və və elmi axtarışlarla məşğul olan Yeleksey Yekseyleexana böyük şəhərlərə getməyə, ali təhsil almağa imkan tapmır. 1917-ci ildə Rusiyada baş verən qarışıqlıq, Rus çarı İkinci Nikolayın taxtdan uzaqlaşdırılması, sonra da ailəsi ilə birlikdə bolşeviklər tərəfindən güllələnməsi insanlarda bir sarsıntı, ruh düşkünlüyü yaradır. Bölşeviklərin verdiyi vədlər isə Yeleksey Yekseyleexa xoş və inandırıcı təsir bağışlayır. Bolşeviklər saxa dilində "Kıım" (Qığılcım) qəzetini çap etdirir, dərsliklər yazdırır, kitabçalar nəşr etdiri. Bu da saxaların ədəbi dilinin inkişafına güclü təsir göstərir.

Yeleksey Yekseyleexın 1923-cü ildə rus dilində "Yakutların inanclarını araşdırmaq üçün materiallar" adlı araşdırmasını, 1924-cü ildə ana dilində "Sayın keliite" (Yayın gəlişi) poemasını, "Təyyarə", "Qocanın hekayəsi" və b. bədii əsərlərini çap etdirir. Onun bu gün də aktuallığını itirməyən əsəri sırasında birinci "Örus belextere" (Çayın sərvəyi) poemasıdır. Poemada şair Lena çayının irili-xırdalı bütün qollarına saxa xalqının verdiyi adları, onların gözəlliyini və xasiyyətlərini təsvir edir. Lenanı bütün qollarını qucaqlamış şəfqətli bir anaya, Şimal Buzlu

okeanı isə nənəyə bənzədir. Bununla sanki Lena haqqında bir saxa ensiklopediyası yaratmış oldr. Bolşeviklərin verdikləri vədə əməl etmədiyini, əsarətdə olan xalqlara azadlıq verəcəyini vəd etdiyi halda çarizmin işğalçılıq siyasətini davam etdirdiyini gördükdə onlardan üz döndərir. Xalqının gələcəyini milli kimlik şurunu güclənməsində və Türk xalqları ilə sıx birlikdə görür.

1920-ci ildən sonra Yeleksey Yekseyleexın bədii yaradıcılıqla məşğul olmağa sanki vaxtı çatmır. O, daha çox içtimai işlərlə, idarəçiliklə və elmi araşdırmalarla məşğul olur. Müvəqqəti Yakut Bölgə Xalq İdarəsində xüsusi müvəkkil, 1924-cü ilin avqust ayından pedaqoji texnikumda müəllim, Ədəbiyyat və Tərcümə Komisiyyasının üzvü işləyir. Yakutya Muxtar Sovet Sosialist Respublikası yaradılandan sonra o Xalq Maarif Komissarlığında ədəbi-bədi bölmənin müdiri, Coğrafiya Cəmiyyətinin üzvü kimi xalqının maariflənməsinə çalışmışdı.

Mərkəzi hökümətin göstərişi ilə 1923-cü ildən başlayaraq müttəfiq və muxtar respublikalarda, muxtar vilayət və mahallarda təbii sərvətləri, iqtisadiyyatı, tarixi, fəlsəfəni, incəsənəti və b. sahələri öyrənmək məqsədilə

elmi mərkəzlər quruldu. Azərbaycanda Tədqiq və Tətəbbö Cəmiyəti kimi Yakutyada da “Saxa keskilə” Elmi Araşdırmalar Cəmiyyəti də quruldu. Bu cəmiyyətin qurulmasında Yeleksey Yekseyleexın, Anempodist Sofronov (Alampa), Platon Oynski, Afanasi Bayarovla birgə iştirak etdi.

Saxa inancını öyrənmək üçün ən dəyərli mənbələri: tarixi-etnoqrafik xarakterli xalq əfsanələrini toplayıb sistemləşdirən Yeleksey Yekseyleexın xalqının bədii şüurunun və fəlsəfi düşüncəsinin dərinliyini öyrəndikcə heyrətə gəlmişdir. O, ana dili və folklore haqqında əsərlər yazır, rus və latın dillərində "Yakutlara məlum olan heyvan və bitki növləri” adlı əsərini tamamlayır. O, bu əsərində ilk dəfə Sibirin flora və faunanın elmi təsnifatını vermişdir. Yeleksey Yekseyleex heyvanların və bitkilərin saxa dilində adlarınıbioloji təsnifatını verməklə qalmamış, xalq təsərrüfatındakı əhəmiyyətindən də geniş söz açmışdır.

Yeleksey Yekseyleex “Məhsul çatışma-mazlığı və onun nəticələri”, “Hidra gəlir”, heyvanlar üçün qışa ot ehtiyatını necə yaratmaq olar”, eləcə də ekstremal vəziyyətdə necə sağ qalmaq olar, Uyğunlaşma yolları haqqında, iqlim

dəyişiklikləri və b. əsərlərini 1925-ci ildə "Avtonomnaya Yakutya" qəzetində nəşr etdirir.

Əlifba və dil komissiyonlarında yer alan Yeleksey Yekseyleex 1926-cı ildə saxa ziyalılarından İsidor Nikifiroviç Baraxov, Aleksandır Andreyeviç İvanov və Anempodis İvanoviç Safronovla birlikdə Azərbaycana – Bakıda keçiriləcək Birinci Umumittifaq Türkoloji Qurultaya yola düşür.

Qurultaya 200-ə yaxın nümayəndə dəvət edilməsi nəzərdə tutulsa da onlardan 131-i Bakıya gələ bilir. İştirak edə bilmiyənlərin siyahısına Aleksey Kulakovskiy-Yeleksey Yekseyleex də daxil edilir. Soyuq vaqonda uzun və üzücü yolçuluq Saxa xalqının millətsevər oğlunun ağır xəstələyənməsinə səbəb olur. Onu Moskvada xəstəxanaya aparırlar. 1926-cı il iyulun 6-da saxa şairi, alimi və çılğın vətənsevər oğlu Moskvada keçinir. Onun cənazəsini vətəninə göndərmək mümkün olmadığından Moskvada dəfn edirlər.

Azadlığı və müstəqilliyi uğrunda canından keçməyə hazır olduğu Yakutiyanın 3 millyon 102 min kvadratkilometrdən çox sahəsindən Yeleksey Yekseyleexa iki metirlik bir torpaq da qismət olmur. Ərazisi Azərbaycandan 37 dəfə,

Türkiyədən 4 dəfə, İrandan iki dəfəyə yaxın böyük olan Yakutiya təbii sərvətləri ilə də zəngindir. Ərazisinin 40 faizdən çoxunun qütb dairəsinin şimalında olmasına baxmayaraq almaz, qızıl, qalay, mika, polumetal, dəmir filizi mədənlərini, kömür, neft, qaz yataqlarını istismarçılar yüz illərdir vəhşicəsinə talasalar da, tükənmək bilmir.

Daim donuşluq bölgəsində yerləşdiyindən Şimalın ən soyuq sahəsi sayılan Verxoyansk-Oymyakon da buradadır. Ərazisinin təqribən 80 faizi tayqadır. 42 faizi meşə ilə örtülüdür. Tundra zonasında kolluqlar otluqlar və şibyəliklərlə zəngindir. Buna görə də yerüstü sərvətləri sayılan şimal maralını, qonur ayını, dovşanı, tülkünü, ondatranı, sincabı, buyunduku, cüllütü, ağ kəkliyi, çaylarındakı dadlı balıqları ovlayaraq milyonlar qazananlar, bu torpaqların əsil sahiblərini səfalət içərisində saxlayıb, başıqapazlı ediblər.

Bunu Aleksey Kulakovskiy-Yeleksey Yekseyleex timsalında bunu aydın görmək olur. Alim-şair 1926-cı ildə xəstəlikdən dünyasını dəyişdikdən az sonra barmaqlıqlarsız həbsxana sayılan diyarda onun əsərlərinin nəşrini və təbliğini qadağan edirləri. Əqidə dostlarını isə

1928-29-cu illərdə həbs edilər. Hətta vilayət partiya komitəsinin 1943-cü il martın 1-dəki qərarında ölmüş şairi milliyətçilikdə suçlanır. İkinci Dünya Savaşında Sovet hökuməti çətin vəziyyətdə qaldığına görə bir çox xalqlara qarşı milli məsələdə müvəqqəti güzəştə getməli olur. 1944-cü ildə Yeleksey Yekseyleexın əsərləri üzərindənki qadağa yumşaldılsa da, bu uzun sürmür. 1952-ci il fevralın 2-də qadağa daha da sərtləşdirilir.

Rəsmi dairələr 1962-ci il fevralın 16-dan Yeleksey Yekseyleex Yakut ədəbiyyatının qurucusu elan edir. Lakin yenə də əsərlərinin geniş nəşrinə və təbliğinə o qədər də önəm verilmir.

Zaman isə öz işini görür. Sovetlər Birliyinin çöküşü başlayanda Yeleksey Yekseyleexa sahib çıxanların, onun vətəni və milləti üçün necə böyük işlər gördüyünü söyləyənlərin sayı artır. Hətta xalqın təkidi ilə Yeleksey Yekseyleexın arzularının bir qisimi həyata keçirilir. 1991-ci ildə Yakutiya Muxtar Sovet Sosialist Respubilkasının adı Yakutiya-Saxa Cümhuriyyəti ilə əvəzlənir. Əhalinin milli tərkibində də bir dəyişmə başlayır. Ruslar və başqa xalqların bir qismi keçimsizlikdə oradan

gedir, Saxalar isə vətənə dönürlər. Hazıra Yakutya-Saxa Respublikasında bir milyona yaxın insan yaşayır ki, bunun da 500 min nəfərə yaxınını saxalar təşkil edir.

TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2011-cü il dekabrın 2-də, saat 12.14-də efirdə səsləndirilmiş və sayta qoyulmuşdur.

ANEMPODIST SOFRONOV (ALAMPA)

Anampodis Safronov (1886-1935) (آنامپودیس سوفورانوو, saxa. Anempo -dist Sofronov, rus. Анемподист Иванович Софронов (псевдоним Алампа) https://ali-shamil.tr.gg/Anempodist-Sofronov.htm



Anempodist İvanoviç Sofronov 1886-cı il noyabrın 14-də keçmiş Rusiya İmperyası Yakutsk dairəsi Booturus ulusunun Birinci Jexsoqonski düşərgəsində doğulur. İndi həmin yerlər Rusiya Fedarasiyası Yakutya-Saxa Respublikasının Tattinski ulusuna daxildir.

Çar Rusiyası Sibiri işğal etdikdən sonra orada yaşayan xalqları assimlə etmək üçün xristian dinindən istifadə edirdi. Bir tərəfdən xristian olmayanlardan yasaq adlı vergi alınır, o biri tərəfən də missionerlər durmadan iş aparırdılar. Onsuz da çətin şərtlər altında yaşayan xalq formal da olsa xristianlığı qəbul etdiklərini bildirirdi ki, vergidən azad olsunlar. Alampanın

ailəsi də beləcə formal xristianlığı qəbul etmiş minlərlə türk ailələrindən biri idi.

Saxalar köçəri həyat sürdüklərindən onların uşaqlarını oxutmaları da çətin olurdu. Kiçik yaşıl uşaqları qəsəbə və şəhərlərdə tanımadıqları insanların yanında qoyub gedə bilmirdilər. 1891-1905-ci illərdə Sibirə dəmir yolunun çəkilməsi, Lena çayında gəmiçiliyin inkişafı, qızıl və almaz mədənlərinin işə salınması Yakutyada bir dirçəlişə səbəb olur. Yeni müəssisələrdə rus dilini bilən, savadlı kadrlara ehtiyac duyulurur. Buna görə yeni məktəblər açmağa məcbur olur.

Anempodist də bir çox yaşıdları kimi 16 yaşında dördsinifli kilsə məktəbində oxumağa başlayır. Uşaqlıqdan saxa folkloruna alüdə olan, dastanları-olonxoları əzbərdən bilən Anempodist klisə məktəbində cəmi iki il oxuyur. 1907-ci ilin payızından yaşayışını təmin etmək üçün "Yakutskaya kray" qəzetinin mətbəəsində işləməyə başlayır.

Mətbəədə işləməsi Alampanın yaradıcılığına güclü təsir edir. 1912-ci ildə ana dilində "Töröөbüt doydu", yəni "Doğma diyar" şeirini çap etdirir. 1912-1913-cü illərdə "Saxa sanata", yəni "Saxanın səsi" jurnalında publisistik yazılarını, şeir və hekayələrini nəşr etdirməklə

saxa yazılı ədəbiyyatının formalaşmasına təsir göstərmiş olur.

Anempodist Sofronov 1914-cü ildə "Kasıb Yakov" adlı pyes yazır. Lakin onun səhnələşdirilməsinə nail ola bilmir. Birinci Dünya Savaşının başlanması Yakutyada da yaşayışı çətinləşdirir. Sürgün olunanların keçimi daha da ağırlaşır. Cinayətkarlar nəzarətin zəifləməsindən yararlanaraq talanlar törədir, hökümət idarələrinin fəaliyyətini pozur.

1917-ci ilin martında əksəriyyətini menşeviklər təşkil edən Rusiya Sosial Demokrat Fəhlə Partiyası Birləşmiş Fəhlə və Əsgər Deputatları Soveti yaratmaqla bölgədə hakimiyyəti ələ almağa çalışır. 1918-ci ilin iyulun 1-də ordunun köməyi ilə Yakutiyada Sovet hakimiyyətinin qalib gəldiyi elan edilir. Lakin bu hökümətin ömrü o qədər də uzun olmur. Həmin ilin avqustunda Admiral Aleksandr Kolçakın (1884-1920) rəhbərlik etiyi Ağqvardiyaçıların ordu hissələr Yakutyanı tutur.

Anempodist Sofronov bu qarışıqlığın, siyası mübarizələrin içərisində xalqına xidmət etmək, millətini oyatmaq, yeni yaranan hökümətlərdən vətəninin xeyrinə istifadə etmək istəyir. Şeirlər,

satirik hekayələr, məqalələr yazır, Rus klassiklərinin əsərlərini ana dilinə çevirir.

Olduqca gərgin və məhsuldar işləyən Alampanın işinə siyasi mübarizələr, silahlı toqquşmalar xeyli mane olur. 1919-cu ilin dekabrın 15-də Sovet ordusu yenidən Yakutyanı tutur. Lakin bolşeviklərin bölgəni idarə edə biləcək qədər kadrları olmadığından Rusiyanın mərkəzi şəhər və vilayətlərindən, eləcə də dünya inqilabı xülyası ilə xarici ölkələrdən gələn sosialistlərin bir qismini 1920-ci ilin iyununda Yakutyaya göndərilir.

Anempodist Sofronov 1921-ci ildə bolşeviklərin Yakutyada açdıqları "Mançar"a redaktor təyin edilir. Saxalıların dilində ilk qəzet olan "Mançar"da o, 1922-ci ilədək bu işləyir.

Bolşeviklərin zülmündən cana yığılmış xalq kütlələrinin etirazından istifadə edən ağqvardiyaçılar hakimiyyəti devirir və 1922-ci ilin martında "Müvəqqəti Yakutya Vilayəti İdarəsi" yaradır.

Silah və zor güçünə yeni qurulmuş höküməti devirən bolşeviklər mövqelərini möhkəmlətmək üçün bəzi güzəştlərə də getməli olurlar. 1922-ci il aprelin 27-də Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin

qərarı ilə Rusiya Sovet Federativ Sosialist Respublikasının tərkibində Yakutya Muxtar Sovet Sosialist Respublikası yaratdıqlarını elan edirlər.

Bolşeviklərin mövqeini fanatikçəsinə müdafiə etmədiyinə, milli dəyərlərə sahib çıxdığına görə hakimiyyət orqanları ilə Anempodist Sofronov arasında bir soyuqluq yaranır. Lakin bölgədə kadr çatışmadığına görə bolşeviklər müvəqqəti güzəştə gedərək onun gücündən istifadə etməyə çalışırlar.

Anempodist Sofronov 1924-cü ildə Yakutya Muxtar Sovet Sosialist Respubilkasının Birinci Konstitusiyasın hazırlanmasında fəal iştirak edir. İctimai-siyasi işlərdə gərgin çalışsa da ədəbi-bədi yaradıcılıqdan da əl götürmür, 150 yaxın şeir, məqalə hekayə, pyes yazır. Onu Saka Türkcəsində yazılmış ilk dramın müəllifi, teatrının yaradıcısı, teatr nəzəriyyəçisi və tənqidçisi kimi dəyərləndirirlər. Xalqın maariflənməsinidə teatrın rolunu yüksək qiymətləndirən Alampa gənc xanımı Yevdoki Konistantinovna Qoqoleva (1891-1971) da teatrda aktyor kimi işlədir.

O, xalqının gələcəyini Türk xalqları ilə sıx əlaqə görür. Sakalar arasında savadsızlığın

aradan qaldırılmasına çalışır. Latın qrafikalı əlifbaya keçilməsinin qızğın tərəfdarı olur.

1925-ci ildən Mərkəzi Nəşriyyatın Yakut bölməsində çalışmışmağa başlayan Sofronovun dram əsərləri Moskvada fərdi cildlər şəklində nəşr olunmuşdur. Sofronov Yakut hökuməti tərəfindən SSRİ Elmlər Akademiyasının 200 illik yubileyinin qeyd edilməsi üçün Leninqrada ezam edilmiş və Bakıda keçirilən Birinci Türkoloji Qurultayda iştirak etmişdir.

1926-cı ildə Bakıda keçiriləcək Birinci Umumittifaq Türkoloji Qurultayı böyük əks-səda doğurmuşdu. Dünyanın uzaq quşələrindən bu möhtəşəm toplantıda iştirak etmək üçün onlarla alim, ziyalı, qəzet işçisi, partiya və dövlət xadimi yola düşmüşdü. Onların sırasında Yakutyadan dörd nəfər də vardı: İsidor Nikolayeviç Baraxov, Aleksandr Andreyeviç İvanov, Alampa ləqəbli Anempodist İvanoviç Safronov və saxaların Yeleksey Yekseyleex deyə çağırdıqları, rəsmi sənədlərdə adı və soyadı Aleksey Kulakovskiy.

Uzun yol, soyuq vaqonlar, baxımsızlıq Yeleksey Yekseyleexın qurultaya gəlməsini əngəllədi. Ağır xəstəliyə görə Moskvada xəstəxanada yerləşdirildi. Lakin həkimlərin ciddi cəhdinə baxmayaraq istedadlı alim 1926-cı il

iyulun 6-da dünyasını dəyişdi və onu Moskvada dəfn etdilər. O birilər isə qurultaya gəlib çatdılar.

1924-1927-ci illərdə ana dilində altı kiçikhəcmli kitab nəşr etdirən Alampanı 1926-cı ildə nəşrə başlayan "Çolpan" jurnalına redaktor təyin edirlər. Saka Türklərinin ana dilində nəşr olunan ilk ədbi-bədi jurnalın ətrafına Alampa qısa müddətdə istedadlı yazıçı və şairləri toplaya bilir. Yakutya Milli Teatrının ilk direktoru, "Saxa Omuk" adlı Mədəni-Kütləvi Cəmiyyətin rəhbəri işləyən, İvan Krılovun (1768-1844), Lev Tolstoyun(1828-1910), Anton Çexovun (1860-1904), Aleksandr Fadeyevin (1901-1956) və b. əsərlərini saxa dilinə çevirməklə ana dillinin zənginləşdirən Alampaya qarşı bolşeviklərin münasibət getdikcə pisləşir.

1927-ci ildə o, uydurma "Konfederasiyaçı işi" (В. М. Назаров. «Особые папки» Политбюро ЦК ВКП(б) о Якутии // Журнал «Илин». — 2001. — № 1 (24) ilə həbs olunaraq Novosibirsk, sonra isə Kazan və Butırka həbsxanasında saxlanılmışdır. 29 oktyabr 1928-ci il tarixli fərmanla RSFSR Cinayət Məcəlləsinin 58-11-ci maddəsinə əsasən əksinqilabi təşkilatda iştirak etdiyinə görə Solovki əsir düşərgəsində beş il müddətinə

azadlıqdan məhrum edilmişdir. 30 yanvar 1928-ci ildə görkəmli sovet xadimi Yemelyan Yaroslavskinin müdaxiləsi ilə onun həbsi Arxangelsk quberniyasında beş illik sürgünlə əvəz edilir. Günahsız yerə məhkum edilmiş şair bu illəri əvvəldən axıra qədər əvvəlcə Arxangelsk quberniyasında, sonra isə İrkutskda keçirir.

Əslində bu Alampaya güzəşt deyildi. Sovetlər Birliyinin böyük önəm verdiyi Ağ dəniz Baltik Kanalının tikintisinə lazım olan işçi qüvvəsini cəlb etməyin bir forması idi.

Alampa həbs edilən gündən əsərlərinin nəşri və təbliği qadağan edimişdi.

1933-cü ilin iyun ayında sürgün müddətini tam başa vuran Sofronov vətəninə qayıdır. A.İ.Sofronov-Alampa 24 dekabr 1935-ci ildə vərəm xəstəliyindən vəfat etmişdir. O, Yakutiya mərkəzi qəbiristanlığında dəfn edilmişdir. O, 15 noyabr 1962-ci ildə SSRİ Prokurorluğunun nəzarət apelyasiya şikayəti əsasında Yakutiya Muxtar Sovet Sosialist Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti tərəfindən reabilitasiya edildi (Birləşmiş Dövlət Siyasi İdarəsinin (ОГПУ - Объединённое государственное политическое управление)

Kollegiyasının 29 oktyabr 1928-ci il tarixli qərarı ləğv edildi və sübutların olmaması səbəbindən iş rədd edildi).

15 avqust 2012-ci ildə Taatta ulusu icmasının qərarı ilə, Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin (Приказ Министерства культуры Российской Федерации от 27.06.2012 № 670. Дата обращения: 20 марта 2014. Архивировано из оригинала 20 марта 2014 года) və Saxa Respublikasının (Yakutiya) Mədəniyyət və Mənəvi İnkişaf Nazirliyinin əmrlərinə əsasən, o, vətənində, Xadaayı ərazisində, Taatta Muzey-Qoruğunun (Ytıq-Küyol kəndi) ərazisində yenidən dəfn edildi (Перезахоронение Анемподиста Ивановича Софронова (Алампа). Официальный информационный портал Республики Саха (Якутия). Дата обращения: 20 марта 2014. Архивировано 20 марта 2014 года).

TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il martın 7-də, saat 12.14-də efirə getmişdir.

QEORQİ İTIQİN



Qeorqi İtıqin *(əski əlifba ilə* قئورقی ایتیقین, *rus.* Георгий Игнатьевич *Итыгин, 1873-1928)* https://ali-shamil.tr.gg/Qeorqi%26%23304%3Bt%26%23305%3Bqin.htm

Qeorqi İqnatoviç İtıqin 1873-cü il martın 2-də çarlıq Rusiyasının Yenisey quberniyası Açunsk qəzasının Çebaki ulusunda doğulub. Bu yerlər Qeorqi doğulmamışdan 100-150 il əvvəl Rusiya tərəfindən işğal edilərək əhalisi zorla xristianlaşdırılmışdı. İnsanlar əski inanclarını unutmayıb gizlində də olsa şaman ayinlərini icra edir, adət-ənənələrini yaşadırdılar. Ruslar onları Tatar arlandırsalar da hən biri Türk soyundan gəldiyini bilirdi. Qeorqinin atası İqnat da Türklərin qızıl tayfasından olduğunu, onları Çinlilər Xakas adlandırdıqlarından xəbərdəar idi.

Rusiya hökümətinin rəsmi sənədlərində Qeorqinin doğulduğu bölgədə Kızıl adlı inzibati

vahid yaradılmışdı. İşğaldan sonra Rusiya Batı Sibiri sürgün yerinə çevirmişdi. Cinayətkarları, siyasi və dini görüşlərinə görə hökümət orqanlarını qane etməyənləri həbs edərək buraya göndərirdi. Nəticədə Rusların sayı orda ildən-ilə artırdı.

Qeorqinin atası İqnat də milliyətcə rus olan Materina Sergeyevna ilə evlənib. Qarışıq ailədə doğulan Qeorqi bölgədə təhsilini başa vurduqdan sonra valideyinləri onu Sibirin ən inkişaf etmiş şəhərlərindən olan Krasnayarskidəki müəllimlər hazırlayan seminariyada oxumağa göndərirlər. 1892-ci ildə seminariyanı bitirib Minusinsk qəzasının Şalobol mktəbində işləməyə başlayır. Bir il sonra onun Ust-Abakan məktəbinə dəyişirlər. Sonrakı illərdə bölgənin Kansk qəzasının Açunski məktəbində, Ujursk məktəbində müəllimlik edir.

Ən çox işlədiyi yer Ujursk məktəbi olur. 1904-cü ildən 1913-ci ilədək orada müəllim və müdir işləyir. İşinə vicdanla yanaşdığına, yüksək bilikli kadr hazırladığına və uzunmuddətli xidmətinə görə 1905-ci ildə Rusiya Təhsil Nazirliyinin "Fədakarlığa görə" gümüş medalı ilə təltif olunur.

Qeorqi İtıqini 1913-cü ildə Krasnayarsk şəhərində yeni açılan dəmiryol məktəbində işə dəvət edirlət. O, kənd və qəza məktəblərində işləyərkən Sibirdə çap olunan qəzet-jurnallara məktəblərin vəziyyəti, təhsil sistemindəki çatışmazlıqlar, kəndlilərin həyatı və yerlərdəki mədəni, iqtisadi, sosial vəziyyəti haqqında silsilə məqalələr yazır. Pedaqoji mövzudakı məqalələri müəllimlər və ziyalılar tərəfindən maraqla qarşılanır.

Sibir təbii sərvətlərinin zənginliyi ilə diqqəti çəksə də burada insanların çoxu səfalət içərisində yaşayırdı. Məmur özbaşınalığı və milli ayrıseçkilik yerli sakinləri çətin vəziyyətə salmışdı. Qəribəsi bu idi ki, hökümətin yeritdiyi siyasətdən, idarəetmədən narazı olduqlarına görə Sibirə sürgün edilənlər də yerli xalqlara yuxarıdan aşağı baxır, onları ikinci-üçüncü dərəcəli insan sayırdılar. Rusiyada monarxiyanın ləğvi, ölkənin demokratikləşməsi, azadlıq və bərabərlik uğrunda mübarizə apardıqlarını söyləyənlər də Sibirdə yaşayan yerli xalqlarla müstəmləkəçi ədası ilə davranırdılar. Bu da Qeorqi İtıqin və onun kimi azad fikirli xakasları, oryatları, şorları, saxaları, nenləri, evenqləri narahat edirdi.

Rusiyanın mərkəzi quberniyalarından və şəhərlərindən Sibirə sürgün olunmuş inqilabçıların bir qismi öz məqsədlərini həyata keçirmək üçün yerli xalqlardan istifadə etməyə çalışırdılar. Bu narahatlığı onu sürgündəki inqilabçılara yaxınlaşdırıb. İnqilabçıların Onları savadlandırmaq istəyir, marksist ədəbiyyat yayır, sosializmin insanlar xoşbəxt edəcəyini təbliğ edirdilər.

Monarxiyanı devirilməsi, insanların azad və bərabər, istismardan, zülmdən, milli ayrıseç-kilikdən uzaq yaşamaq istəyi yerli xalqların da ürəyincə idi. Şirin vədlərə aldanalardan olan Qeorqi İtıqin də inqilabçılarla yaxınlaşır. Cəmiyyətdəki mövqeyini möhkəmlətmək, savadını artırmaq məqsədilə müəllim işləyə-işləyə Krasnoyarskidəki Müəllimlər İnstitutuna qəbul olunur.

Təhlili artdıqca, dünyagörüşü genişləndikcə maarifçiliyə daha çox diqqət yetirir. 1915-ci ildə müəllimlər üçün pedoqoji jurnal nəşr etmək istəyən qrupun tərkibinə daxil olur. 1916-cı ildə nəşrə başlayan "Sibir məktəbi" adlı elmi-metodiki pedaqoji jurnalın redaktoru seçilir. Jurnal qısa vaxtda ictimaiyyət arasında nüfuz qazanır və 1917-ci ilin sonunadək fasiləsiz

çıxarılır. Rusiyada Fevral Burjua İnqilabı adlandırılan, çar İkinci Nikolayın hakimiyyətdən uzaqlaşdırıldıqdan az sonra, 1917-ci il martın 10-da Qeorqi İtıqin Rusiya Sosial Demokrat Fəhlə Partiyasının bolşeviklər qanadına üzv yazılır. Bununla yanaşı Krosnoyarks şəhərdində Beynəlmiləl Müəllimlər İttifaqını yaradır.

Az bir zamanda partiyanın öncüllərindən birinə çevrilən Qeorqi İtıqin bölgədə hakimiyyətin Sovetlərə keçməsi üçün var qüvvəsilə çalışıb. Onlar hətta 1917-ci il noyabrın 10-da Miçunski qəzasında Sovet hakimiyyətinin qurulduğunu da elan ediblər. Lakin mərkəzdən çox-çox uzaqda qurulan, elə bir ciddi dayağı olmayan idarə apartı demək olar ki, formalaşmamış Sovetləri 1918-ci il iyunun 18-də Çex əsirlərindən təşkil olunmuş hərbi birləşmələr və ağqvardiyaçılar kiçik bir həmlə ilə dağıdıb. Sovetlərin rəhbərləri sırasında Qeorqi İtıqin də həbs olunub. O, iki ay həbsxanada saxlandıqdan sonra İrkutskiyə sürgünə göndərilib.

Qeorqi İtıqin həbsdən azad edildikdən sonra gizli fəaliyyətə keçib, ağqvardiyaçılar əleyhinə partizan dəstələri təşkil edib. Partizan dəstələri ağqvardiyaçılara qarşı mübarizə aparsalar da, yerli əhalini də soyub-talayıb, onlara qarşı

qəddarlıqlar edib. Qeorqi İtıqin məsləkdaşlarının özbaşınalıqlarına, qəddarlıqlarına xalqının xoşbəxtliyi və azadlığı naminə dözür.

1918-ci ildə Krasnoyarskdəki Pedaqoji İnstitutu bitirən Qeorqi İtıqin müəllimlik etməyə, gəncləri maarifləndirməyə vaxt tapmır. O, dana çox siyasətlə məşgul olur. Bolşeviklərin ideyalarının yayır, yerlərdə onlara tərəfdarlar toplamağa, təşkilatlarını qurmağa çalışır.

1920-ci ilin yanvarında bolşeviklərin silahlı qüvvələri ağqıvardiyaçıları məqlub edərək bölgəni Sovetləşdirdiklərini elan ediblər. Qeorqi İtıqin yeni qurulan Krosnayarsk Vilayət İcraiyyə Komitəsinə üzv seçilir. Onu öncə Krasnoyarsk Dəmiryolçuları Mədəni Maarif Müəssisələri Komissiyasına sədr təyin edirlər. O həm də eyni vaxtda Yenisey Quberniyası Xakas bölməsinin Xalq Maarifi şöbəsinə rəhbərlik edir.

Yenisey quberniyasının güneyində-bolşeviklərlə fikir ayrılığında olanlara qüvvələrə münasibət məsələsində Qeorqi İtıqinlə məsləkdaşı saydığı insanlar arasında ziddiyyət yaranır. O, bolşeviklərdən fərqlı düşünən müxalif queplaşmalarla danışıqlar aparmasını istəyirdi. Danışıqlar yolu ilə sülhə və dincliyə nail olmasını istəyirdi. Yerli inqilabçıların bir şoxu da Qeorqi

İtıqin ilə eyni fikirdə idilər. Buna görə də o, bir neçə dəfə də həmin qruplşmalarla danışıqlara gedir. Yerli hakimiyyəti saya salmayan hərbçilər isə hamını silah gücünə susdurmağı istəyirdi. Daha doğrusu bolşeviklərin tərəfini saxlamayanları tamamilə məhv etməyə üstünlük verirdilər. Silahlı qarşıdurmada isə dinc əhali qırılıb, təsərrüfatlar dağılıb, bölgəni aclıq, xəstəlik bürüyürdu.

1923-cü ilin sonlarında Xakasya milli qəzası yaradılır. Qeorqi İtıqin qəza Sovetinə sədr seçilir. Onun bu vəzifədəki fəaliyyəti çox gərgin olur. Qeorqi İtıqin yuxarıların əmrlərinə sözsüz əməl edən bir məmura çevrilmir. Çünki o, azad fikirli, müstəqil fəaliyyəti sevən, millətinin və seçicilərinin hüququnu qoruyan bir insan idi.

1924-cü ilin yanvarın 1-də Xakas Qəza İnqilab komitəsinə sədr təyin edilən Qeorqi İtıqin həmin ilin noyabrında keçirilən seckilərdə Xakas Qəza Xalq Fəhlə, Kəndli, Əsgər Sovetinə sədr seçilir. O, rəhbər vəzifələrə təyin edilsə və secilsə də yeni hökümətin yaratdığı inzibati ərazi vahidləri ilə razılaşmır. 1925-ci ilin noyabrında isə Xakasiya qəzası Xakasiya Dairəsinə çevrilir və Qeorqi İtıqin də Dairə Fəhlə, Kəndli, Əsgər Soveti İcrayə Komitəsinə sədr seçilir.

Qeorqi İtıqin və onun kimi düşünənlər isə Batı Sibirdə yaşayan türklərin bir inzibati ərazi bölgüsünə daxil edilməsini, bu bölgüyə də Respublika statusu verilməsini istəyirdilər. Mərkəzi hakimiyyət isə heç vəchlə bununla razılaşmaq istəmidi. Lakin bölgəni zorla idarə edə biləcək güc də yox idi. Sibirin sərt şaxtası aylarla uluslar arasında gediş-gəlişi əngəlləyir, yayda isə sərt yamaclı dağlar zəif təchizatlı Sovet əsgəri birliklərinin irəliləməsinə əngəl olurdu. Bütün bu çətinlikləri nəzərə alan Moskva bölgəni yaxşı bilən, xalq arasında nüfuzu olan Qeorqi İtıqin və onun kimi düşünənlərin idarə etməsinə dözürdü. Onları gələcəkdə susdurmaq, məhv etmək üçün altdan-altda tədbirlər görür, bölgədə əhalinin milli tərkibinin dəyişdirilməsi üçün planlı iş aparıdı.

Qeorqi İtıqin Moskvanın yeritdiyi siyasətlə barışa bilmir Qəza Xalq Deputatlar Sovetinin toplantısında deyir ki, bölgənin 479 yaşayış məntəqəsinin yüzdə yetmişi xakaslardır. Lakin mərkəzdə ruslar yaşayan bölgələr büdcədən ayrılan vəsait daha çoxdur.

Qeorqi İtıqin və onun kimi düşünən, milli təfəkkürlü, demokratik fikirli insanları susdurmaq ücün 1925-ci ildə Xakas Milli

Qəzasının imtiyazları bir az artırılır. Lakin milli qüvvələr nə inzibati bölgüdəki kiçik dəyişiklərlə, nə də onların vəzifələrini yüksəldilməsi ilə razılaşmır. Onlar Sibir türklərinin ana dilində məktəblərinin olmasına, kitablar, qəzet və jurnalların nəşrinə, yeni əlifba yaradılmasına nail olmaq istəyirdilər. 1925-ci ilin martında keçirilən Xalq Deputatlar Sovetinin İkinci Qurultayındakı çıxışında Qeorqi İtıqin deyirdi ki, Batı Sibirdə yaşayan və türkcə danışan Xakaslar, Oyratlar, Şorlar üçün bir inzibati ərazi- Batı Sibir Türk Respublikası yaradılmalıdı.

Qeorqi İtıqin bolşeviklərin idarəetmə siyasətini kəskin tənqid etməsi mərkəzi hökuməti qıcıqlandırırdı. Rusiya Kommunist (bolşevik) Partiyası Yenisey Quberniya Komitəsinin 1924-cü ilin sentyabrında keçirilən plenumundakı çıxışında deyib ki, Qeorqi İtıqin deyirdi ki, nədən Xakasyada hökümətin idarə aparatlarında demək olar ki, xakaslar yox dərəcəsindədir. Onun bu fikrini quberniya Xalq Deputatlari Soveti İcrayə Komitəsinin sədri Pavel Şixanov da təsdiqləyir. Kommunist Partiyasının istər quberniyadakı, istərsə də, Moskvadakı rəhbərilyi bu çür çıxışlardan əsəbiləşir, hətta İosif Stalin

(Cuğaşvili) Qeorqi İtıqini özündən razı şovinist adlandırır.

Bölgədə milli mübarizənin gücləndiyini görən Moskva başqa siyasət yürüdür. Yeni xakas əlifbasının yaradılması üçün komissiyanın təşkilinə, müəllimlər hazırlayan üça aylıq kursların açılmasına, ana dilində dərs kitablarının çapına, xakas dilində "Xızıl aal" qzəetinin nəşrinə icazə versə də Qərbi Sibir Türk Respublikasının yaradılması fikrilə heç cürə razılaşa bilmir.

Ukraynadan, Mərkəzi Rusiyadan, Qafqazdan hökümətdən narazı insanları Batı Sibirə sürgün edir. Müxtəlif bəhanələrlə bölgədəki xakas, oyrat, şor türklərini də Şimala – Arxangelskiyə, Baykala, Norilskə, Tayqanın yaşayış daha çətin olan yerlərinə sürgün edirdi. Beləcə türkərin kütləvi aclıqdan, xəstəlikdən ölümünə şərait yaratmaqla yanaşı, Batı Sibirin əhalisinin milli tərkibi də dəyişdirmiş olurdu.

Mərkəzi hökümət Qərbi Sibir Türk Respublikası ideyasının daşıyıcılarını müxtəlif bəhanələrlə bölgədən uzaqlaşdırırdı. 1927-ci ilin martında Qeorqi İtıqini Novosibirsk Ölkə İcraiyyə Komitəsi Xalq Maarif Şöbəsinin Azsaylı Xalqlar Bölməsinə müdir təyin edilir. O,

Xakasiyadan uzaqlaşdırılsa da başladığı işi yarıda qoymaymur. Şor türklərindən Yakov Telqerekov, oyrat türkü Mixaylov-Oçi, rəssam Qurkin və başqaları ilə bilikdə Batı Sibir Türklərinin İttifaqını yaradır. Bu təşkilatın planı Batı Sibir Türk Respublikasını qurmaq olur.

Qeorqi İtıqin 1928-ci il dekabrın 5-də Novosibirskdə şübhəli şəkildə ölür. Lakin onun məsləkdaşları başladığı işi davam etdiriblər. 1934-cü ilin avqustunda "Batı Sibir Türk Respublikası" yaratmaq istədiyinə görə bölgədə yaşayan xakas, oyrat və şor aydınlarından 37 nəfər istintaqa cəlb edirlər. Məhkəmə Konistantin Maytakovu, Aaleksey Şulbayevi, Vasili Sunçuqaşevi (1907-1979), Aleksey Amzarakovu, Oturqaşevi, Nikolay Şulabayevi, N.A.Aeşini, Konistantin Kokovu(1907-?), Vasili Kaziçakovu və başqalarını həbs edir. Nikolay Katanovun(1894-1938), Konistantin Samrinin (1895-1938), Timofey Baltıjakovun, Maksim Topoyevin və başqalarının fəaliyyətində cinayət tərkibi tapmadıqlarından azadlığa buraxsalar da, onları təkrar 1937-ci ildə həbs edərək məhv edirlər.

Uzunmüddətli təzyiq və təqiblərə öz təsirini göstərir. Bu gün Batı Sibirdə özünü türk

adlandıranlara rast gəlmək çətindir. Çünki onlar özlərini xakas, altay, şor adlandırmağa alışıb. Sovetlər Birliyi çökdükdən sonra Qeorqi İtıqin və məsləkdaşlarından çox yazılmağa, danışılmağa başlanıb. Bu da yeni nəsildə "Batı Sibir Türk Respublikası" yaratmaq istəyini yenidən cücərdib.

TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il aprelin 4-də, saat 12.14-də efirdə səsləndirilmiş və sayta qoyulmuşdur.

NİKOLAY FYODROVİÇ KATANOV

Nikolay Fyodroviç Katanov (хак. *Пора Хызыл оглу*, *əski əlifba ilə:* نیکولای فیودروویچ کاتانوو, *rus.*, Nikolay Fyodroviç Katanov, 1862-1922*) https://ali-shamil.tr.gg/Nikolay-Katanov.htm*



Nikolay Fyodroviç Katanov 1862-ci il mayın 6-da uzaq Sibirdə, keçmiş Yenisey quberniyasının cənubunda, Askiz qəsəbəsinin yaxınlığındakı Turaxov ulusunda doğulub. Valideyinləri ona Pora, kilisə isə Nikolay adı qoyur. Bu da səbəbsiz deyildi. Rusiya Sibiri işğal etdikdə orada yaşayan şaman inanclı insanları da zorla xristianlaşdırır. Ona görə də uşağı evdə Popa çağırsalar da rəsmi sənədlərdə kilsədə qoyulan Nikolay adıyla tanınmışdır. Nikolayın atasını da xakaslar Xızıl deyə çağırsalar da sənədlərdə adı Fyodr olub. Xızıl xakasların Saqay, xanımı Çamax (Mariya) isə Kaçina

tayfasındandır. Bu tayfalar yayda Saqay çöllərində, qışda isə Yenisey çayının sol qollarından olan Abakanın sağ sahilində, Sarkaqel gölünün kənarında, Uzyum çöllərində yaşayırmış.

Gənclik illərimdə həyat yaradıcılığı haqqında geniş bilgim olmadığından Nikolay Fyodroviç Katanovu sevməzdim. Haqqındakı bilgim ötən əsirini əvvəllərində Azərbaycan aydınlarının yazdıqları beş-on cümlədən ibarət idi. Bu cümlələrdə də Katanov mühafizəkar çar məmuru, senzor, monarxiyapərəst bir insan kimi tanıdılmışdı. Sonralar isə onun elmi fəaliyyəti ilə tanış olduqda gözlərim qarşısında zəhmətkeş bir alim canlandı.

Katanovlar aristokrat və ziyalı bir ailə olublar. Belə ki, atası Xızıl Katanov ulus, tayfa başçısının mirzəsi, əmisi Yefim Semyonovic isə çar hökümətinin Askiz qəsəbəsində açdığı məktəbdə müəllim işləyirmiş.

İlk təhsilini evdə atasından alan Nikolay 1869-cu ildə əmisinin dərs dediyi məktəbdə oxuyur. O, Aksiz məktəbinə daxil olan il qızıl sənayeçisi Pyotr Kuznetsov (1818-1878) zəngin kitabxanasını məktəbə bağışlayır. Təhsil illərində Nikolay Katanov çoxu Sibir haqqında olan bu

kitabları acgözlüklə oxuyur. 1874-cü ildə Nikolayın atası ölür. Həmin il o, Aksizdə məktəbi bitirir. Avqustunda imtahan verərək Krasnoyarsk şəhərindəki klassik oğlan gimnaziyasına daxil olur. Ailə vəziyyətinə görə dərs oxumaqla yanaşı varlıların uşaqlarına da dərs deyir. Onu elmi axtarışlara həvəsləndirən və dünyagörüşünün formalaşdıran isə məşhur Rus rəssamı Dmitri Karatanovun atası, qızıl sənayeçisi Pyotr Kuznetsov (1818-1878) qulluqçusu İnnokent Kuznetsov olur. Beləcə Nikolay Katanov gimnaziyada oxuduğu dövrdə bir araşdırıcı kimi formalaşır.

1883-cü ildə folklorşünas Qriqori Potanin "Monqolustanın Quzey Batısı haqqında ocerklər" kitabında Nikolay Katanovun "Şaman dəfi və geyimi" məqaləsini çap edir.

1884-cü ildə gimnaziyanı qızıl medalla bitirir. Sibirdən çox çətinliklərlə Kazan şəhərinə gəlsə də orada qəbul başa çatdığından imperyanın başkəndi Peterburqa getməli olur. 1884-cü ilin avqustun 15-də onu unversitetin Ərəb, Fars, Türk, Tatar dilləri ixtisası üzrə təhsil almağa başlayır. Gimnaziyada oxuyarkən Rus dili ilə yanaşı, Latın dilini, Fransız və Alman dillərini öyrənən Nikolay Katanov unversitetdə oxuduğu

illərdə Türk dillərinin Başğırd, Cığatay, Qazax dillərini, eləcə də İslam hüququnu, Doğu tarixini öyrənməyə maraq gıstərir. Bundan başqa evdə Vasiliy Bartolddan (1869-1930) fonetka, muqaisəli qramatika dərsləri alır.

Sibirdən gəlmiş və Rus olamyan gəncin uğurla ona dərs deyən Vasiliy Bartold (1869-1930), Nikolay Veselovski (1848-1918), İlya Berezin (1818-1896) kimi müəllimləri də heyrətləndirir. Kimnaziyada olduğu kimi, unversitetdə də maddi söxöntı içində yaşayır. Vəziyyətdən çxmaq üçün rektorun adına ərizə yazaraq dövlət təqaüdi verilməsini xahiş edir. Səkkiz manatlı təqaüdi 1885-ci ildə alsa da bununla dölana bilmir. Məcbur qalıb kilisələri gzir, savadsız qadınlara iki qəpikdən dərs deyir. Normal qidalanmaması, Sankt Peterburqun rutubətli havası Sibirin sərt iqliminə dözmüş Nikolay Katanovun vərəmə tutulması ilə nəticələnir. O, bu qorxunc xəstəlikdən Sibirə ekspedisyaya getdikdən sonra qurtula bilir.

1884-cü il dekabrıb 5-də kazan Universiteti yanında Arxeologiya, Tarix və Etnoqrafiya Cəmiyyətinə üzv seçilir və 1886-cı ildə Nikolay Yadrintsevlə (1842-1894) birlikdə “Peterburqda Oxuyan Sibirlilər Cəmiyyəti”ni qurur. Nikolay

Yadrintsevin redaktoru olduğu "Vostoçnoe obozrenie" qəzetinə bir neçə məqalə yazır. Dərnəkdə keçmiş sürgünolunanlar da iştirak etiyində polisin diqqətini çəkir. 1887-ci il avqustun 21-də onu polisə çağırıb dilində izahat alırlar ki, bir daha heç bir gizli dərnəkdə, siyasi təşkilatda iştirak etməyəcək. Nikolay Katanov sonadək veriyi sözə sadiq qalır.

Dövrünün ən tanınmış şərqşunaslarından dərs alan Nikolay Katanova 1888-ci il mayın 30-da universiteti bitirəndə ona filologiya elmlər namizədi dərəcəsi, eyni zamanda Doğu Fakultəsi iki illiyə 600 rubl professor təqaüdü verirlər.

Nikolay Katanov Sankt Peterburqa ali təhsil almağa gələndə Çar Rusiya Sibirdə işğal etdiyi bölgələrdə möhkəmlənmək, oranın təbii sərvətlərini istismar etmək, sərhədlərini daha da genişləndirmək, Doğu Türküstanı da təsir dairəsinə salaraq Çin səddinədək getməyi planlayırdı. Buna görə də həmin bölgələri dərindən öyrənməyə ehtiyac duyurdu. Bu vəzifəni yerinə yetirə biləcək kadrıar isə barmaqla sayılacaq qədər az idi.

Qazaxıstanın Doğusuna, Sibirin Batısına səfər etmiş Vasiliy Radlovun gətirdiyi bilgilər çar məmurları üçün əvəzsiz xəzinə rolunu oynayırdı.

Buna görə də hökümət dairələrində Vasiliy Radlav böyük nüfuz sahibi kimi tanınırdı. 1887-ci ildə Vasiliy Radlav yardımı ilə Rusiya Coğrafiya Cəmiyyətinə bir məktub göndərir. Məktubda Sibirdəki Türk tayfalarının qalıqlarının öyrənilməsinin vacibliyi vurğulanır və oraya etnoqrafik ekspedisiya təşkil edilməsin xahiş edir. 1887-ci ilin dekabrın 11-də etnoqrafiya bölməsində 1000 rubl ayrılmaqla ezamiyyəti reallaşdırılması qərarlaşdırılır. Yazışmalar və pul ayrılması bir ilədək sürür. 1888-ci ildə Daxili İşlər Nazirliy rəsmi məktub verir ki, yerlərdəki məmurlar ekspedisyanın işinə kömək göstərsinlər. 1888-ci ilin dekabrın 22-də İmperator Nikolay katanovun Sibirə və Çinə elmi ezamiyyəti haqqında fərman verir.

1889-cu ilin əvvəllərində ekspedisiya Sankt Peterburqdan yola çıxır. Nikolay Katanov Omsk, Tomsk, Krasnoyarsk şəhərlərini keçərək doğma Askizə gəlir. Oradan da Uryanxaya, yəni Tuvaya gedir.

Ekispedisya üç il çəkir. Nikolay Katanov Xakasiyadan, Tuvadan, Yeddisudan (Semireçiya), Tarbaqataydan və Sintsizyan (Doğu Türküstan) bölgələrini gəzir, materiallar topladı. Yenidən Aksizə gələrək 1892-ci ilin oktyabrın

14-də əmisinin ögey qızı Aleksandra İvanovna ilə evlənir və baçısı Marianın oğlu Nikolay Qavriloviçi övladlığa götürərək ona öz soyadını verir.

Ekspedisyanın qarşıya qoyduğu proqramı yerinə yetirən Nikolay Katanov 1892-ci ilin dekabrın 22-də arvadı ilə birlikdə Peterburqa gəlir. Lakin burada çətinliklərlə qarşılaşır. Unversitetin Doğu Dilləri fakultəsinə onu müəllim qəbul etmirlər. Maddi sıxıntı işərisində qaldığından bahalı kürkünü və gimnaziyanı qurtararkən ona verilmiş qızıl medalı satır. Tanışlarına və hökumə orqanlarına məktublar göndərərək onun işlə təmin olunmasına yardımçı olmalarını xahiş edir. 1893-cü ilin noyabrın 9-da Vasiliy Radlovun və Peterburq Elmlər Akademiyasının akademiki, Doğu bilimçisi-ərəb dilləri mütəxəssisi, professor Viktor Rozenin (1849-1908) zəmanəti ilə Kazan Unversitetinə müəllim işləməyə gedir.

1894-cü ilin yanvarın 12-də Kazan Unversitetinə gələn Nikolay Katanov elə həmin il Rusiya Coğrafiya Cəmiyyətinə həqiqi üzv seçirlər.Ömrünün sonunadə orada işləsə də daim təziqlərlə üzləşməli olur. Böyük işgüzarlıq nümaiş etdirsə də, cəmiyyətlərə sədr seçsələr də

istədiklərin reallaşdırmağa da mane olurlar. O, dərs deməklə kifayətlənmir, elmi axtarışlarını davam etdirir, kadr hazırlığına diqqəti artırır, ictimai işlərdə çalışır.

Avropa tipli ali məktəblərdə Sibir xalqlarından ilk professor olan Nikolay Katanov 1896-98-ci illərdə Ufa qubreniyasına ekspedisyaya gedərək orada dialektoloji, etnoqrafik və folklor materialları toplayır. Topladığı materiallar əsasında "Başqırd dili" adlı əsərini yazır. Nikolay Fyodroviç Katanov yüzillər boyu ərəb əlifbasından istifadə edən başqırdlar üçün kiril qrafikası əsasında "Başqırd dilinin əlifbası" kitabını yaradır. Onu bu işə məcbur edən ərəb əlifbasında sait səslərin yazılmaması idi. Sait səslər yazılmadığına görə də türk dillərində ərəb əlifbasıyla yazılmış mətinləri doğru-düzgün oxumaq çətinlik törədirdi.

Elmi araştırmalarına və ekspedisyalarda fəal iştirakına görə onu 1898-ci ildə onu Kazan Universitetinin nəzdindəki Arxeologiya, Tarix və Etnoqrafiya Cəmiyyətinə rəhbər və cəmiyyətin "Xəbərlər" adlı elmi jurnalına redaktor seçirlər. 1899-cu ilin martında isə "Deyatel" jurnalı üçüncü sayının üzqabığında Nikolay Fyodroviç Katanovun fotoportretini verir.

Nikolay Fyodroviç Katanov Batı Sibir türklərindən topladığı materialları türk dillərində danışan xalqların dil və dialektlərilə müqaisə edərək ortaya sanballı bir əsər qoyur. O, 1889-cu ilin mart ayından avqustuna kimi Tuvada ekispedisyada olur. Altı ayda yerli xalqlardan 1410 mətin toplayır ki, bunun da 1200 folklor mətinləri olur. Həmin mətinlər bu gün də dünya türkologiyasının qızıl fondu sayılır. Topladığı mətinlər əsasında "Uronxoy torpağının oçerkləri"ni, "Uronxoy dilinin başqa türk kökənli qohum dillərlə müqaisəli öyrənilməsi təcrübəsi" əsərlərini yazır. Sonuncu əsərə görə Peterburq Universitetinin elmi şurası Nikolay Fyodroviç Katanova elmlər doktoru adı verir. Onun topladığı mətinlər sonradan Rusiyada yaşayan almanlardan əsil adı və familyası *Friedrich Wilhelm Radloff olan* Vasiliy Radlovun (1837-1918) "Türk tayfalarının xalq ədəbiyyatı nümunələri" çoxcilidliyinin doqquzuncu cildinə daxil edilir.

16 il Arxeologiya, Tarix və Etnoqrafiya Cəmiyyətinə rəhbər vəzifəsini şərəflə daşıyan Nikolay Fyodroviç Katanov ictimai işlərdə də fəallığı ilə seçilir. Rus cəmiyyətini sərxoşluğun məhvə apardığını görən böyük alim sərxoşluğa

qarşı mübarizə aparanlardan olur. Onun "Deyatel" jurnalının səhifələrində sərxoşluq, içki düşgünlüyü əleyninə yazdığı məqalələr bir doktorluq dissertasiyası üçün mövzu ola bilər.

Elmdə böyük uğurlar qazanan Nikolay Fyodroviç Katanovu Belçikanın Leven, Avstrya-Macarıstanın Budapeşd, Finlandiyanın Qelsinqfors şəhərlərindəki elmi cəmiyyətlərə üzv seçirlər. Rusiyadaki bir sıra elmi cəmiyyətlərə də üzv seçilən Nikolay Fyodroviç Katanov qatı monarxiyapərəstliyinə, antisosialistliyinə görə müasirlərinin kəskin tənqidinə də məruz qalır. O uzun zaman Kazanda türk-tatar dillərində çap olunan qəzet-jurnalları, kitabları senzor edir. Hökümətin ona inamı o qədər güclü olmuşdur ki, hətta bəzən Qafqazda çap olunmalı kitabları, qəzet-jurnalları da rəy üçün ona göndərirfilət.

Ata-babaları şaman inanclı olan Nikolay Fyodroviç Katanov fədakar pravoslav missyoneri kimi də tanınmışdır. Hətta "Pravaslav müsahib" jurnalının "Dini xülasə" adlı əlavəsinə redaktorluq etmək də ona tapşırırlar.

Monarxiyapərəstlikdə, dindarlıqda olduğu kimi o elmi-pedaqoji fəaliyyətdə də olduqca sərt mövqedə dayanmışdır. Buna görə də Kazan Universitetinin pofessor müəllim heyəti 1907-ci

ildə müdafiə etmədən ona ikinci dəfə elmər doktoru adı verir. Katanovun tələbələri arasından Sergey Yefimoviç Malov, Zəki Valid Toğan kimi böyük türkoloqlar yetişir.

Nikolay Fyodroviç Katanov 1911-ci ildən Kazan Dini Akademiyasında işləməyə başlayır. 1917-ci ildə ölkədə baş verən dəyişikliklər, xüsusən 300 illik Romanovlar sülaləsinin hakimiyyətinə son qoyulması, Romanovların son nümayəndəsi İkinci Nikolayın çar taxtından endirilməsi, onun ardınca bolşeviklərin etdiyi hərbi çevriliş ona sarsıdıcı təsir edir. O pedaqoji fəaliyyətini davam etdirməyə çalışsa da elmi işlə ən məhsuldar məşğul olmalı bir vaxtında bədbinliyə qapılır. Beləcə sağlamlığı da pozulur. Buna baxmayaraq 1919-cu ildə o Umumrusiya müsabiqəsi ilə Kazan Unversitetinin professor seçilir. 1921-ci ildə Rusiya Federasiyası Xalq Təhsil Komissarlığı onu bu vəzifəyə təsdiq edir. Lakin o dövrdə ÇK adlandırılan Fovqaladə Komissiya Xalq Təhsil Komissarlığının alimə yüksək qiymət verməsini də saya salmır. Böyük alim, zəhətkeş türkoloq ideoloji baxışlarına görə cəmiyyətdə artıq adama çevrilir. Yaşamını təmin etmək məksədilə kitablarını və arxivini satır. Onun arxivi alınaraq İstanbula gətirilir. Bununla da Nikolay Fyodroviç Katanovun arxivi həm

məhv olmaqdaq qurtarılır, həm də dünya türkoloqlarının istifadəsinə verilmiş olur.

1921-ci il oktyabrın 6-da isə onu məktəbin kilisədən, kilisənin hökümətdən ayrılması haqqında Mərkəzi İcrayə Komitəsinin 1918-ci il yanvarın 23-də verdiyi qərarı pozmaqda suçlayıb bir illiyə həbs düşərgəsinə göndərir.

1922-ci ilin mart ayının 9-da dünyasını dəyişirən Nikolay Katanovu Kazan şəhərində dəfn edirlər. Ona bəraət verilməsi isə 1992-ci il avqustun 26-dək gecikdirilir.

Elmi fəaliyyətinə görə də TÜRKSOY 2012-ci ili Mirzə Fətəli Axundov və Nikolay Fyodroviç Katanov ili elan etmişdi. Bu il türk dünyasının hər bir guşəsində hər iki böyük sənətkarlarla bağlı bir-birindən maraqlı tədbirlər keçiriləcəkdir.

Anadan olmasının 150 illiyi münasibətilə TÜRKSOY-un 2012-ci ili Nikolay Fyodroviç Katanov ili elan etməsi təqdirəlayiqdir və alimin yaradıcılığının tanıdılmasında böyük rol oynadı

TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il fevralın 24-də, saat 12.14-də efirdə səsləndirilmiş və sayta qoyulmuşdur.

NİKOLAY QAVRİLOVİÇ KATANOV



Nikolay Qavriloviç Katanov (xakas. əski əlifba ilə:نیکولای قاوریلوویچ کاتانوو , rus. ,1894-1939) https://ali-shamil.tr.gg/Nikolay-Qavrilovi%E7-Katanov.htm

Nikolay Qavriloviç Katanov 1894-cü il dekabrın 5-də uzaq Sibirdən, keçmiş Yenisey quberniyasının cənubunda, Askiz qəsəbəsinin yaxınlığındakı Saraja kəndində doğulub. Onun adını evdə Pora qoysalar da, kilsəyə aparanda keşiş Nikolay qoyur. Uşağın doğulduğu kənd həm də burada yaşayan türk tayfalarından birinin – Saqay tayfasının adını daşıyırdı.

Uşağın doğulduğu zamanlarda bölgədə yaşayanları xakas deyil, Sibir türkləri adlandırırdılar. Çinlilər bu türk xalqını xakaslar adlandırdığından ruslar da onların dililə belə adlandırdılar. Sibir türkləri Rusiyanın "Parçala! höküm sür!" siyasəti nəticəsində xakas, tıva, şor, oryat, altaylı, teleut və başqa adlarla çağırılmağa

başladılar. Saqay və kaçin tayfalarının ləhcəsi əsasında bir yazı dili formalaşdırıldı və bu dil də xakas dili adlandırıldı. Araşdırıcılar dilləri təsnifatlandıranda xakas dilini də Türk dillərinin Doğu Hun qolunun Uyğur qrupuna daxil edirlər və mənşəcə qırğız dilinə yaxın olduğunu yazırlar. 8 uzun, 9 qısa səslisi və 24 səssizi olan bu dildə saitlərin qoşalaşması səciyyəvidi.

Məşhur türkoloq, Kazan Universitetinin professoru, monarxiyapərəstliyilə ad çıxarmış Nikolay Fyodoroviç Katanov böyük bacısı Marianın Qavril Leonteviç Tünitsevlə izdivacından olan ortancıl oğlunu övladlığa götürərək ona adını və familyasını verir, təhsili və təlim-tərbiyəsilə məşğul olur.

Nikolayın dayısı professor Nikolay Fyodoroviç Katanov özkeçmişində yazır ki, atam Yenisey çayına sol tərəfdən tökülən Abakan çayının sol sahillərində yaşayan Saqay qəbilə-sinin tatarlarındandı və qəbilə rəisinin katibi işləyirmiş. Bölgə 18-ci yüzildə Rusiya tərəfindən işğal edildikdən sonra yerli əhali zorla xristianlaşdırılsa da, Şaman gələnək-görənəkləri də aşkar yaşayırmış. Dağ, su, atəş və göy üzü üçün qurbanlar kəsilməsində balaca Nikolay da iştirak edirmiş. Ruhları ev heyvanlarının, insanların qoruyucusu hesab edirmiş.

Dayısının sayəsində balaca Nikolay normal təhsil ala bilir. O, əvvəlcə bölgədə mərkəzi qəsəbə sayılan Askizdəki iki sinifli kənd məktəbini bitirir, sonra da təhsilini Krasnoyarskdaki dini seminaryada davam etdirir. Nikolay Katanov 1916-ci ildə Novo Aleksandrski Kənd Təsərrüfatı İnstitutuna daxil olur.

Birinci Dünya Savaşının gedişi, savaşda Rusiyanın məğlubuyyəti, 1917-ci ilin fevralında İkinci Nikolayın hakimiyyətdən uzaqlaşdırılması ölkədəki qarışıqlığı daha da genişləndirir. Kerenskinin başçılığı ilə Müvəqqəti Hökümət qurulsa da, bir çox qüvvələr bununla razılaşmır. Hər biri hakimiyyəti təkbaşına ələ almaq istəyir. 1917-ci il iyulun 19-da Müvəqqəti Hökümətin Ali Baş Komandan təyin etdiyi general Lavr Kornilovu katetlər qiyama təhrik edirlər. Avqust qiyamı kimi tanınan bu hərəkat məğlubiyyətlə nəticələnir. Qiyama rəhbərlik edən general Krımov özünü öldürür, Lavr Kornilov, Anton Denikin və başqaları həbs edilir.

1917-ci ilin oktyabrında bolşeviklərin silah gücünə hakimiyyəti ələ alması ölkədəki qarışıqlığı daha da dərinləşdirir. Rusiyanın işğal altında saxladığı xalqlar yaranmış vəziyyətdən istifadə edərək öz dövlətlərini qurmaq istəyir. Bəzi qruplar isə yaranmış vəziyyətdən yararlanıb,

hakimiyyət, var-dövlət əldə etməyə çalışır. Bolşeviklər yeni fəhlə-kəndli ordusunu qurma planını tam həyata keçirə bilmir. Çar ordusunda xidmət edənlərin bir qismi də monarxiyapərəst olduqlarından bolşeviklərlə əməkdaşlıq etmir. Bolşeviklər mərkəzdə hakimiyyətlərini möhkəmlətmək üçün ucqarlarda baş verənlərə göz yumur. Yaranmış vəziyyətdən yararlanan generallardan Lavr Kornilov, M.B.Alekseyev, Anton Denikin Don sahillərinə gələrək 1917-ci ilin noyabrında zabitlərin, yunkerlərin, kazakların Novoçerkasskda yaratdığı Könüllü Orduya rəhbərlik etməyə başlayır. 1918-ci il aprelin 13-də Yekatirinador uğrunda döyüşdə Lavr Kornilov öldürüldükdən sonra Anton Denikin ordunun komandanı olur və 1918-ci ilin payızında Rusiyanın Güneyindəki silahlı qüvvələrin baş komandanı təyin edilir.

Anton Denikin ordusunu gücləndirmək üçün Xarkov Kənd Təsərrüfatı İnstitunun tələbələrini də səfərbərliyə alır. İkinci kursu bitirmiş Nikolay Katanov Denikin ordusunun 29-cu polkuna daxil edilir.1919-cu ildə Anton Denikin ordu birləşmələri Moskva üzərinə hücuma keçir. Lakin bu hücum uğursuz olur. Anton Denikin1920-ci ilin martında Quzey Qafqazda döyüşlərdə məğlubiyyətə uğrayaraq

Kırıma keçir və komandanlığı aprelin 4-də də Vrangelə verib xaricə gedir.

Nikolay Qavriloviç Katanovun ağqvardiyaçıların Moskva üzərinə hücumundamı, yoxsa Quzey Qafqazdakı döyüşlərdəmi bolşeviklərin əlinə keçdiyini bilmirik. Özkeçmişində 1919-21-ci illərdə Qızıl Orduda xidmət etdiyini yazır.

1921-ci ildə hərbi xidmətdən azad olub vətəninə gələn Nikolay Qavriloviç Katanovu Millətlər Nazirliyinin Minisun qəzasındakı İcraiyyə Komitəsinin bölmə müdiri təyin edirlər. O, Sovetlərin xalqlara azadlıq, kəndlilərə torpaq verəcəyinə, sülh, əmin amanlıq yaradacağına ürəkdən inanır. Var gücü ilə yeni hakimiyyətin möhkəmlənməsinə çalışır. 1923-cü ilin sonunda yaradılan Xakas milli qəzası 1925-ci ildə milli mahala çevrilir. Bütün bunlar gənc Katanovu ruhlandırır. Sovet əsgər və zabitlərinin özbaşınalığına, xalqına tutduğu divana göz yumur.

1925-ci ilin ortalarında onu qəza mərkəzi olan Askizdə tərcümə komissyasında işləməyə gətirirlər. Az zamanda işgüzarlığı, təşəbbüskarlığı ilə yalnız qəzada deyil, qəzadan uzaqlarda da diqqəti cəlb edir. O, ana dilində dərsliklər yaradılmasına, məktəb şəbəkəsinin genişləndirilməsinə çalışır.

1926-cı ildə keçiriləcək Birinci Türkoloji Qurultaya böyük ümidlər bəsləyən, orada gəbul olunacaq qanunların reallaşacağına inanan Nikolay Katanovu çox çətinliklərlə üzləşsə də Bakıya gələ bilir.

İlk iclaslarda iştirak edə bilməyən Nikolay Katanov 1926-cı il martın 6-da Səmədağa Ağamalıoğlunun sədrlik etdiyi iclasda xakas dilində çıxış edərkən öncə gəldiyi yer haqqında "Yoldaşlar, mən Birinci Ümumittifaq Türkoloji Qurultayını uzaq Sibirdən, keçmiş Yenisey quberniyasının Güneyində yaşayan xakasların adından salamlamaq üçün gəlmişəm" dedikdən sonra çıxışını davam etdirir və sonda üzləşdikləri problemi belə dilə gətirir: "1923-cü ildən etibarən, Xakas Dairə Xalq Maarif Şöbəsi nəzdində xakas dilində yazının yaradılması üçün komissiya formalaşdırılıb. Bu komissiya birinci pillə məktəblərin ilk sinifləri üçün materiallar tərtib edib. Materiallar hələ 1924-cü ilin noyabrında Xalq Maarif Komissarlığının Milli Azlıqlar Şurasına göndərilsə də, türk şrifti olmadığı üçün hələ də çap edilməyib. Odur ki, mənBirinci Qurultaya göndərərkən xahiş etdilər ki, bu qurultay bizim xakaslar üçün xüsusi olaraq burada ümumitürk şriftlər işləyib hazırlasınlar və bizim materialların çapı mümkün olsun."

Nikolay Qavriloviç Katanov Birinci Türkoloji Qurultaydan ruh yüksəkliyi ilə qayıdır. Xüsusən qonşuluqdakı Altay bölgəsindən gəlmiş Aleksey Sabaşkinin qurultay tribunasından "mən türkəm" deyə hayqırması onu bərk təsirləndirir. Vətənə döndükdən sonra tamam başqa bir yöndə çalışır. 1927-ci ildən ana dilində nəşrə başlayan "Lenin çolu" qəzetində müntəzəm məqalələr yazmağa başlayır. Milli məsələyə daha çox diqqət yetirir, Sovetlərin milli azlıqlara qayğı adı altında türkləri parçaladığını, ruslaşdırma siyasəti yeritdiyini görür.

O, Xakasiyadakı milli nəşriyyatda ədəbi redaktor işləməklə yanaşı, savadsızlığın ləğv edilməsi kurslarında dərs deyir, "Xızıl aal" qəzetiylə əməkdaşlıq edir, ibtidai siniflər üçün birinci "Xakas dilinin qrammatikası" kitabını hazırlayır.

1928-ci ildə onun ilk dəfə xakasca- rusca lüğəti çap olunur. Həmin il onu türk xalqları üçün latın qrafikalı əlifba hazırlayan komissiyaya üzv seçirlər.

Nikolay Katanov 1929-cu ildə Moskvada keçirilən Milli Azlıqların Konfransında iştirak edir. 1930-cu ildə isə onu yenə də Moskvaya Sovet Sosialist Respubilkaları İttifaqı Xalqlarının Mərkəzi Nəşriyyatında milli məktəblər üçün

dərsliklər hazırlayan redaktorların kursuna göndərirlər. Moskvadakı çıxışları və söhbətləri xüsusi xidmət orqanlarının diqqətindən yayınmır. Vətənə döndükdən sonra onu KQB istintaqa cəlb edir. İstintaqdakı hədə qorxudan sonra onu kənd məktəbinə müəllim işləməyə göndərirlər.

1930-cu ilin oktyabrında Xakas Milli Mahalı Xakas Muxtar Vilayətinə çevrilir. Kadr çatışmadığına görə onu Askiz rayon İcraiyyə Komitəsində təlimatçı vəzifəsinə gətirmək məcburiyyətində qalırlar. Nikolay Qavriloviç Katanov yaranmış vəziyyətdən istifadə edərək Askiz kəndlərində savadsızlığı aradan qaldırmaq üçün xüsusi plan hazırlayır. 1931-ci ilin sentyabrında onu yenidən məktəbə xakas dili müəllimi göndərirlər. Lakin KQB onun vilayət mərkəzində qalması, milli kadrlarla tez-tez görüşüb müzakirələr aparmasıyla razılaşmır. 1932-ci ildə Nikolay Qavriloviç Katanovu bölgənin ən ucqar kəndlərindən olan Ustsos kəndinə müəllim göndərirlər.

Nikolay Qavriloviç Katanov harada işləməsindən asılı olmayaraq fəaliyyətindən qalmır. Üzv olduğu gizli təşkilat, "Sibir Türklərinin İttifaqı" təşkilatı KQB-çiləri bərk narahat edir. 1934-cü il aprelin sonlarında onu həbs edirlər. Həmin il avqustun 31-də Doğui Sibir

Diyar Xalq Məhkəməsinin hakimi təşkilatın fəaliyyətində qanundan kənar bir iş olmadığına görə Nikolay Qavriloviç Katanova bəraət verir.

O, 1934-cü il sentiyabrın 17-dən 1936-cı il fevralın 19-dək mədəni-maarif sahəsindən kənarda işləsə də, milli yonlü fəaliyyətindən heç də uzaqlaşmır. 1936-cı il martın 13-dən mayın 1-dək Kobalsk məktəbində müəllim işlədikdən sonra Askizə qayıdaraq məktəbdə rus dili və ədəbiyyatı müəllimi işləməyə başlayır.

1937-ci il iyunun 24-də Tomsik Dövlət Pedaqoji İnstitunun ədəbiyyat fakültəsinin qiyabi şöbəsinə qəbul olunan coşğun vətənpərvəri həmin ilin oktyabrın 21-də yenidən KQB həbs edir.

Nikolay Qavriloviç Katanovla bərabər Xakasiyadan 40 nəfərə yaxın, eləcə də "Sibir Türklərinin İttifaqı" təşkilatının liderlərindən xakaslarda Konistantin Maytakov, Nikolay Aeşin, Konistantin Kokov (1907-?), Aleksey Şulbayev, Aleksey Topanov, İvan Boroqyakov, Vasili Suncuqaşev(1907-1979), altaylardan Qriqori Qurkin (1870-1937), Vasili Maneyev, Leonid Edekov, şorlardan Yakov Telqerekov, Fyodr Kusurqaşev, İvan Abdınım, Qiriqori Bıtotov, Konistantin Samrin(1895-1937), Konistantin Çuljanov, İivan Toqdınımvə b. Sovet

Sosialist Respubilkaları İttifaqını dağıdaraq Müstəqil Sibir Türk Respublikası qurmaq istədiklərinə görə mühakimə edirlər. Uzun, alçaldıcı, işgəncəli istindaqdan sonra 1938-ci il iyulun 13-də Sovet Sosialist Respubilkaları İttifaqı Ali Məhkəməsinin Hərbi Kollegiyası Nikolay Qavriloviç Katanovu ən ağır cəzaya, ölüm hökmünə məhkum edir və hökm elə həmin gün də Krasnoyarski şəhərində icra olunur.

1959-cu il iyunun 25-də Nikolay Katanova bəraət verilsə də, əslində bu formal bir sənəd olur.Onun əsərləri çap olunmur, fəaliyyətinin öyrənilməsinə və təbliğinə icazə verilmir. Son illər onun haqqında araşdırmalar aparılsa da, gənclik bununla razılaşmır. Onlar Nikolay Katanovun ideyalarının gerçəkləşməsini istəyirlər.

TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il yanvarın 30-da, saat 12.14-də efirdə səsləndirilmiş və sayta qoyulmuşdur.

NİKOLAY KONQAROV



Nikolay İvanoviç Konqarov (xakas. əski əlifba ilə نیکولای كونقاروو, rus., Конгаров Николай Иванович, 1906-1938) https://ali-shamil.tr.gg/Nikolay-Konqarov.htm

Nikolay İvanoviç Konqarov 1905-ci ildə Rusiyanın Yenisey vilayətinin Askız volostunun (bir neçə kəndi və qəsəbəni birləşdirən kiçik inzibati vahid) Konqar ulusunda anadan olub. Minusinsk qəzasındakı Askız qəsəbəsi yaxınlığındakı Arjanov yaşayış məskəni sonralar Konqar adlandırılır. Yaşayış məskəni öz adını Nikolay Konqarovun ulu babalarının adından almışdır.

Rusiya bölgəni işğal etdikdən sonra yerli əhalini yarı zor, yarı xoş xristianlaşdırdığından Sibir xalqlarını adları və ata adları xristian din xadimlərinin verdiyi adlar olsa da soyadlarını milli dillərdən gələn sözlər təşkil edirdi.

Nikolay anadan olan dövrdə bölgədəki yerli əhalinin böyük bir qismi tam oturaq həyat sürmürdü. Heyvan sürülərini fəsillərə görə bu yerdən, o birisi yerə aparır, özləri də beləcə tez-tez səyyar qurulmuş yaşayış məskənində yaşayırdılar.

Xalqı özünü Sibir türkləri adlandırırdı. Rəsmi dövlət sənədlərində isə onları gah Sibir tatarları, gah Yenisey tatarları, çox vaxt da sadəcə tuzemts kimi göstərirdilər. Qonşu xalqlar isə onları qırğız kimi tanıyırdı. Çin qaynaqlarından alınan xakas sözü isə Sovetlər hakimiyyəti illərində aktuallaşdırıldı. Beləcə Sibirdə yaşayan türklər nəinki bir-birlərindən, həm də yüzillər boyu birgə yaşadıqları, qazaxlardan, qırğızlardan, uyğurlardan ayrıldılar.

Müstəmləkəçilər türkləri bir-birindən ayıraraq kiçik xalqlara çevirsələr də bu günün özündə belə Rusyalı araşdırıcılar xakas dilindən söz açanda "xakas dili türk dillərinin Doğui hun qolunun uyğur qrupuna daxildir... Mənşəcə qırğız dilinə daha yaxındır" yazır, xakas dilinin formalaşmasından söz açanda isə "saqay, kaçin, qızıl və b. dialektləri var" deyə qeyd edirlər.

Saqay, kaçin, qızıl tayfaları isə yalnız xakasların deyil altay, teleut, şor, qazax, qırğız və b. soykökündə də iştirak etmişdir.

1917-ci ilin oktyabrında bolşeviklər silah gücünə hakimiyyəti ələ aldıqdan sonra Sibirdə vəziyyət daha da gərginləşib. Çünki bura dini inancına, əqidəsinə görə sürgün edilənlərlə yanaşı, müxtəlif cinayətlər törədənlər də sürgün olunub. 1917-ci ilin xaosundan istifadə edən cinayətkarlar silahlı dəstələr yaradıb xalqı talayır. Bölgədə hakim olmaq istəyən ağqvardiyaçılarla bolşeviklər arasındakı savaş isə ara vermir.

Bu qarışıqlıqda yeniyetmə Nikolay Konqarov təhsil ala bilmir. Siyasətdən uzaq bir həyat yaşamağa çalışır. Bölgənin sayılan nəslindən olduqlarından təsərrüfat işlərində valideyinlərinə kömək edir.

Bolşeviklər bölgədə möhkəmləndikcə əhalininin var-dövlətini əlindən zorla almağa başlayır. Konqarovlar da "kulak" elan edilərək var-dövlətləri əllərindən alınır, təqib olunmağa başlayır. 20 yaşlı Nikolay Konqarov ailəni dolandırmaq üçün Cebaj-Abakan bölgəsində meşəqıran işləyir. Onun işgüzarlığını, diribaşlığını görən rəhbərlik Kommunist Partiyasının üzvü olmasa da Nikolayı Konqarovu

Abakan və Krasnoyarskdəki partiya məktəblərində oxumağa göndərir. Sovetlərin təşkil etdiyi partiya məktəbində oxumağa göndərir. 1928-1931-ci illərdə partiya məktəbində oxuyan Nikolayı Konqarovu təhsilini başa vuran kimi partiya sırlarına keçirir və Abakan rayon Partiya Komitəsinin təşkilat şöbəsinə müdir təyin edirlər.

Nikolay Konqarov rayon partiya komitəsində çox işləmir. Onu Xakas Milli Nəşriyyatının şöbə müdirinə müavin işləməyə göndərirlər. Az sonra, yəni 1932-ci ilin fevralında daha məsul bir vəzifəyə, xakas dilində nəşr olunan "Xızıl Aal" qəzetinə redaktor təyin edirlər.

Nikolay Konqarov partiya qəzetinin redaktoru olduğu dövr milli kadrlarla özlərini beynəlmiləlçi adlandıran, əslində velikorus siyasəti yeridənlər arasındakı qarşıdurma getdikcə dərinləşir. Belə ki, bolşeviklər silah gücünə bölgədə hakimiyyətlərini möhkəmləndirdikdən, yəni əhalinin bir qismini güllələdikdən, həbsxanalara göndərdikdən, ölkəni tərk etməyə, aclıqdan ölməyə məhkum etdikdən sonra onlarla əməkdaşlıq etmiş yerli sakinlərə divan tutmağa başlayır.

1923-cü ilin sonlarında Xakas Milli Qəzası, 1925-ci ildən Xakas Milli Mahalı, 1930-cu ilin noyabrından isə Xakas Muxtar Vilayəti adlandırıldı. Bölgənin öndərləri isə Sovet hökümətinin yaratdığı bu inzibati vahidlərlə razılaşmır, bölgədə yaşayan oyrat-altaylılarla və şorlarla birlikdə Doğui Sibir Türk Respublikası yaratmaq istəyirdilər.

1934-cü ildə bolşeviklər keçmiş silahdaşları və mübarizə yoldaşları, Sovet hakimiyyətinin qurulması üçün canlarından keçməyə hazır olanları "xalq düşməni", "vətən xaini" elan edərək bir qismini güllələdilər, bir qismini isə həbsxanalarda işgəncələrlə öldürdülər.

Nikolay İvanoviç Konqarov da "xalq düşməni" və "vətən xaini" elan edilərək 1938-ci ildə güllələnən ən gənc rəhbər işçilərdəndir.

Bolşeviklərin sülh, sosial ədalət, əsarət altında olan xalqlara azadlıq və s. kimi şirin şüarlarına inanan yerli xalqların nümayəndələri verilən vədlərin yerinə yetirilməsinə səy göstərdilər. 1935-ci ildə onuRusiya Federasiyası Xalq Təhsil Komissarlığı yanında Dövlət Birləşmiş Qəzet-Jurnal Nəşriyyatı İdarəsi Xakasiya şöbəsinə direktor təyin edilər. Rəhbər vəzifələrdə olan xakaslar, altaylılar, şorlar, yerli

Sovetlərin toplantılarında “Batı Sibir Türk Cümhuriyyəti” yaradılması məsələsini gündəmə gətirdilər. Moskvanın göstərişilə mövzunu gündəmə gətirənlərin əksəriyyəti 1934-cü ildə həbs edildi.

Nikolay Konqarov bu həbslərdən qurtulsa da təqib və təzyiqlərdən qurtula bilməyib. Həqiqəti dediyinə, redaktoru olduğu qəzetdə xalqının istəklərini dilə gətirməyə çalışdığına görə onu qəzetdən uzaqlaşdıraraq tərcümə və nəşriyyat işlərinə göndəriblər.

Bununla da iş bitməyib. Nikolay Konqarovun təqib və sıxışdırılması bölgə miqyasını aşıb. Moskvada nəşr olunan, Ümumrusiya Kommunist Bolşeviklər Partiyasının orqanı “Pravda” qəzeti 1936-cı il iyulun 14-də çap etdiyi məqaləsində Nikolay Konqarovu və Qriqoru Kuçendayev [4] Sovet Konsititusiya layihəsini tərcümə edərkən təhriflərə yol verməkdə ittiham edib. Bu təhriflər

[4] 1913-cü ildə Uybat ulusunda anadan olub. Doğu Zəhmətkeşlərinin Kommunist Unversitetini bitirib. 1932-35-ci illərdə vilayət nəşriyyatda direktor, 1935-37-ci illərdə Xakasiya Vilayət İcraiyyə Komitəsində katib, 1937-ci ilin fevralından Xakasiya Vilayət Partiya Komitəsinin Məktəb və Mədəniyyət Müəssələri şöbəsində müdir işləyib. 1937-ci il oktyabrın 17-də Abakanda həbs edilib. Səkkiz il həbsdə yatdıqdan sonar vətəninə dönüb və müşə təsərrüfatında işləyib. 1950-ci il yanvarın 4-də yenidən həbs edilərək Krasnoyarski diyarına sürgün olunub. Həyatının son illəri haqqında bilgi əldə edə bilmədik

sadəcə tərcümə zamanı baş vermiş qüsurlar kimi dəyərləndirilməyib. Onu tərcüməcilərin millətçiliklərindən, bolşeviklərin yeritdiyi siyasi xəttilə razılaşmadıqlarından doğan bir hal, siyasi təxribat kimi qiymətləndiriblər. Beş gün sonra isə Ümumrusiya Kommunist Bolşeviklər Partiyası Xakasiya Vilayət Komitəsinin bürosunda məsələ geniş müzakirə edilib.

Nikolay Konqarova partiya cəzası verilib və tutuğu vəzifədən uzaqlaşdırılaraq Xakasiya Vilayət İcraiyyə Komitəsinə katib göndərilib. Təqib və təzyiqlərdən asılı Nikolay Konqarov mövqeini dəyişməyib. 1937-ci il oktyabrın 9-da Xakasiyadakı burjua-millətçi, sağ trodskiçi, əksinqilabçı təşkilatın üzvü suşlaması ilə həbs edilir. Uzun sürən istintaqdan sonra 1938-ci il iyulun 13-də Krasnoyarsk şəhərində Sovet Sosialist Respubilkaları İttifaqı Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarı ilə güllələnib.

Ailəsinin şikayəti əsasında 1957-ci il mayın 21-də Nikolay Konqarova bəraət verilsə də onunla bağlı həqiqətlər hələ də aşkarlanmayıb.

TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il aprelin 20-də, saat 12.14-də efirdə səsləndirilmiş və sayta qoyulmuşdur.

STEPAN MANAQAŞEV

Stepan Maynaqaşev *(əski əlifba ilə:* آنامپئديس سوفورانوو, *rus. Степан Дмитриевич Майнага́шев,*1886 -1920*)*
https://ali-shamil.tr.gg/Stepan Manaqa%26%-23351%3Bev.htm



Stepan Dmitriyeviç Maynaqaşev 1885-ci il dekabrın 27-də Rusiya İmperiyası Yenisey quberniyası Minusinsk dairəsinin Askiz çölündəki İresov aulunda doğulub. 1918-ci ildə Qriqorian təqvimində dəyişiklik edildiyindən onun doğum günü və ili 8 yanvar 1886-cı il kimi yazılır. Stepanın iki qardaşı və iki bacısı olub. Qardaşlarına ailədə Terenti və Paysa qoysa da kilsədə xaç suyuna salınanda adları Terek və Vasili kimi yazılıb. Bu ailə Saqay Xakaslarının Tomnar soyundandır.

Stepan diribaşlığı, hazırcavablığı, işgüzarlığı ilə uşaqlığından yaşıdlarından seçilib. Aullarında məktəb olmadığından oxumağa gec

başlayıb. Askizdəki hökümətin açdığı iki sinifli məktəbi bitirdikdən sonra 1906-1907-ci illərdə bölgənin inkişaf etmiş mərkəzlərindən olan Krasnoyarski Ruhani Seminariyada təhsilini davam etdirib. Seninariyanı başa vurduqdan sonra Askizdəki yerli xalqlarla iş idarəsində işlədi. Üç ilədək burada işləyən Stepan Maynaqaşev rus məmurlarının yerli xalqlara tutduğu divanın şahidi oldu. Yerli xalqların rus dilini, qanunları bilməməsi isə onların daha çox yöndən istismar edilməsinə, haqlarının tapdanmasına səbəb olurdu.

Xalqına yardımçı olmaq, onları maarifləndirmək üçün Stepan Maynaqaşev 1910-1911-ci illərdə Tomsk Universitetinin azad dinləyici olub. Təhsil illərində Mərkəzi Asiyanın araşdırıcısı, görkəmli Rus alimi Qriqoriy Potaninlə (1825-1920) tanış olaraq ondan Sibir türklərinin folklorunu, etnoqrafiyasını, ləhcələrini öyrənməyin metodunu öyrənib. Lakin yaşadığı mühitə sığmadığından Moskvaya gedib. Polşa mənşəli, Rus generalı, qızıl sənayesinə rəhbərlik edmiş, xeyriyyəçi Alfons Şanyavskinin (1837-1905) vəsaiti hesabına 1908-ci ildə açılmış və onun adını daşıyan Moskva şəhərindəki Xalq Universitetinin hüquq və içtimai

fənnlər fakültəsinə oxumuşdur. Rusiyanın tanınmış alim və aydınlarının mühazirə oöuduğu bu Xalq Universiteti ölkədə azad, qeyri-rəsmi ali təhsil ocağı kimi tanınıb. Universitetə qəbul rəsmi şəkildə dövlət nəzarətində olmadığından Qafqazdan, Volqaboyundan, Krımdan və Türküstandan gələn türk və müsəlman inanclı gənclər də burada oxuya biliblər. Təhsil illəri onun dünyagörüşünün formalaşmasına güclü təsir edib və ömür yolunu müəyyənləşdirib.

Moskvada yaşadığı və oxuduğu illərdə Stepan Maynaqaşev dövrünün tanınmış alimlərindən Vasiliy Radlov (1837-1918), Lev (Xaim-Leyb) Şternberq (1861-1927), Aleksandr Samoyloviç (1880-1938) və b. tanış oldu. Diribaş Sibirli gənc də alimlərin diqqətini özünə çəkdi. Aleksandr Samoyloviç (1880-1938) ona Peterburqdakı Rusiya İmperiya Coğrafiya Cəmiyyətinin etnoqrafiya şöbəsi və Rusiyanın Orta və Doğui Asiyanı Öyrənən Komitəsi ilə əlaqə yaratmaqda vasitəçi oldu. Beləliklə Stepan Maynaqaşevin Sibirə ekspedisyalara getməsinə və oradan gətirdiyi materialları çap etdirməsinə şərait yarandı. Stepan Maynaqaşevi 1913-cü ildə Minusin qəzasına dil, folklor və etnoqrafiya materialları toplamağa göndərdilər. Onun səfəri

uğurlu alındı. Rusiya İmperiyası Coğrafiya Cəmiyyətinin etnoqrafiya şöbəsində "Sağay və qonşu tayfaların şamanlarından toplanmış materiallar" mövzusunda məruzəsi dinlənildi. Topladığı materiallar 1913-cü il dekabrın 20-də "Sibir" qəzetində və Petroqraddakı "Jivaya starinna" toplusunun 3-4-cü saylarında nəşr edildi. Onun "Rusiya Komitəsinin xəbərləri"ndə dərc etdirdiyi "1913-cü ilin yayaında Abakan çayı vadisində yaşayan türk tayfalarının yaşadığı bölgələrə səyahət haqqında hesabat"ı və İmperator Böyük Pyotr adına Antropologiya və Etnoqrafiya Muzeyinə təqdim etdiyi 354 fotoşəkil bu gün də elmi əhəmiyyətini itirməmişdir. Toplanmış və nəşr edilmiş materiallar elmi ictimaiyyətin və hökümətin Sibir xalqlarını öyrənən dairələrinin diqqətini çəkdi. Odur ki, Stepan Maynaqaşevi 1914-cü ildə yenidən Sibirə gedən ekspedisyanın tərkibinə daxil etdilər. Ona şamanların öyrənilməsinə daha çox diqqət yetirməsi tapşırıldı. Tapşırığı uğurla yerinə yetirən araşdırıcının topladığı materiallar 1914 və 1915-ci illərdə Petroqradın elmi jurnallarında nəşr edildi.

Ekspedisyalar zamanı xalqı ilə daha yaxından tanış olan, yaşadığı bölgənin maddi və

manəvi sərvətlərinin zənginliyinə heyran qalan Stepan Maynaqaşev başa düşdü ki, Sibir Türkləri əsarətdən azad olsalar müstəqil dövlətlərini qura və firəvan yaşaya bilər. Buna görə də elmi fəaliyyətini ictimai-siyasi fəaliyyətlə əvəzlədi. Açıq-aşkar görür ki, Rusiya savaşda uduzur, ölkəni bir xaos bürüyür. Rusiya İmperyasının zəifləməsindən istifadə edərək xalqının azadlığa çıxması üçün mübarizəyə atıldı.

Stepan Maynaqaşev 1917-ci ildə Birinci Xakas Xalq Qurultayının çağrılmasına nail oldu. Çarı hakimiyyətdən devrilib Müvəqqəti Hökümət qurulsa da əsarət altında olan xalqlar hələ də istiqlaliyyətini qazana bilməmişdi.

1917-ci il iyulun 20-də çağrılan İkinci Xakas Xalq Qurultayında Milli Komitə yaradıldığı elan edildi və onu da komitənin icraiyyə bürosuna rəhbər seçildi.

Bolşeviklərin Petroqradda silah gücünə hakimiyyəti ələ almaları bölgələrdə vəziyyəti daha da gərginləşdirdi. 1917-ci ilin noyabrın 8-17-də bölgədə idarəetməni nizama salmaq məqsədi ilə Tomskdə Birinci Sibir Vilayət Qurultayı keçirildi. Birinci Qurultayın hazırlanmasında və keçirilməsində fəal iştirak edən Stepan Maynaqaşev keçmiş yüksək rütbəli

çar zabitlərinin, boşeviklərin bölgədə hakimiyyəti ələ almaq və möhkəmlənmək üçün yerli xalqlara necə qəddarlıqla divan tutduqlarının şahidi oldu. O, xalqının bu güclərə qarşı duruş gətirə bilmədiyini görüb onların hər hansı biri ilə də olsa ittifaqda hərəkət etməyi planlaşdırdı. 1917-ci il noyabrın 26-da Minusinskdə Üçüncü Fəhlə, Kəndli və Əsgər Deputatları Sovetinin qurultayınada iştirak edən Stepan Maynaqaşev bolşeviklərin çevrilişi ilə razılaşmayanların sırasına qoşularaq 1917-ci il dekabrın 7-15-də fövqaladə Sibir Qurultayında iştirak edir. Qurultay, Sibir Vilayət Dumasını seçdi, Stepan Maynaqaşev də dumanın tərkibində oldu.

1918-ci ilin yanvarında Minusinski Fəhlə, Kəndli və Əsgər Deputatları Sovetinin Dördüncü Qurultayında iştirak edən və icraiyyə komitəsini məhkəmə orqanları, may ayından isə sosial təminat şöbəsində işləyən Stepan Maynaqaşevi 1918-ci ilin iyununda keçirilən Yeddinci Sovetlər Qurultayına xakas xalqının rəhbəri kimi göndərdilər.

1918-ci ilin iyulunda Müvəqqəti Sibir Hökümətinin qurulmasında da fəal iştirak edən Stepan Maynaqaşev hökümətin güclənməsi üçün

əlindən gələni əsirgəmədi. Lakin daxili ziddiyətlər, xarici ölkələrin təzyiqləri, bolşeviklərlə açıq savaşlar Müvəqqəti Hökümətin məğlubiyyətinə səbəb oldu.

Bolşeviklərin Sibiri işğalından bir neçə ay sonra, yəni 1920-ci il martın 20-dəMinisin qəzasından İresov auluna milis dəsdələri göndərilb. Milislər Stepan Maynaqaşevi və qohumlarının əksəriyyəyini həbs ediblər. 1920-ci il aprelin 29-da Stepan Maynaqaşev bir çox qohumu ilə birlikdə Fövqaladə Komissiyanın qərarı ilə güllələnib.

Onun adının çəkilməsi, irsinin öyrənilməsi 70 il yasaqlansa da xalq heç zaman Stepan Maynaqaşev unutmadı. Sovetlər Birliyi dağıldıqdan sonra onun adının əbədiləşdirilməsinə nail oldular.

TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il martın 6-da, saat 12.14-də efirə getmişdir.

QRİQORİ ÇOROS-QURKİN



Qriqori Çoros-Qurkin *(altay. , əski əlifba ilə:* قريقورى قوريكين*, Григо́рий Ива́нович Гу́ркин,* 1870 - 1937*) https://ali-shamil.tr.gg/Qriqori-%C7oros_Qurkin.htm

Qriqori İvanoviç Çoros-Qurkin 1870-ci il yanvarın 12-də (yeni təqvimlər 24-də) Dağlıq Altayın Biyski qəzasının Ulala kəndində xiristianlaşdırılmış türk ailəsində doğulub. Onun sayadını kilisədə Tıdıkov yazsalar da sonralar bu soyadı unudulub, özünün qəbul etdiyi Çoros-Qurkin soyad ilə tanınıb. Səkkiz yaşında missionerlərin kilsələr üçün ikona hazırlayan məktəbdə usta yanına şagird verilib. O, burada yalnız ikona hazırlamağı deyil, ağacları növünə və yaşına görə necə qurutmağı, ağac parçasının və taxtanın illər keçəndən sonra da rəngini qoruyub saxlaması üçün nələr etmək lazım gəldiyini, bir sözlə ikona sənətinin sirlərini və təsviri sənəti öyrənir.

Car Rusiyası Sibiri ələ keçirdikdən sonra oraya missionerlərini göndərərək yerli xalqları yarı zor, yarı xoş xristianlaşdırmağa çalışırdı. Gələcəyin böyük rəssamı və mübariz vətənpərvəri Qriqori Çoros-Qurkinin atası xaç suyuna salınaraq xristianlaşdırılmış və kilisədə ona İvan adı verilmişdi. Bölgənin məşhur Çoros nəslindən olduqlarına görə Qriqori rəssam kimi məşhurlaşanda özünə nəslinin adını ləqəb götürür.

Yaşıdlarından əl qabiliyyəti və baçarığına görə seçildiyi üçün onu sənətin sirrlərini öyrəndiyi məktəbdə usta – müəllim saxlayırlar. Az bir vaxtda Qurkin bölgədə həvəskar rəssam, ikona ustası kimi tanınır. Batı Sibirin mərkəzlərindən sayılan Tomsk şəhərinə tez-tez gedən rəssam, oradakı ədəbi-mədəni mühitlə yaxından tanış olur.

Tale onu 1896-cı ildə bölgəyə ekspedissiyaya gəlmiş etnoqraf, bəstəkar və şair A.B.Anoxin, coğrafiyaçı və səyyah, Sibir xalqlarının folklorunu toplamış Q.N.Potanin, geodeziyaçı pofessor, sonralar Rus ədəbiyyatına "Uqrum çay" kimi dəyərli roman bəxş etmiş B.Y.Şişkovla görüşdürür. Onlar Qiriqori Qurkinin əl işlərinə heyran qalırlar.

Fitri istedad sahibinə Avropa rəssamlıq məktəbi barədə bilgi verirlər və məsləhət görürlər ki, Sankt-Peterburqa gedib oradakı rəssamlıq akademiyasında təhsil alsın.

Paytaxta gələn və 1897-ci ilin oktyabrında Peterburq Rəssamlıq Akademiyasına imtahan verən Qriqori Qurkini qəbul etmirlər. Necə deyərlər ixtisas imtahanından ümumi biliyinin zəif olması və rəssamlıq hazırlığı yetərincə olmadığına görə kəsilir. Məşhur mənzərə ustası İvan Şişkin (1832-1898) isə fitri istedadını görərək Qriqorini emalatxanasında işə götürür. O, burada üç il çalışdıqdan sonra 1899-cu ilin martında akademiyanın mənzərə sinfinə daxil olmağı bacarır. Oncə İvan Şişkin (1832-1898), o öldükdən sonra isə A.A.Kiselovun (1838-1911) sinifində oxuyur və rəngkarlığın sirlərinə dərindən yiyələnir.

Akademiyanı bitirdikdən sonra, yəni 1903-cü ildə vətənə dönən rəssam bir rus qadını ilə evlənir və Anos kəndində, Katun çayının sahilində, gözəl bir guşədə özünə ev tikərək Sibir mənzərələrini kətana köçürməyə başlayır. Əsərləri Sibirin ən nüfuzlü insanlarının otaqlarını bəzəyir. 1907-ci ilin dekabrın 23-də Tomskdə açılmış fərdi sərgisi ona böyük uğur qazandırır. Peterburqlu sənət tənqidçiləri Qriqori Çoros-

Qurkinin mənzərə janrında çəkdiyi tablolar haqqında yüksək fikir söyləyirlər.

Qriqori Qurkinin Omskdə, Barnaulda, Krasnoyarskidə, Novonikolayevskidə açılan sərgiləri də uğurlu olur. Rəssamın əsərləri satılır, ona yeni sifarişlər verilir.

Qriqori Çoros-Qurkinin "Katunda bahar", "Laje gölü" və "Xan Altay", "Yadıqem çayı", "Karakol", "Altay. Dağ vadisi", "Katun çayının qolları", "Dağ gölünün ruhu" və başqa əsərləri böyük maraqla qarşılanır. O, mövzu axtararkən Batı Sibiri qarış-qarış gəzməli olur. Zəngin təbii sərvəti və əvəzsiz gözəlliyi olan bölgənin sürgün yerinə çevrilməsi, soydaşlarının doğma yurdlarında ikinci dərəcəli insan sayılması və ac-yalavac yaşaması onu çox narahat edir.

Açıq-aydın görür ki, yarı zor, yarı xoş soydaşlarının xristianlığı qəbul etməsi milli ayrıseçkilyi aradan qaldırmayıb. Nəinki çar məmurları, hətta hökümətdən narazı olduqlarına görə Batı Sibirə sürgün edilən rus ziyalılarının böyük əksəriyyəti də onun xalqına yuxarıdan aşağı baxır.

Odur ki, soydaşlarını öz haqları uğrunda mübarizəyə, hüquqlarını qorumağa, maarif-lənməyə həvəsləndirir. Rus dilində təhsil almasına, özünü xristian saymasına baxmayaraq

rəsm əsərlərini ana dilində adlanırır, babalarının inanclarına sayqı ilə yanaşır və onu içində yaşadır.

1917-ci ilin fevralında çar İkinci Nikolayın hakimiyyətdən uzaqlaşdırılması, Romanovlar sülaləsinin 300 illik hakimiyyətinə son qoyulması Qriqori Qurkində ruh yüksəkliyi yaradır. O, düşünürdü ki, Rusiya demokratik bir ölkəyə çevriləcək və soydaşları da əsarətdən qurtulacaq. Lakin bolşeviklərin hakimiyyəti zorla ələ almaları vəziyyəyi daha da ağırlaşdırır. Ölkəni vətəndaş Savaşı bürüyür. Xalqını azad görmək istəyən rəssam milli ayrıseçkiliyə son qoyulmasını tələb etdiyinə görə separatizmdə, Rusiyanı parçalamağa cəhddə suçlanır.

1919-cu ilin aprelində Kolçakın qurduğu oyuncaq hökümət Qriqori Çoros-Qurkinin həbs edilməsinə göstəriş verir. Dostlarının və bölgənin nüfuzlu insanlarının təsiri ilə zamınə buraxilsa da vəziyyətin getdikcə gərginləşdiyini görərək Monqolustana qaçmaq məcburuiyyətində qalır.

Bolşeviklər Sibiri yenidən tutduqdan sonra da Qriqori Çoros-Qurkin vətənə dönmür. O zaman müstəqil respublika olan Tuvaya gedir.

Beş ilə yaxın Tuvada yaşayan və yaradıcılıqla məşğul olan rəssamı Sovet emissarları dilə tutaraq vətənə qaytara bilirlər. İlk

günlər ona sayqı ilə yanaşır, Batı Sibirin inzibati mərkəzinə çevrilmiş Novosibirsk şəhərində və Moskvada fərdi sərgisini açırlar.

1926-cı ildə Moskvada açılmış fərdi sərgisinə hökümətin ən məşhur simalarından olan, mədəniyyət və incəsənət işlərinə rəhbərlik edən xalq komissarı Lunaçarski də gəlir. Lunaçarski Qriqori Qurkinin əsərləri haqqında mərkəzi mətbuatda yüksək fikirlər söyləyir.

Təriflər, sərgilər rəssamın həqiqəti görməsinə əngəl törədə bilmir. O, cəmiyyətdəki nöqsanlara dözə bilmədiyindən rəsmi toplantılarda da bolşeviklərin Sibirdə yaşayan türk xalqları ilə çar məmurları kimi davrandıqlarını söyləyir. Rəhbər vəzifədə olan soydaşları ilə də açıq müzakirələrə girişir, razılığa gəlirlər ki, mərkəzi hökümət qarşısında Batı Sibir Türk Respublikası yaradılması məsələsini qaldırsınlar. Məsələni bölgənin rəsmi toplantılarında gündəmə gətirirlər. Xakasların, Şorların, Oyrat-altayların çoxluq təşkil etdiyi bölgədə Batı Sibir Türk Respublikası yaratmaq ideyası xalq kutlələri tərəfindən də rəğbətlə qarşılanır.

Mərkəzi hökümət bölgədə yerini lazımınca möhkəmlətmədiyindən bu məsələyə sərt münasibət göstərmir, əsas ağırlığı silahlı

müxalifəti məhv etməyə yönəldir. İstəyinə nail olduqdan sonra Sibirə sürgün edilmiş başqa mllətin nümayəndələrinin əliylə yerli xalqların öncüllərini cəzalandırmağa başlayır.

İdarəetmədə yerli xalqların nümayəndələrinin olmadığını, inzibati-ərazi bölgəsinin düzgün qurulmadığını, milli hüquqların tapdalandığını söyləyən insanlar millətçilikdə, antisovet təbliğat aparmaqda, xarici ölkələrin xüsusu xidmət orqanları ilə əməkdaşlıqda suçlandırılırlar.

1934-cü ilin aprelində Qriqori Çoros-Qurkin də daxil olmaqla 37 nəfər həbs olunur. Onların arasında 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayın iştirakçısı Nikolay Qriqoryeviç Katanov da olur.

Dörd aylıq istintaqdan sonra Batı Sibir Türk Respublikası ideyasının tərəfdarlarının məhkəməsi başlayır. Lakin bu məhkəmə o qədər də sərt keçmir. "Yaponyanın dəstəyi ilə Sibir türklərinin birliyinə nail olmaqda, Batı Sibir Türk Respublikası qurmaqda" suçlananların bir qisminə içbari iş verilir, bəziləri də cinayəti sübut edilmədiyindən azadlığa buraxılır. Lakin bunlar ötəri və keçici bir proses idi, qarşıdan daha ağır günlər gəlirdi.

1937-ci ildə Qriqori Çoros-Qurkin yenidən həbs edilir və ağır işgəncələri başlayır. Krasnoyarsk şəhərində fəaliyyət göstərən Ali Məhkəmənin Hərbi Kollegiyası Qriqori Çoros-Qurkin və məsləkdaşlarına ölüm hökmü oxuyur. Taleyin qəribəliyi orasında idi ki, 1937-ci ildə Qriqori Qurkinə qarşı əks cəbhədə olanlar, Moskanın tapşırıqlarını yerinə yetirənlər də həbs edilir. Dağlıq Altayın görkəmli siyasi və dövlət xadimi, Sovetlərin bölgədəki ən güclü ideoloqu Nikitı Fyodroviç Medjum-İvanov da 1937-ci il oktyabrın 11-də Qriqori Çoros-Qurkinlə birlikdə güllələnir.

İllər keçir. Qriqori Çoros-Qurkin və onun kimi minlərlə insana 1956-ci ildən sonra bəraət verilir. Adının əbədiləşdirilməsi, əsərlərinin təbliği sahəsində bəzi işlər görülür. Lakin hələ də Qriqori Çoros-Qurkinin arzuları reallaşmayıb.

TRT və Azərbaycan İçtimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il mayın 10-da, saat 12.14-də efirə getmişdir.

TARİX YENİDƏN YAZILIR:
EJER ÇOLOKOV

Ejerlə ilk tanışlıqda onu elə qucaqlayıb sıxışdırdım ki, az qala sümükləri sınsın. Sevincdən gözlərim yaşardı. Yazıq uşaq çaşıb qalmışdı. Bilmirdi tanımadığı, ilk dəfə üzünü gördüyü bu adam ondan nə istəyir. Təəccüblə bizi tanış edən Arif Acalın üzünə baxırdı. Arifin isə üzündə bu tanışlıqdan doğan bir sevinc vardı. O, sanki, göyün yeddinci qatındaydı. Bizi tanış etməyindən duyduğu məmnunluq Arifi sanki sərxoş etmişdi. Ağzını açıb bir söz demirdi. Mənim də həyəcandan nitqim tutulmuşdu. Xoş bir söz tapıb Ejeri çaşqınlıqdan qurtara bilmirdim. Həyəcanlanmağım, sevincimdən qeyri-iradi hərəkətlər etməyim səbəbsiz deyildi...

Yüksək okulda oxuduğumuz illərdə milli şüurlu gənclər arasında bir sual tez-tez təkrarlanırdı: "Nə üçün özbək, qazax, türkmən və b. türk xalqlarının dillərində yazılmış şer və poemalar, hekayə və romanlar, elmi əsərlər rus dili vasitəsilə dilimizə çevrilir? Niyə birbaşa çevirmələr yox dərəcəsindədir? Birbaşa çevirmələr axı daha asandır. Asanı qoyub niyə çətinə gedilir? Niyə Rusiyanın müxtəlif

şəhərlərindəki yüksək okullara Azərbaycandan gənclər göndərilir, ancaq Özbəkistana, Türkmənistana, Qırğızıstana, Qazaxıstana göndərilmir?"

Bu və buna bənzər sorular yörəsində çox baş sındırır, mübahisələr edirdik. Son ucda bu qənaətə gəlirdik: "Türklərin yaşadıqları bölgələr arasında istər mədəni, istərsə də iqtisadi əlaqələrə Moskva mane olur. Çarlıq vaxtında da belə olmuşdu. Çar devrilsə də, quruluşun dəyişildiyi elan edilsə də, Rusiyanın müstəmləkə siyasəti dəyişməmişdir. 1920-ci illərdə—Rusiyanın gücdən düşdüyü vaxtlarda xalqlara qarşı sərt münasibət mədəniyyət sahəsində xeyli yumşalmışdı. Bakının yüksək okullarında, texnikumlarında Özbəkistandan, Krımdan, Dağıstandan və b. bölgələrdən gəlmiş tələbə dəstələri oxumuşdu. Hətta Azərbaycan mətbəələrində kitablar, jurnallar çap edilmişdi. 1937-ci ilin irticası isə buna son qoymuşdu.

1970-ci illərdən sonra yenə belə bir yumşalma hiss edilirdi. Ukraynadan gəlib Azərbaycan türkcəsini öyrənən tələbələr bizimlə bir yataqxanada qalırdılar. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində oxuyan Akif Bağırovu isə ikinci kursu bitirdikdən sonra

Daşkənd Universitetinin filologiya fakültəsində oxumağa, özbəkcəni öyrənməyə göndərmişdilər. O da, yüksək okulu bitirəndən sonra aspiranturaya girdi, bilgin oldu, orda qaldı.

Uzun fasilədən sonra Azərbaycanın yüksək okullarında türk xalqlarının övladları təhsil almağa başlamışdılar. Ejer də onların ilk qaranquşlarından idi. O, M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin filologiya fakültəsində oxuyurdu. Azərbaycan türkcəsini, ədəbiyyatımızı, tariximizi öyrənəcəkdi.

Ejer Çolokov qarşıya qoyulmuş vəzifəni çox başarıyla yerinə yetirdi. Qısa müddətdə Azərbaycan türkcəsini öyrəndi. Qazaxlı uşaqlarla oturub-durduğundan, dostluq etdiyindən danışanda ədəbi dildə deyil, Qazax ləhcəsində danışırdı. Onun üz quruluşu da onlara oxşayırdı. Çox vaxt onun Altaydan gəldiyinə inanmırdılar. Yaxından tanımayanlar onu qazaxlı, yaxud Borçalı balasına, qarayazılıya oxşadırdılar.

Buna bəzən özü də ürəkdən gülürdü. Zarafatla deyirdi: “Bu azərbaycanlılar qəribə insanlardı, kimə deyirəm mən altaylıyam, Dağlıq Altaydan gəlmişəm inanmır, elə ki yalandan Borçalıdan, ya Qarayazıdan, ya da Qazaxdan olduğumu deyirəm, həmin dəqiqə inanırlar”.

Ejerin belə zarafatları bəzən onun başına bəla olur, onu çıxılmaz vəziyyətdə qoyurdu. Ondan küçədə, bazarda "haralısan?"—deyə xəbər alanlara dostlarının rayonunu, kəndinin adını deyəndə "Kimin oğlusan?"—deyə soruşanlara cavab verə bilmirdi. "Bizim kənddə sənin kimi adam yoxdur." —deyə məzəmmət edilirdi. Bütün bunlara baxmayaraq, zarafatından qalmır, ciddi cəhdlə "azərbaycanlı olduğunu" sübut edirdi.

Ejer oxumağa gələn vaxtlarda Azərbaycanda çox az adamın Altay türkləri haqqında bilgisi vardı. Odur ki, Ejer Azərbaycanı öyrənməklə yanaşı, bizləri də öyrədir, Altayı və altaylıları tanıdırdı.

1988-ci ildə xalq hərəkatı başlayandan sonra sərbəst toplanmaq imkanı əldə etdik. Bu imkandan yalnız siyasi məqsədlər üçün istifadə etmir, həm də maarifçilik işi aparırdıq. Ejeri də Naxçıvana aparmağı, Tarix muzeyi nəzdində yaratdığımız "Yurd" birliyində, institutda, kəndlərdə, çayxanalarda təşkil etdiyimiz toplantılarda çıxışını təşkil etməyi planlaşdırdıq.

Bakıda 1988-ci il noyabrın 16-da başlayıb dekabrın 4-dək davam edən çoxminli mitinq başımızı qatdı. Sonra da mitinqin təşkilatçılarının və fəal iştirakçılarının həbsi və təqibləri başladı.

Xalq hərəkatında bir durğunluq və geri çəkilmə oldu. Müvəqqəti sakitlikdən sonra yenidən hərəkətə gəlmək lazım idi. Çoxminli mitinqlər təşkil etmək mümkün deyildi. Xalqı buna hazırlamaq üçün kiçik toplantılara, yığıncaqlara ehtiyac vardı.

1993-cü ilin aprelində Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsində oxuyan, xalq hərəkatının öncüllərindən olan Əlisəfa, Bahəddin, Tina 4-cü kursda oxuyan Ejer Çolokovu və universitetin şərqşünaslıq fakültəsinin türk dili tərcüməçisi bölümünün birinci kursunda oxuyan qaqauz Tudora Arnautu Naxçıvana gətirdilər. Ejer Çolokov ötən illərdə Azərbaycan televiziyası və radiosunda çıxış etdiyindən, qəzetlərə müsahibə verdiyindən əhalinin müəyyən bir qrupu tərəfindən tanınırdı. Sovetlər Birliyində rejimin yumşalması türkçülüyün inkişafına da təkan vermişdi.

Oğlanları bizim evdə, qızları isə "Sovet Naxçıvanı" qəzetində tərcüməçi işləyən, iş yoldaşım və qonşumuz Tahirə Müslümqızıgildə yerləşdirdik. Birinci gün nisbətən sakit keçdi. Qonaqları Naxçıvan şəhrinin görməli yerləri, tarixi anıtları və muzeyləri ilə tanış etdik. İkinci gündən isə sıx proqramımız başladı. Biz hər

toplantı üçün 3 saat nəzərdə tutmuşduq. Amma adamların söhbətlərə marağı və həvəsinin çoxluğundan yığıncaqlar adətən 4-5 saat sürürdü. Vaxtın çoxu sual-cavablara ayrılırdı. Adamlar acgözlüklə suallar verir, maraqla cavabları dinləyirdilər. İstəmirdik heç kimin ürəyində sözü qalsın. Hamıya ürəyini boşaltmağa imkan verirdik (bəziləri mövzudan, mətləbdən kənara çıxıb, şəxsi problemlərindən danışsa da). Təntənəli yığıncaqlara, toplantılara alışmış yazıçı və şairlər, partiya işçiləri belə, xalqın 18-20 yaşlı gənclərin söhbətlərinə heyranlıqla qulaq asmalarına mat qalırdılar. Toplantılar bir-birindən 30-35 kilometr aralıda olan kəndlərin mərkəz meydanlarında, çayxanalarda, klublarlarda keçirilirdi. Xəbər verməyə imkan yox idi. Dost-tanış böyük həvəslə bizi şəxsi maşınları ilə bu kənddən o kəndə aparırdı. Rayonların partiya, sovet, milis işçiləri isə bu toplantıları dağıtmağa təşəbbüs də göstərmirdilər.

Biz adamlar qarşısında yalançı çıxmayaq deyə, toplantının uzanması nəticəsində itirdiyimiz vaxtı nahar fasilələrini ixtisara salmaqla, yolda maşının sürətini artırmaqla çıxmaq istəyirdik. Belə vaxtlarda Tudora utanıb sussa da, Ejer zarafatla “yemək verməsəniz,

danışan deyiləm!", "Heç olmasa, yüz qram araq verin içim ki, ayaq üstə durum. Yoxsa acından yıxılacağam!" deyirdi. Biz də ona bolluca vəd verirdik. Yemək məsələsi isə qalırdı axşam saat 21-22 civarına.

Bax beləcə, onlar həm Naxçıvanı gəzir, həm də xalqları haqqında bilgi verirdilər. Ejer Azərbaycanı nisbətən yaxşı gəzsə də, dostları ilə dəfələrlə Qazaxın, Borçalının kəndlərində olsa da, bəzən heyrətini gizlədə bilmirdi. Bir dəfə həyəcanla "müəllim, siz Azərbaycan türkləri özünüzü müsəlman sayırsınız?" —deyə xəbər aldı. Mən də eyni ahənglə yarıciddi, yarızarafat "buna şübhən var?" —deyə soruşdum.

— Əshabi-Kəhfə getdim, gördüm dağdağan ağacının budaqlarına nə qədər əski bağlanıb. Elə bildim Altaydayam! İmamzadaya getdim, gördüm binanın içərisində qara daşlar var. Adamlar o daşlara sitayiş edirlər. Yenə yadıma doğulub boya-başa çatdığım yerlər düşdü. Qazaxın Aslanbəyi kəndində, Borçalıda olduğum meyxana məclisləri yadıma Şaman-qam mərasimlərini salırdı. Sovet hakimiyyəti illərində onlarla şamanı öldürdülər, həbs etdilər, sürgünə yolladılar, şamançılıq əleyhinə illərlə təbliğat apardılar. Amma şamançılığı xalqın ruhundan

qopara bilmədilər. İslam dini 1400 ildi daşa, ağaca sitayişi yasaqlayıb. Siz bu yasaqlara baxmayaraq, bizimkilər kimi, hələ də inanclarınızda sabitsiniz, şaman mərasimləri keçirirsiniz. Bizdə hər nəslin öz ağacı var —deyə Ejer sözünə davam etdi. —Yaylağa çıxanda həmin ağaca sitayiş edir, budağına parça bağlayır, dibində qurban kəsirik. Müqəddəs dağlarımız, qayalarımız var. Onlara da qurban kəsirik. Biz müsəlman deyilik, ona görə bunları edirik. Siz ki müsəlmansınız, niyə bunları edirsiniz? —dedi.

Ona xalqlarımızın tarixindən, soykökünün eyniliyindən, Ata Ruhuna ehtiramdan və s. söhbət açdıq. Naxçıvan Dövlət Pedaqoji İnstitutunun öyrətməni, filologiya elmləri adayı Arif Rəhimoğlunun mifologiya mövzusunda söhbətlərini uşaqlar daha böyük maraqla dinləyirdilər. Ejer və Tudora bir neçə gün də institutun yataqxanasında qalıb axşamlar tələbələrlə diskussiyalarda iştirak etdilər. Onların Naxçıvan Televiziya və Radiosundakı çıxışları, özəlliklə də ana dillərində şer oxumaları, qəzetlərə verdikləri müsahibələr maraqla qarşılandı. İstər toplantılardakı, istər radio və televiziyadakı çıxışlarını eşidən naxçıvanlıların

çoxu heyrətlə deyirdilər: “Onlar da bizim kimi danışır ki”.



Ejergil Naxçıvana Bakı-Noraşen qatarı ilə gəlmişdilər. Araz çayı üzərindəki Xudafərin körpüsünü heç olmasa bir dəfə vaqonun pəncərəsindən görmək üçün bütün gecəni yuxusuz keçirmişdilər. Görüşlərdə, süfrə arxasında Azərbaycanın parçalanması məsələsi tez-tez müzakirə obyektinə çevrilirdi. Bu məsələdən söhbət düşəndə Ejer daha çılğınlıq göstərirdi. Azərbaycan tarixini, tarixi coğrafiyamızı pis bilməsə də, tez-tez deyirdi: “İran İslam Respublikasında 30-35 milyon türkün yaşadığını dəfələrlə eşitsəm, oxusam da, inana bilmirəm. Ona görə inana bilmirəm ki, belə bir böyük güc öz taleyini niyə həll etmir? Niyə ayağa qalxıb birləşmir. Müstəmləkəçiləri qovmur?!” Onun belə çılğınlıqla çıxış etdiyi bir vaxtda tanınmış türkoloq

N.A.Baskakovun “Altaylılar — qüzey və güney qrupuna ayrılan bir neçə tayfa birləşməsinin məhsuludur...” cümləsini oxuyanda duruxdu. Diqqətlə gözlərimə baxdı. Nə demək istədiyimi başa düşdü. Mənə müraciətlə dedi: “Müəllim, kitabdan-kitaba, bir elmi əsərdən başqasına keçən, ilk baxışda sırf elmi səciyyə daşıyan bu tərifin Altayın real həyatında min bir sifəti var.



Cəmi 80-90 min nəfərdən ibarət olmamıza baxmayaraq, Güney və Qüzey altaylılar bir-birlərindən xeyli fərqlənirlər. Bu fərqlilik öncə ləhcəmizdə hiss edilir. Qüzey qrupuna daxil olan tuba, kumandı, çalkandu ləhcələrində uyğur-oğuz elementi güclüdürsə, Güney qrupu qıpçaq ləhcəsində danışır. 20-ci yüzilin 20-30-cu

illərinədək, yəni Sovet hakimiyyəti qurulanadək altaylıların ədəbi dili qüzey qrupuna daxil olan tayfaların ləhcələri əsasında formalaşırdısa, son 60-70-ci ildə Güney ləhcəsi ön plana çıxdı. Bu da səbəbsiz deyildi. Sovetlər Birliyinin etnik xəritəsində Yakutsk şəhərindən Naxçıvanadək olan məsafəyə diqqətlə baxın. Sonra da orada yaşayan türk xalqlarının bu gününü göz önünə gətirin. Son illər iks şəhəri və onun ətrafında baş verən hadisələri yada salın. Əgər təsəvvürümüzdə tam aydın bir mənzərə yaransa, hər respublikanın, vilayətin, bölgənin güneyində yaşayanların qüzeydəki soydaşlarına nisbətən milli köklərə daha möhkəm bağlılığını, etnik cəhətdən daha az qarışıq olduğunu görəcəyik.

Dağlıq Altayda da son onillərdə Güney bölgəsi fəallaşdı. Beləliklə, Güney ləhcəsi ümumxalq ədəbi dilinə çevrildi. Bu doğal və yasal ortamda baş verdi. Amma proses o qədər də asan getmir. Müstəmləkəçilər "parçala, hökm sür!" siyasətindən hələ də əl çəkməyiblər. Son illər qəzetlərdə, radio və televiziyada, şifahi təbliğatda güneylilərin qüzeyliləri əritməsi söhbəti baş alıb gedir. Bu mövzuda altaylılar da, altaylı olmayanlar da danışır, yazır, mübahisəyə girişirlər. Necə deyərlər meydanı qızışdırırlar. İş

o yerə çatıb ki, kumandı ləhcəsində danışanlar pasportlarında milliyyətlərini kumandı yazdırırlar. Güneylilərin danışığında isə tuba sözü az qala söyüşdür; Ç.Aytmatovun dediyi kimi, öz kökündən ayrılmış, soyunu-kökünü bilməyən, "manqurt" anlamında işlədilir.

Ziddiyyəti bir şeylə də dərinləşdirirlər. Yaxşı bilirsiniz ki, Altay sözü çoxmənalıdı:

1. Bir sıra türk xalqlarının mənəviyyatında "xüsusi yer tutan"

2. Vətən, bölgə, məskən, ərazi.

3. Muxtar vilayət və diyar adı.

4. Hipotetik bir kökə gedib çıxan türk, monqol, tanqus-macar dilləri ailəsinin adı.

5. Ləhcə adı kimi işlədilir. Bu çoxmənalılıqdan da imperiyanın dəyirmanına bilərəkdən və ya bilməyərəkdən su tökən dilçilər və qeyri-dilçilər istifadə edirlər. Tarix səhnəsinə yenidən toparlanıb çıxmaq istəyən xalqa hər cür əngəllər törədirlər.

Müstəmləkə məmurları görürlər ki, altaylıları asanlıqla sıxışdırıb aradan çıxara bilmirlər. Düzdür, onlar Güney Sibirin etnik və lingivistik tarazlığını pozublar. Orada yaşayan türkləri altaylılar, xakaslar, tıvalılar, şorlar və s. adlar altında müxtəlif xalqlara çeviriblər. II Yekaterina

zamanında —18-ci yüzilin sonlarında altaylıları xakasları, şorları zorla xristianlaşdırdılar. Adamlar hökümət məmurlarının yanında xristian olduqlarını söyləsələr də, hətta kilsəyə getsələr də, uşaqlarına rəsmi sənədlərdə xristian adı versələr də, oradan ayrılan kimi yenə əski inanclarından əl çəkmədilər. Şaman onlar üçün ən müqəddəs şəxs oldu. 19-cu yüzildə Güney Sibirdə araşdırma aparmış ünlü türkoloq V.Radlov da burada yaşayan türklərin formal olaraq xristianlaşdığını yazır.

İstər çarlıq dövründə, istərsə də Sovetlər Birliyinin hakimiyyəti illərində Güney Sibirdə yaşayan türklər arasında bir tərəfdən tayfa davası salınmış, kütləvi qırğınlar, həbslər, sürgünlər aparılmış bir tərəfdən də kütləvi surətdə sərxoşluğa aludəçilik təşkil olunmuşdur.

Bütün bunlar əhalimizin sayını ildən-ilə azaltmışdır. Amma yox edə bilməmişdir. İmperiyanın əritmə siyasətinə güneylilər daha güclü müqavimət göstərmişdir. Buna görə də son illər başqa siyasət yeridilir. Güney bölgələrindəki çaylar üzərində nəhəng barajlar — dəryaçalar tikilir. Əhali ata-baba yurdunu tərk etmək, yüz illər boyu alışdığı həyat tərzini dəyişmək məcburiyyətində qalır. Bütün bunlara

baxmayaraq, Altay xalqı böyük potensial qüvvəyə malik, keyfiyyətcə yeniləşmiş bir etnos kimi meydana atılmağa hazırlaşır.

Ejerin xalqı haqqındakı bu uzun nitqi yorucu təsir bağışlamadı, əksinə nikbinliyi hamımızda xoş ovqat yaratdı.

Yay tətilində evlərinə gedən Ejerə xeyli tapşırıq vermişdim. Bu tapşırıqlar sırasına folklor, etnoqrafik materiallar toplamaq, yeni kitablar gətirməklə yanaşı, bölgənin ictimai-siyasi durumunu öyrənmək, xüsusən yeni yaradılmış "Eni tal" (yəni "Ana dili") qurumu haqqında geniş bilgi əldə etmək idi. Sovetlər Birliyində bir çalxalanma gedirdi. Biz isə türk xalqları və toplumlarında yeni yaranan qurumlarla birbaşa əlaqə yaratmaq istəyirdik. Amma onların çoxunun məqsəd və vəzifələri haqqında aydın təsəvvürümüz yox idi. Bilmirdik ki, hansı qurumlar yuxarıların göstərişinə, hansılar xalqın istəyilə yaranıb.

Çox keçmədi Ejerdən geniş bir məktub aldım. Məktub Azərbaycan türkcəsində aydın bir dillə yazılmışdı. Həmin məktubu qısa ixtisarla verirəm:

"Ene til"inin (yəni "Ana dili"nin — E.E.) məqsədi nədir?" sualını mən daha çox eşidirəm.

Hətta bəzi adamlar deyir ki, biz başqa respublikalar və xalqlardakı dil təmizliyi uğrunda mübarizəni kor-koranə təqlid edirik. “Ene til” vilayətdə aparılan bəzi kompaniyalar kimi tezliklə yoxa çıxacaq, —deyənləri də var.

Mən bilmirəm, “Ene til” birliyi neçə il ömür sürəcək. Ola bilsin ki, Altaylar yaşayan bütün kəndlərdə təhsil ancaq Altay dilində olanda; Altayların “Mən Altayam”— deyə özünü dərk etməsi tam güclənəndən sonra, bu təşkilata ehtiyac qalmayacaq.

Hələlik o rahatlığa nə vaxt nail ola biləcəyimizi dilə gətirmək də çətindir.

“Durğunluq dövrü”ndə Sovet dövlətinin hər yanında azsaylı xalqların milli məktəblərinin bağlandığını siz bilirsiniz. Dağlıq Altayımızda son sinfinədək Altay dilində dərs deyilən məktəb qalmayıb.

İndi isə vilayətimizdə Altay dili və mədəniyyətinin yeni nəfəsi və yeni inkişafı naminə başlanmış işlərə bir nəzər salaq.

Əvvəl, vilayət və rayon mərkəzlərindəki idarə və müəssisələrdə altayca danışa bilməyənlər üçün dil kursları açıldı. Sonra “Zvezda Altaya” qəzetində “Altayca danışmaq və oxumaq” sərlövhəsi altında qiyabi dərslər

başlandı. Daha sonralar isə uşaq bağçaları və məktəblərdə Altay dilini öyrənmək istəyən rus uşaqlarının qrupları yarandı. Məni düzgün başa düşünüz: bu hamısı yaxşı təşəbbüslərdir. Ancaq bunları Altay dilinin inkişafı ilə eyniləşdirmək olmaz.

Vaxtilə vilayət rəhbərləri və xalq təhsili sisteminin məsul əməkdaşları bu işləri sadalayaraq, mərkəzi mətbuat, tele-radio verilişlərində təntənəli hay-küy qaldırırdılar. İndi isə, yuxarıda dediyimiz təşəbbüslər yox olub. Şəhər məktəblərində 6-7 şagirdi "altay" adlanan siniflər (hələ ki) var. Vəssalam.

Bürokratizmin olduqca çevik sistem olduğunu bilirsiniz. Bizdə milli məsələ "çox gözəldir" dedikdən sonra, heç geriləmək olarmı? Bu səbəbə də məktəblərinin rayon xalq təhsili şöbələrini, rayon XTŞ-ləri vilayət XTİ-ni, vilayət XTİ-nin isə başqalarını aldatması zəncirvari davam edir. Nəticədə, Sov. İKP vilayət komitəsinin birinci katibi V.V.Qusev 12 noyabr 1989-cu il tarixli "Selskaya jizn" qəzetində dərc edilmiş məqaləsində bizim vilayətdə 115 milli məktəb olduğunu bildirmişdir. Bu böyük yanlışdır. O, "bizdə Altay dilinin öyrənilməsi

təşkil olunan 115 məktəb var" desəydi, daha düzgün olmazdımı?

Nədənsə, çoxları elə bilir ki, Altay məktəblərində dördüncü sinfə qədər tədris Altay dilində aparılır. Lakin gediniz, o məktəblərə baxınız. Orda altayca dərsliklər tapa bilməyəcəksiniz. Mən o dərslikləri müəllimləri təkmilləşdirmə institutunda şkaf şüşəsi arxasında görmüşəm.

Yaranmış vəziyyəti təhlil etmək və yalana yalan, düzüə düz demək məqsədiylə biz "Ene til"ini yaratmışıq. Dil xalqın bütün problemlərini özündə birləşdirir. Buna görə də birliyin işi çoxdur.

Altayların işgüzarlığı haqqında ilhamlı və təntənəli sözlər xeyli deyilir. Bunun nəticəsində çoxları özünü itirərək, uşaq-övladını, ömür-həyatını elə bil ki, unudur. Ancaq həqiqəti desək, Altay xalqının həyatı olduqca ağırdır və böyük çatışmamazlıqlar ilə doludur. Heç elə ola bilərmi ki, "Ene til" buna nəzər salmasın?

Bəziləri "Sizin hüquqlarınız yoxdur, siz ictimai təşkilatsınız, sizin nə imkanlarınız var?" deyirlər. Amma dekabrın 6-da vilayət İcraiyyə Komitəsi nəzdində təhsil sahəsi üzrə Ahəngdarlıq Fəaliyyət Şurasının (Koordinasiya Sovetinin —

E.E.) yaradılması ilk növbədə ”Ene til”inin zəhmətidir. Həmin səlahiyyətli şuraya “Ene til” birliyinin adamları da daxil oldu və onlar xeyli iş görə bilər.

Çoxları isə belə bir sual verir: “Bəs kəndlərdə təşkil olunan “Ene til” şö’bələri nə etməlidir?”

Hər şeydən əvvəl, yaşadığımız yurd, çay, dağ, qobu-dərələr adlarının təhrifinə yol verməməli. Məsələn, niyə Ekinur kəndinin adını rusca yazanda “Yakonur” olsun? Həmin kəndin adı altayca da, rusca da “Ekinur” olmalıdır.

Bütün müəssisə, kolxoz-sovxoz və b. təşkilatların lövhələri iki dildə yazılmalıdır. Bu çox vacibdir. Qorno-Altaysk şəhərində bu iş geniş həyata keçirilir. Bu gün Altay xalqını narahat edən bütün problemlər: Altay musiqisi, Altay nəğmələri, milli xörəklər, xalqımızın qədim oyunları, Altay geyimləri və s. “Ene til” şöbələrinin diqqət mərkəzində olmalıdır.

Qəzetlərdə “Ejer Erkin”, “Ejer Altaylı” və s. imzalarla məqalələr yazan, altaycadan Azərbaycan türkcəsinə, eyni həvəslə də altaycaya tərcümələr edən E.Çolakov 1990-cı ilin yayında Bakı Dövlət Universitetini bitirib vətəninə dönsə də, bizlərlə əlaqəsini kəsmədi. Gah telefonla danışdıq, gah məktublaşdıq. 1993-cü ilin 22-25

aprelində Zuğulbada (Bakı) keçirilən Türk gəncləri Birliyinin üçüncü qurultayında Ejer də iştirak edirdi. Fasilələrin birində qurultay iştirakçısı olan teleutlarla bərk müzakirəyə girişmişdi. Mən türkmənlərlə, özbəklərlə söhbət edəndə sözləri seçə-seçə, müəyyən fasilələrlə danışıram ki, bir-birimizi yaxşı başa düşək. Bunların çox iti-iti danışması isə açığını deyim ki, məni təəccübləndirdi. Ejerə müraciətlə: "Teleut dilini harada öyrənibsən? —deyəndə o bərkdən gülərək "Heç yerdə!" — dedi. Sözünə bir az ara verərək:

—Müəllim, bunlar da bizim naxçıvanlılardı də. Mehrini necə Ermənistan eləməklə Naxçıvanı Azərbaycandan aralı salıblarsa bunlar da eləcə bizdən ayrı düşüblər. Sizlərin bəxti gətirdi. Naxçıvanlıları Kəngərli, Kəsəmənli, Qarapapaq, Qaraçorlu və s. adlı bir xalq kimi formalaşdıra bilmədilər. Amma bizim bəxtimiz gətirmədi. Bir-birindən ayrı salınan hər tayfanı bir xalq kimi formalaşdırdılar.

Teleutların bir çoxu bu gün də özlərini boyat adlandırırlar. Soyköklərini hələ də unutmayıblar" — dedi.

Sibirdə doğulub, boya-başa çatmış Anempodist Sofronovu Solovki həbs

düşərgəsindəki qızdırılmayan baraklar, qidasızlıq, ağır iş rejimi xəstə edir. 1933-cü ildə vərəm xəstəliyinə tutulur. Həbsdən vərəmin ağır formasında vətənə döndür. Cəzasını çəksə də onun iş tapmasını mümkünsüz edirlər. Əsərlərinin nəşri və təbliği üzərindən qadağanı da götürmürlər. Maddi və mənəvi sıxıntıdan getdikçə vəziyyəti ağırlaşır. 1935-ci ilin oktyabrın 24-də dünyasını dəyişir.

Ölüm də Anempodist Sofronovun əsərlərinin nəşrini və səhnəyə qoyulması üzərindəki qadağanı aradan qaldıra bilmir. 1956-cı ildə keçirilən Sovet İttifaqı Kommunist Partiyasının 20-ci Qurultayında İosif Stalin cəmiyyətdəki bütün çatışmamazlıqların səbəbkarı kimi göstərildikdən sonra repressiya olunanlara bəraət verilməyə başlayır. Anempodist Sofronova da 1962-ci il noyabrın 15-də bəraət verildiyi elan edilir. Lakin onun əsərlərinin hamısının nəşrinə və təbliğinə icazə verilmir.

Sovetlər Birliyi çökdükdən sonra saxa xalqı sevimli oğlunu layiqincə dəyərləndirməyə başlayır. Adının əbədiləşdirilməsinə çalışılmışdır. Bu gün Yakutsk şəhərinə gələnlər onun heykəlini, adını daşıyan məktəbi, küçəni

görə bilir. Əsərlərinin nəşrinə, təbliği üzərindən qadağa götürülüb.

Çap olunub: Tarix yenidən yazılır – Ejer Çolokov, Tanıdığım insanlar, I kitab, "Sumqayıt nəşriyyatı", səh74-82.

ƏRİMƏKDƏ OLAN ALTAY DİLLƏRİNİN QORUYUCU MƏLƏYİ-NADEJDA TIDIKOVA



Mixail Qarbaçovun adı ilə bağlı olan Sovet İttifaqı Kommunist Partiyasının "perestroyka" (yenidənqurma) və "qlasnost" (aşkarlıq) şüarları mənim də Türk xalqları ilə əlaqəmin genişlənməsinə səbəb oldu. Sovet İttifaqında mətbuat üzərindəki sərt senzor nəzarətində bir yumşalma meydana gəldi. Uzun illərin formalaşdırdığı çərçivələr dağılmağa başladı.

Əvvəllər bölgələrdəki qəzet və jurnaların əməkdaşlarına əsasən yaşadıqları rayonun, vilayətin, muxtar və müttəfiq respublikanın həyatından yazmağa icazə verilirdi. İnformasiyanın mərkəzdən yayılması üçün Sovet İttifaqının Teleqraf Agentliyi və Xəbərlər Məlumat Agentliyi kimi nəhəng təşkilatlar yaradılmışdı. İnsafən həmin qurumların göndərdikləri materiallar gen-bol olurdu. Bu o demək idi ki, bölgələrdəki qəzet və jurnallar

mərkəzin xəbəri olmadan qonşu muxtar respublika nədir, vilayətdən və rayondan da yazı verməsin. Yəni bütün mətbuat eyni fikri paylaşsın.

"Perestroyka" (yenidənqurma) və "qlasnost" (aşkarlıq) şüarlarının yaratdığı şəraitdən istifadə edərək, mərkəzi hakimiyyəti yan keçib Sovetlər Birliyinin əyalətləri ilə birbaşa əlaqə qurmaq istəyənlər üçün yeni imkanlar açıldı. Bu fürsətdən yararlananlardan biri də mən oldum. Naxçıvanın ali hakimiyyət orqanlarının yeganə qəzeti "Sovet Naxçıvanı"nda SSRİ-dəki muxtar respublikaların həyatından yazılar verməyə başladım. Həm də Naxçıvan haqqında qəzetin bir səhifəsi həcmində məqalələr hazırlayaraq onlara göndərdim. Buna o dövrdə qəzetlər arasında səhifə mübadiləsi deyilirdi. Materiallarda Sovet təbliğatından kənar heç nə olmasa da, mərkəzdən qaçma ruhu vardı. Qəzetlərimiz arasında səhifə mübadiləsi etməkdə əsas məqsədim Sovetlər Birliyində yaşayan türk xalqları ilə birbaşa əlaqə qurmaq idi. Bununla da kifayətlənmir, onların ana dillərində çap olunan qəzet və jurnallara abunə yazılır, oradan əldə etdiyimiz məlumatları milli şüurlu aydınlar arasında yayırdıq.

Hər il partiya koministlərindən siyahı gəlirdi ki, idarə və təşkilatlarda çalışanlar hansı qəzet və jurnallara abunə yazılmalıdır. Bu, necə deyərlər, məcburi idi. Tək-tək insanlar vardı ki, planda nəzərdə tutulmamış qəzet və jurnallara abunə yazıla bilirdi. Onlara da sərt müqavimət göstərilmirdi. Əsas planda nəzərdə tutulan mətbuata abunə yazılmaq idi.



2014-cü ilin mayın 26-28-də Eskişəhərdə keçirilən "Türk Dünyası Bilgeler Zirvesi: Gönül Sultanları Buluşması" konfransına Nadejda Tıdıkova ilə müzakirə

Planda nəzərdə tutulmamış qəzet və jurnallara abunə yazılmaqla müttəfiq və muxtar respublikalar, muxtar vilayət və mahallar haqqında daha çox bilgi əldə edə bilirdi. Beləcə SSRİ-də yaşayan xalqlarla birbaşa əlaqələrimiz gündən-günə genişlənirdi. Sovetlər Birliyindəki yumşalma yalnız mətbuatda özünü göstərmirdi. Azərbaycanın ali məktəblərinə Türk xalqlarının gəncləri oxumağa dəvət edilirdi. Altaydan dəvət edilmiş Ejer Çolakovun Azərbaycan Dövlət Universitetində oxuması bölgəyə marağımızı artırmışdı. 1989-cu ilin yazında yeni formalaşmağa başlayan xalq cəbhəsinin üzvləri onu və qaqauz Tudora Arnautu tələbə yoldaşları ilə birlikdə Naxçıvana dəvət etdilər. Bu dəvətə yerli hakimiyyət orqanlarının rəbərləri sərt etiraz etməsələr də, onlara klublarda, mədəniyyət evlərində gürüşlər keçirməyə icazə vermirdilər. Biz də görüşləri çayxanalarda keçirirdik. O zaman çayxanalar hakimiyyət orqanlarının nəzarətinin nisbətən zəif olduğu yer idi. Çayxanaya gələnlərə, orada edilən söhbətlərə hakimiyyətdəkilər o qədər də ciddi yanaşmırdılar. Yaranmış boşluqdan yararlanaraq təbliğatımızı orada aparırdıq. Altaylını, Qaqauzu gətirib çayxanalarda görüşlər keçirəndə Sovet rejimi

əleyhinə heç bir təbliğat aparmırdıq. Sadəcə millətimizin nümayəndələrinə göstərmək istəyirdik ki, yaşadığınız kənddən, bölgədən min kilometrlərlə uzaqda yaşayan elə xalqlar var onların danışıqlarını tərcüməçisiz başa düşürsünüz. Onlarla danışanda Rus dilinə ehtiyac qalmır.

Ejer Çolokov Altayla aramızda ilk körpülərdən oldu. Sonralar Altay Türkləri ilə olduğu kimi SSRİ-də yaşayan başqa Türk xalqlarının aydınları ilə əlaqələrimiz genişləndi. Onlar haqqında daha çox bilgi əldə edib, aydınlar arasında paylaşmağa çalışdıq. Ejer Çolokovdan sonra bir neçə Altaylı ilə tanış olsam da, onların içində Nadejda Tıdıkova ilə dostluq əlaqələrimiz davamlı oldu.

Nadejda Tıdıkova haqqında ilk bilgini Arif Acal verdi. Yəni onun Bakıda çap olunan "Türkologiya" (keçmiş "Советская тюркология") jurnalındakı məqaləsini oxumağı məsləhət gördü. **"Türkologiya"** jurnalının 1992-ci il, 3-cü sayındakı məqalədə Altay dilində felin sifət formaları təhlil edilirdi. Məqalə müəllifinin adının qarşısında Sankt-Peterburq yazılmışdı. Bu o demək idi ki, Nadejda Tıdıkova Altayda deyil, Sankt-Peterburqda yaşayır. Sonralar bildim ki,

Nadejda Tıdıkova “Türkologiya” jurnalına məqaləni aspiranturada oxuyanda göndəribmiş. Dilçi olmadığıma görə məqalə müəllifi ilə o qədər də maraqlanmadım və yazılarına da demək olar diqqət etmədim.

2010-cu il dekabrın 16-18-də İzmirdə Dokuz Eylül Universitetinin keçirdiyi 3-cü Uluslararası Dünya Dili Türkçe Sempoziumunda Nadejda Tıdıkova ilə tanış olduq. Söhbətindən öyrəndim ki, bu onun Türkiyəyə birinci gəlişi deyil. 2007-ci ildə İstanbulda prof. Emine Naskalinin keçirdiyi bir simpoziumunda da iştirak edib. İlk söhbətimiz Ejer Çolokovdan oldu. Onun elm ilə məşğul olmamasına hər ikimiz xeyli heyifsiləndik.



Şəkildə: Nadejda Tıdıkova çox sevdiyi Azərbaycan süfrəsi arxasında

Nadejda xanım elektorn poçtunu, iki səhifəlik özkeçmişini və əsərlərinin bir qisminin siyahısını verdi. Oradan öyrəndim ki, Nadejda Nikolay qızı Tıdıkova 1958-ci il martın 6-da Altay Respublikasının Şebalin rayonunun Beşpeltir kəndində (indi bu kənd Beş-Özök adlanır) anadan olub. Orta məktəbi bitirdikdən sonra 1976–1981-ci illərdə Barnaul Dövlət Pedaqoji İnstitutunun Xarici dillər fakültəsində Alman və İngilis dilləri şöbəsində oxuyub. Sonra Leninqrad Dövlət Universitetinin Şərq fakültəsinin (1987-1991-ci illərdə) aspirantı olub. V. Q. Quzevin rəhbərliyi altında "Altay dilində hərəkətin ikinci dərəcəli təqdimatı konsepsiyası" mövzusunda dissertasiya işi götürüb.

S.S. Surazakov adına Altayşünaslıq Elmi-Tədqiqat İnstitutunun dil üzrə elmi-tədqiqat qrupunda işləməklə yanaşı, Altay Dövlət Universitetində dərs deməyə başlayıb. N. N. Tıdykova "Sosial-siyasi və sosial-iqtisadi terminlərin rus-altay-ingilis lüğəti"nin (2004) müəllifi, "Altay dilinin şimal ləhcələrinin tematik lüğəti"nin (2004), "N. A. Baskakovun 100 illiyinə həsr olunmuş bio-biblioqrafik kitabça"nın (2005) həmmüəllifi, "Koş-Aqaç və Ulaqan rayonlarının şivələri lüğəti"nin (2006) tərtibçisi,

"Altay Respublikasında dil vəziyyəti və dil siyasəti" elmi əsərinin həmmüəllifi və baş redaktoru, Rusiya Fövqəladə Hallar Nazirliyinin Altay Respublikası üzrə Baş İdarəsi üçün "Jetkertÿbekke tÿshkenderge bastapky bolush" dərsliyinin tərcüməçisi və redaktorudur (2016).

Son illərdə o, Altay Respublikasının "Təhsilin İnkişafı" dövlət proqramı olan "Altay Respublikasında Elmin İnkişafı" proqramı çərçivəsində "Altay Respublikası Xalqlarının Etnomədəni İrsi" əsas tədbiri üçün tədqiqat layihələrinin icraçısı kimi çalışır. Layihələrdə iştirakın nəticələri N.N. Tıdıkova tərəfindən həmmüəllif olduğu kollektiv işlərdir: "Rus-Altay Lüğəti". I cild (A-O) (2015), "Rus-Altay Lüğəti". II cild (P-Ya) (2016), "Müasir Altay dilinin qrammatikası. Morfologiya hissəsi" (2017), "Altay-Rus lüğəti" (2018), "Müasir Altay dilinin orfoqrafiya qaydaları" (2019), "Altay dilinin orfoqrafiyası. Altay dilinin orfoqrafiya lüğəti" (2020), "Altay Respublikasının toponimiyası. 1-ci kitab. Şebalinski rayonu" (2022), "Altay Respublikasının toponimiyası: 2-ci kitab. Onquday rayonu" (2022), "Altay Respublikasının toponimiyası. 3-cü kitab. Çemal rayonu" (2022), "Altay Respublikasının toponimiyası. 4-cü kitab.

Çoyski rayonu" (2022), "Altay Respublikasının toponimiyası. 5-ci kitab. Ust-Koksinski rayonu" (2022), "Altay Respublikasının toponimiyası: 6-cı kitab. Ust-Kanski rayonu" (2022), "Altay Respublikasının toponimiyası: 7-ci kitab. Turoçakski rayonu" (2023), "Altay Respublikasının toponimiyası. 8-ci kitab. Mayminski rayonu" (2023),

Hazırda "Altay dilinin izahlı lüğəti" tədqiqat layihəsinin icraçısıdır (2025).



Şəkildə: Nadejda Tıdıkova gənc araşdırıcı Aynur Qəzənfərqızı ilə sevimli Bakını gəzərkən

Nadejda Tıdıkova ilə emaillə yazışırdıq. Hərdən elmi məqalələrini mənə oxumağa göndərirdi. Mən də tanıdığım bütün araşdırıcılar kimi ona da Türkoloji mövzuda dünyanın müxtəlif ölkələrində keçiriləcək elmi toplantılar haqqında bilgi göndərirdim. İqtisadi vəziyyətləri bizim günümüzdə olduğundan yolpulu, qonaqlama xərcləri ödənən simpoziumlara qatılmağa həvəsləndirirdim. Lakin cəhdim elə bir nəticə vermirdi.

2014-cü ilin mayın 26-28-də Eskişəhərdə keçirilən "Türk Dünyası Bilgeler Zirvesi: Gönül Sultanları Buluşması" konfransına gəlmişdi. Mən konfransa xanımımı da aparmışdım. Nadejda Tıdıkova axşam yeməyindən sonra otağımıza gəldi. Gətirdiyi hədiyyələr arasında maral dərisindən çarığ, maral buynuzundan hazırlanmış iksir və başqa Altay məhsulları da vardı. Xeyli söhbət etdik. Dedi ki, bütün xərcləri simpozium təşkilatçıları ödəsələr də, yerli məmurlar bizi xarici ölkələrə getməyimizə əngəl olurlar. Sovetlər Birliyi dağılsa da, onlar hələ də keçmişdən ayrıla bilməyiblər.

Simpozium günlərində Nadejda Tıdıkova xanımımla mehribanlaşdı, necə deyərlər, qısa bir zaman kəsimində rəfiqəyə çevrildilər. Türkiyədə

Altaya böyük maraq olduğundan və keçmiş Sovetlər Birliyinin gənc türkoloqlarının orada hazırlandığından istəyirdim ki, Nadejda xanım əsərlərini Türkiyə Türkcəsinə çevirtdirib nəşr etdirsin. Nədənsə bu iş ləng gedirdi. Gülnar Hüseynova onun "Altay Cümhuriyətində yer adlarında somonimlərə dair bir dəyərləndirmə" məqaləsini Türkiyə Türkcəsinə çevirib çap etdirdiyini alqışladım.

Nadejda Tıdıkova Bakıya dəvət etdiyim elmi konfransda iştirak etməklə qalmadı, Türkiyədəki toplantılara gedəndə biletini elə alırdı ki, bir neçə gün Bakıda olsun, bizdə qalsın, elm ocaqlarına, kitabxanalara gedək, araşdırıcılarla görüşək. Dərdləşəndə deyirdi: "Azsaylı xalqların işi çox çətindir. Həm iqtisadi vəziyyətimiz ağır olduğundan yazdığımız kitabları, məqalələri vaxtında çap etdirə bilmirik, həm də bir sahənin dərindən araşdırılmasına vaxt ayırmağa imkan olmur. Biz yalnız dilin struktur xüsusiyyətlərini deyil, həm də həmin dilin daşıyıcısı olan xalqın tarixini, mədəniyyətini, dünyagörüşünü araşdırırmalı oluruq. Altay dillərinin leksik, qrammatik və funksional xüsusiyyətlərini sistemli şəkildə araşdırmaq məcburiyyətindəyik. Altay dilinin leksikologiyası, hüquqi dilçilik,

sosial-siyasi terminologiya və tətbiqi dilçilik sahələrini öyrənir, müasir dilçilikdə terminoloji sistemləri araşdırır, həm dil nəzəriyyəsini, həm də tətbiqini öyrənirik. Çoxsahəli işləri görməyə kadrlarımız çatmır".

Altay türklərinin dilinin araşdırılması əsas tədqiqat sahəsi olduğundan Nadejda Tıdıkova terminoloji sistemin strukturlaşdırılmasına, leksik vahidlərin semantik təhlilinə, dil və toplum münasibətlərininə daha çox diqqət ayırır. Rusiyanın apardığı əritmə siyasəti nəticəsində yox olmağa doğru gedən Altay dilini qorumaq üçün Nadejda Tıdıkova və onun kimi fədakarlar var gücləri ilə çalışırlar.

Altay dilində terminologiyanın inkişafında böyük əməyi olan araşdırıcının hazırladığı üçdilli (rus-altay-ingilis) terminoloji lüğətləri, sosial və iqtisadi terminlərin sistemləşdirilməsi, yeni terminlərin yaradılması və normallaşdırılması mövzusundakı əsərləri olduqca aktualdır. Dilçiliyin hansı sahəsindən yazırsa yazsın orada folkor nümunələrindən yararlanmağa üstünlük verir. Yaxşı bilir ki, folklor xalqın ruhunu özündə daşıyır. Altay dillərini Türk dilləri ilə müqayisəli öyrənilməsinə xüsusi diqqət yetirən Nadejda Tıdıkova kollektiv məhsulun əməyi olan 10

cildlik “Altay Respublikasının toponimikası”nın bir cildinin PDF-ini mənə göndərmişdi. Kitabdakı 1832–1928-ci illəri əhatə edən müxtəlif yazılı mənbələrə və ekspedisiya materiallarına dayanan sənədlərdəki coğrafi adlar marağıma səbəb oldu. Baxdım ki, burada yalnız Azərbaycan dilçiləri üçün deyil, mifoloqları, dastanşünasları üçün də nə qədər maraqlı bilgilər var.



AMEA Folklor İnstitutunun qarşısı. Səkildə: soldan Əli Şamil və Nadejda Tıdıkova

Koviddən qorunmaq adı altında adamlara kütləvi vaksin vurulması bir çoxları kimi Nadejda Tıdıkovaya da ağır təsir göstərdi. Xəstəliyi şiddətləndiyindən elmi araşdırmalarla bir müddət məşğul ola bilmədi. Allaha
çox şükür ki, indi sağlıq durumu yaxşılaşmaqdadır. O, fəaliyyəti yalnız akademik çərçivə ilə məhdudlaşmır, milli-mədəni irsin qorunması üçün əlindən gələni əsirgəmir. Araşdırıcı yaxşı bilir ki, dil yalnız ünsiyyət vasitəsi deyil, həm də milli yaddaşdır. Azsaylı insanların danışdığı dil də bəşəri dəyərdir. Türk dünyasının birliyi üçün birinci növbədə ortaq ünsiyyət dilinin yaranması vacibdir.

Altay dilçiliyinin aparıcı nümayəndələrindən biri olan Nadejda Tıdıkova universitetdə dərs dediyindən elmi biliklərin praktik tətbiqinə də xidmət və qayğı göstərir.

Nadejda Tıdıkovanın indiyədək altay, rus və türk dillərində yazılmış təxminən 250-yə yaxın əsəri çap olunub. Onların arasında 2015 və 2016-cı illərdə çap olunmuş "Rusca-altayca lüğət", 2017-ci idlə çap olunmuş "Müasir Altay dilinin qrammatikası. Morfologiya" (kollektiv müəllif), 2018-ci idlə çap edilmiş "Altayca-rusca lüğət" və b. əsərlər də var.

İnstitutda işlədiyi illərdə N.N. Tıdykova İnstitutun Elmi Şurasının üzvü, Terminologiya Komissiyasının üzvü və Adıgey Respublikası hökuməti yanında Altay Dili Şurasının üzvü olmuşdur. Nadejda Nikolayevna Altay Respublikası Dövlət Məclisinin - El Qurultayının Fəxri Fərmanı (04.05.2006-cı il tarixli Qərar, № 6), Altay Respublikasının Fəxri Fərmanı (21.06.2010-cu il tarixli № 143-u Fərmanı), "Qurbanlara İlk Yardım" dərsliyinin rus dilindən Altay dilinə tərcüməsi və redaktəsinə görə Rusiya Fövqəladə Hallar Nazirliyinin Altay Respublikası üzrə Baş İdarəsinin Fəxri Fərmanına (Rusiya Fövqəladə Hallar Nazirliyinin Altay Respublikası üzrə Baş İdarəsinin 04.02.2016-cı il tarixli, № 29 əmri), uzun illər səmərəli fəaliyyətinə görə və Rusiya Elmi Gününün qeyd olunması ilə əlaqədar olaraq Altay Respublikası Təhsil və Elm Nazirliyinin Fəxri Fərmanı (30.01.2018-ci il tarixli, № 106 əmri), Altay Respublikası Təhsil və Elm Nazirliyinin Təşəkkür məktubu (N. N. Tıdıkovanın əmri (Avqust)) ilə təltif

edilmişdir. 6 fevral 2018-ci il, № 960) 2023-cü il üçün Altay Respublikasının Fəxri Lövhəsi laureatıdır (Altay Respublikası rəhbərinin 28 fevral 2023-cü il tarixli Fərmanı, № 68-u). Elmi fəaliyyətdə və vicdanlı işdə əldə etdiyi əhəmiyyətli nailiyyətlərə görə Rusiya Federasiyası Elm və Ali Təhsil Nazirliyinin Fəxri Sertifikatı ilə təltif edilmişdir (14 avqust 2025-ci il tarixli Sərəncam, № 628 k/n).

N. N. Tıdykova Altay Respublikasının rəsmi dillərində - rus və altay dillərində sərbəst danışır, türk və alman dillərində danışır, ingilis dilindən oxuyur və tərcümə edir.

Xarici ölkə türkoloqları ilə əməkdaşlıq edən, birgə layihələrin müəllifi olan, beynəlxalq elmi jurnalların redaksiya heyətlərinin üzvü olan Nadejda Tıdıkova son dövrlər daha çox onlayn işləməyə üstünlük verir. Onun Altayda yaşayan Türklərin əriməkdə olan dilləri haqqında apardığı araşdırmalar və çap etdirdiyi məqalələr nədənsə mənə "qu quşunun son nəğməsi" ifadəsini yada salır.

ƏLİ ŞAMİL

SİBİR TÜRKLƏRİ (MƏQALƏLƏR)

Direktor: **Səbuhi Aslan**
Dizayner: **Nigar Sadıqova**
Texniki redaktor: **Hüseyn Məmmədov**

Çapa imzalanmışdır: 21.06.2026
Ofset çapı. Əla növ kağız
Tiraj: 100
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru

Qeyd üçün: